Xalqın qəzeti!

# Xalq qəzeti

№ 140 (30544) 7 iyul 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## “Qarabağ Bəyannaməsi” Şuşada Türk əsrinin yüksəliş zəngini çaldı!




Səhifə ⇨ 2

## İran İslam Respublikasının yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Məsud Pezeşkiana



**Hörmətli cənab Pezeşkian!**

İran İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ortaq dini-mədəni köklər, dostluq və qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş münasibətlərə böyük əhəmiyyət veririk. Ötən onilliklər ərzində qarşılıqlı faydalı əməkdaşlığımızın bütün sahələrdə, xüsusilə də iqtisadiyyat, nəqliyyat, energetika və humanitar sahələrdə dinamik inkişaf edərək bugünkü səviyyəyə yüksəlməsi və yeni məzmun kəsb etməsi bizi sevindirir.

Bu gün qarşılıqlı hörmətə və mehriban qonşuluğa əsaslanan Azərbaycan–İran əlaqələrinin gələcək inkişaf istiqamətlərinə dair əldə edilmiş razılaşmalar, icra olunan birgə layihələr ölkələrimizin rifahına, bütövlükdə regionun davamlı inkişafına və təhlükəsizliyinə xidmət edir.

Əminəm ki, birgə səylərimizlə xalqlarımızın və ölkələrimizin mənafeləri naminə Azərbaycan ilə İran arasında ənənəvi dostluq münasibətlərinin daha da möhkəmlənməsinə, qarşılıqlı maraq doğuran əməkdaşlığın genişlənməsinə nail olacağıq.

İkitərəfli əməkdaşlığımızın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparmaq məqsədilə Sizi Azərbaycana səfərə dəvət edirəm.

Sizə ən xoş arzularımı çatdırır, dost və qardaş İran xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyul 2024-cü il**

## Astana Bəyannaməsi: Xəzərdən Çin səddinədək



Səhifə ⇨ 5

## Prezident İlham Əliyev: Türkiyə millisinə Hollandiya ilə oyunda qələbə arzu edirəm

**Almaniyada keçirilən futbol üzrə Avropa çempionatında uğurla çıxış edən qardaş Türkiyə milli komandasını 1/4 mərhələyə vəsiqə qazanaraq 8 ən güclü Avropa millisi arasında yer alması münasibətilə təbrik edirəm.**

Bu barədə Prezident İlham Əliyev rəsmi “X” sosial şəbəkə hesabında paylaşım edib.

“Xüsusilə, 1/8 final mərhələsində 2 qol vuraraq oyunun ən yaxşı futbolçusu seçilmiş Merih Demiralı təbrik edirəm. Merihə qarşı tətbiq edilən cəza ədalətsizdir və bunu qətiyyətlə pisləyirəm. Türkiyə millisinə Hollandiya ilə oyunda qələbə arzu edirəm!

Yaşasın Türk dünyası!” – paylaşımda qeyd edilib.



## Mərkəzi Seçki Komissiyasının iclasında



Səhifə ⇨ 4

## Dünya bazarına çıxışımız genişlənir



Səhifə ⇨ 8

## “Amerikasayağı” demokratiya



Səhifə ⇨ 6

## İspan “korridalar”ı fransız “xoruzlar”ı ilə yarımfinalda



Səhifə ⇨ 12

## Böyük Britaniya: Leyboristlərin lideri baş nazirdir



Səhifə ⇨ 11

## Nəğməli “İpək yolu” Şəkidən keçir




Səhifə ⇨ 10

## Mehdiqulu xanın mirzəsi və Bakıxanovun bir əsəri

Səhifə ⇨ 10

# Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü

**İyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Zirvə görüşündə iştirak ediblər. Prezident İlham Əliyev Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşıladı. Dövlətimizin başçısı tədbirdə çıxış etdi.**




## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli dövlət və hökumət başçıları!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana, Qarabağa “Xoş gəlmisiniz!”.

Türk Dövlətləri Təşkilatının ildə bir dəfə qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüsümü dəstəklədiyiniz və dəvətimizi qəbul edərək Şuşa şəhərinə gəldiyiniz üçün təşəkkür edirəm.

Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, Türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir.

Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir. Biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii resurslarımız, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir. Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir. XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır.

Keçən il sentyabrın 20-də Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edəndən sonra Şuşada keçirilən bu Zirvə görüşü rəmzi məna daşıyır.

Qarabağın tacı Şuşa şəhəri həmişə Azərbaycanın və regionun mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur.

Şuşanın 1992-ci ilin mayında Ermənistan tərəfindən işğal edilməsi Azərbaycan xalqının böyük faciəsi idi. Azərbaycan xalqı bu işğalla heç vaxt barışmamış, həmişə Şuşaya və işğal altında olan digər ərazilərimizə qayıtmaq arzusu ilə yaşamış və buna nail olmuşdur.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu döyüş meydanında 300-dən çox şəhər və kəndi Ermənistanın təxminən 30 il davam edən işğalından azad etmişdir. 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsindən sonra Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur olmuş və beləliklə, İkinci Qarabağ müharibəsi başa çatmışdır. Hər il noyabrın 8-i Azərbaycanda Zəfər Günü kimi qeyd edilir.

Sərəncamımla 2021-ci ildə Şuşa şəhəri “Azərbaycanın mədəniyyət paytaxtı” elan olundu. Qarabağ xanı Pənahəli xan tərəfindən Şuşanın təməlinin qoyulmasının 270-ci ildönümü ilə əlaqədar 2022-ci il Azərbaycanda “Şuşa İli” elan edilmişdir. TÜRKSOY tərəfindən Şuşa şəhəri 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı”, ICESCO tərəfindən isə 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan olunmuşdur.

Qardaşım Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan və Türkiyənin rəsmi müttəfiqliyinin əsasını qoyan Şuşa Bəyannaməsi də 2021-ci ildə məhz Şuşada imzalanmışdır.

Bu gün Qarabağ Bəyannaməsi də Şuşada imzalanacaq.

Hörmətli həmkarlar, bu gün Qarabağ və Şərqi Zəngəzurda “Böyük Qayıdış” Proqramı icra olunur. Ermənistan işğal dövründə bu ərazilərdə bütün şəhər və kəndləri yerlə-yeksan etmişdir. İndi isə bu torpaqlara həyat qayıdır.

“Böyük Qayıdış” Proqramının icrası çərçivəsində bu günə qədər 8 minə yaxın keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıdıb. Bu ilin sonuna qədər 20 min insan azad edilmiş torpaqlara qayıdacaq.

Türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri qardaşlıq həmrəyliyinin təzahürüdür. Türkiyə Prezidenti Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla, Özbəkistan və Qazaxıstan prezidentləri Şuşa və Füzuliyə, Qırğızıstan Prezidenti Füzuli və Ağdama səfərlər etmişlər.

Fürsətdən istifadə edərək, qardaşlığımızın rəmzi olan məktəb və yaradıcılıq mərkəzinə və eləcə də tikiləcək məktəblərə görə qardaş ölkələrin dövlət və hökumət başçılarına bir daha təşəkkürümü bildirirəm.

Əziz dostlar, hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının cari büdcəsi və strukturu bizim birlikdə nəzərdə tutduğumuz hədəflərin reallaşdırılması üçün yetərli deyil. Buna görə, Azərbaycan bu günlərdə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində vəsait köçürmüşdür.

Şərq–Qərb nəqliyyat dəhlizinin genişləndirilməsi qarşımızda duran prioritet məsələlərdən biridir.

Orta Dəhlizin ayrılmaz bir hissəsi olan Bakı–Tbilisi–Qars dəmir yolunun illik yükaşırma qabiliyyəti Azərbaycanın əlavə sərmayəsi nəticəsində 1 milyondan 5 milyon tona çatdırılıb.

Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan Türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Artan yükdaşımalarını nəzərə alaraq, hazırda Bakı gəmiqayırma zavodunda 6 gəmi inşa edilir. Gələn il ölkəmizin 9-cu Beynəlxalq Hava Limanı Laçında istismara veriləcək. Ələt Beynəlxalq Ticarət Limanının yükötürmə qabiliyyəti 15 milyon tondan 25 milyon tona qədər genişləndiriləcək.

Bu ilin may ayında İstanbulda Türk İnvestisiya Fondunun təsis iclasının keçirilməsi iqtisadi əlaqələrimizin daha da dərinləşməsinə xidmət edən növbəti uğurlu addımdır. İnanıram ki, Fond vasitəsilə bir çox sahələrdə birgə layihələrə sərmayə qoyulacaqdır.

Enerji sahəsində strateji tərəfdaşlığımız, o cümlədən, bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlığımız çox əhəmiyyətlidir.

Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Avropa və Asiya arasında fiber-optik telekommunikasiya marşrutu yaratmaq məqsədi daşıyan “Rəqəmsal İpək Yolu” layihəsi də mühüm təşəbbüslərdən biridir.

Bildiyiniz kimi, bu il Azərbaycan COP29 konfransına evsahibliyi edəcək. Fürsətdən istifadə edərək sizin hər birinizi bir daha COP29-a dəvət edirəm. COP29-a sədrlik və bu tədbirin Bakıda keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın bariz nümunəsidir. 200-ə yaxın ölkə bizim namizədliyimizi yekdilliklə dəstəkləmişdir. Azərbaycan Qoşulmama Hərəkatında 4 il sədrliyi dövründə əldə etdiyi təcrübədən istifadə edərək inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında həmrəyliyin gücləndirilməsi, konsensusa nail olunması üçün səylərini əsirgəməyəcək.

Əminəm ki, bu gün imzalayacağımız Qarabağ Bəyannaməsi, qəbul etdiyimiz qərarlar Türk dünyasının həmrəyliyini və eyni zamanda, Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunu daha da gücləndirəcəkdir.

***

Sonra digər dövlət və hökumət başçıları çıxış etdilər.

**Türk Dövlətləri Təşkilatının hazırkı sədri, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olması istiqamətində atılan addımları xüsusi vurğulayaraq dedi:** “Ümumiyyətlə, istənilən münaqişə və qarşıdurmanı həll etməyin bir yolu var. Bu, konstruktiv dialoqdur. Bu mənada, sədrliyimiz çərçivəsində biz vasitəçiliyə xüsusi diqqət yetiririk. Mən Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olması istiqamətində müsbət tendensiyanı vurğulamaq istərdim. Biz barışığa yönəlmiş addımları alqışlamalıyıq. Biz Bakı və İrəvan arasında sülh danışıqları üçün platformamızı təklif etməyə hər zaman hazırıq”.

Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutunun əhəmiyyətini vurğulayan Qazaxıstan Prezidenti bildirdi: “Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutunun bütün potensialı istifadə olunmalıdır. Bu gün bu istiqamətdə konteyner daşımalarının həcmi kəskin şəkildə artıb. Biz nəqliyyat daşımalarının vaxtını azaltmaq üçün multimodal rəqəmsal platforma, rəqəmsal ticarət dəhlizi yaratmışıq. Bu istiqamətdə Azərbaycanla sıx əməkdaşlıq edirik”.

Prezident Kasım-Jomart Tokayev COP29-da fəal iştirak edəcəklərini diqqətə çatdıraraq vurğuladı: “Biz iqlim məsələləri ilə bağlı Türk dünyası ilə əməkdaşlığı gücləndirməyə hazırıq. Bununla əlaqədar biz bu il Azərbaycanda keçiriləcək COP29 iqlim konfransının işində fəal iştirak etməyi planlaşdırırıq”.

***

**Sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov çıxış edərək dedi:** “Hörmətli cənab Prezident. Hörmətli dövlət başçıları. Hörmətli Baş katib. Hörmətli tədbir iştirakçıları və qonaqlar. Türkdilli dövlətlərin qeyri-rəsmi Zirvə görüşündə sizi görməkdən məmnunam. Görüşümüz Azərbaycanın Qarabağ bölgəsinin rəmzi və incisi olan, türk xalqlarının birliyinin və həmrəyliyinin yeni rəmzi olan tarixi Şuşa şəhərində keçirilir. İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti, hörmətli İlham Heydər oğlu Əliyevə ənənəvi qonaqpərvərliyə və yüksək səviyyəli hazırlığa görə dərin minnətdarlığımı ifadə etmək istəyirəm”.

Azərbaycanın noyabrda COP29-a uğurla sədrlik edəcəyinə əminliyini ifadə edən Qırğızıstan Prezidenti bildirdi: “Sevindirici haldır ki, bu ilin noyabr ayında qardaş Azərbaycan ən vacib qlobal forumlardan birinə – BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a evsahibliyi edəcək. Əminəm ki, Azərbaycanın COP29-a sədrliyi qarşıdan gələn konfransın gündəliyində duran məsələlərin, o cümlədən iqlim maliyyələşməsini əhəmiyyətli dərəcədə irəliyə apara biləcək”.

Qırğızıstan Prezidenti Azərbaycanla və təşkilata üzv olan digər ölkələrlə bərpaolunan enerji sahəsində əməkdaşlıqda maraqlı olduqlarını vurğulayaraq qeyd etdi: “Azərbaycanın bərpaolunan enerji mənbələrini, o cümlədən, COP29-a sədrliyi çərçivəsində fəal inkişaf etdirdiyini və təşviq etdiyini nəzərə alaraq, biz Azərbaycan tərəfinə və ümumilikdə üzv dövlətlərə bərpaolunan enerji mənbələri ilə bağlı birgə layihələri həyata keçirmək üçün çağırış edirik”.

***




**Tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlanan təşəkkürlərə səmimi-qəlbdən qoşulduğunu bildirən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev dedi:** “Sizinlə Türk dünyasının mədəniyyət paytaxtlarından biri olan Şuşa şəhərində görüşməyimizin dərin mənası var. Gözəl Qarabağın incisi sayılan bu müqəddəs şəhər Azərbaycan xalqının cəsarətini, bənzərsiz mətanətini, əsl igidliyini və birliyini açıq şəkildə göstərən tarixi Zəfərin parlaq rəmzidir. XX əsrin böyük siyasi və dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin qurucusu möhtərəm Heydər Əliyevin sözləri ilə desək, Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur. Beləliklə, bu unikal şəhər təkcə Azərbaycan xalqının deyil, bütün türk xalqlarının qəlbində xüsusi ehtiram və qürur, iftixar duyğularını oyadır. Hazırda tarixi ədalətin bərpa olunduğu bir zamanda və Azərbaycanın azad etdiyi Qarabağda hörmətli İlham Əliyevin rəhbərliyi ilə aparılan nəhəng quruculuq işlərinin, memarlıq və mədəni abidələrin bərpası istiqamətində genişmiqyaslı tədbirlərin əyani şahidi oluruq. Sizin kimi dəyərli qardaşımızın belə möhtəşəm işləri yaxın dostlarınız olaraq bizləri sonsuz dərəcə sevindirir və qürurlandırır. Birgə səylərimiz və xüsusi marağımızla bu bənzərsiz şəhərin nümunəsində bütün Qarabağın gələcəkdə əbədi dostluğumuzun həqiqi rəmzinə çevriləcəyinə inanıram”.

Beş il əvvəl məhz Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv olduqlarını xatırladan Özbəkistan Prezidenti bildirdi ki, ötən qısa dövrdə üzv ölkələrlə 30-dan çox önəmli sahədə qarşılıqlı faydalı və çoxşaxəli əməkdaşlıq qurulub. Bu Zirvə görüşünün qlobal risk və təhdidlərin artdığı, qarşılıqlı inam böhranının daha da dərinləşdiyi bir vaxtda reallaşdığını söyləyən Şavkat Mirziyoyev qeyd etdi: “Belə bir qarışıq vəziyyətdə əbədi qardaşlıq ruhundan güc alan əlaqələrimizi keyfiyyətcə yeni səviyyəyə yüksəltməyi, birgə yanaşmalarla inkişaf etdirməyi zaman tələb edir. Bu baxımdan, bugünkü görüşün nəqliyyat, qarşılıqlı əlaqələr və iqlim fəaliyyəti vasitəsilə davamlı bir gələcək inşa etmək mövzusunda keçirilməsi böyük önəm daşıyır”.

Özbəkistan Prezidenti bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) da toxundu, bu tədbirin bütün ölkələrimiz üçün böyük tarixi hadisə olduğunu vurğuladı. “İqlim dəyişikliyi məsələsində dünya liderlərinin uğurlu bir görüş keçirmələrini səmimi-qəlbdən diləyirik. Biz bu nüfuzlu tədbirə fəal şəkildə qatılmağa və bu məsələdə Azərbaycana mümkün olan hər cür yardımı göstərməyə hazırıq”, – deyə Şavkat Mirziyoyev əlavə edib.

***

Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz Zirvə görüşünün iştirakçılarına müraciətlə dedi: “Sizləri cənab Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın adından ehtiramla salamlayıram. Türk dünyasının mədəniyyət paytaxtlarından biri – Qarabağın incisi azad Şuşada olmaqdan böyük məmnunluq duyuram. Can Azərbaycana və hörmətli cənab Prezident İlham Əliyevə evsahibliyinə görə təşəkkürümü bildirirəm”.

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbə sayəsində doğma torpaqlarını işğaldan azad etməsindən sonra bölgədə sülhün, əmin-amanlığın və əməkdaşlığın inkişafı üçün fürsət yarandığını vurğulayan Cevdet Yılmaz qeyd etdi: “Üç il əvvəl – 2021-ci il iyunun 15-də bu qədim şəhərdə Türkiyə ilə Azərbaycan arasındakı bənzərsiz əlaqələri taclandıran Şuşa Bəyannaməsi imzalandı. 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Zəfəri də rəsmi olaraq elan edildi. Azad edilmiş bütün bölgələrdə olduğu kimi, Şuşadakı inkişaf və tərəqqini qürurla müşahidə edirik. Bir daha “Qarabağ Azərbaycandır!” və həmişə də Azərbaycanın olaraq qalacaqdır.

Biz lap əvvəldən bu Zəfəri təkcə işğalın sonu deyil, Cənubi Qafqazda sülh, sabitlik və rifah yolunda tarixi bir fürsət pəncərəsinin açılması olaraq gördük. Bu çərçivədə müzakirə prosesi böyük səy və həssaslıqla aparılan Azərbaycan və Ermənistan arasındakı sülh müqaviləsinin ən qısa müddətdə imzalanması ilə Cənubi Qafqazda genişmiqyaslı regional həllin qarşımızdakı ən böyük əngəli ortadan qaldıracağına inanıram. Cənubi Qafqazda davamlı sülhün və sabitliyin bərqərar olması təkcə bölgə ölkələri üçün deyil, regional nəqliyyat xətlərinin açılacağı səbəbindən qlobal təhlükəsizlik və kommunikasiyalar baxımından da böyük önəm daşıyır. Bu xətlərin açılması regional əməkdaşlığı gücləndirərək Orta Asiya, Qara dəniz və Xəzər dənizi hövzələri də daxil olmaqla, bütün Türk dünyası üçün böyük imkanlar yaradacaq, yeni fürsətlər doğuracaq.

Beynəlxalq təşkilatların onilliklər ərzində Azərbaycana qarşı ədalətsizliyə göz yummasına baxmayaraq, Azərbaycan xalqı cənab Prezident İlham Əliyevin qətiyyətli liderliyi ilə öz qəhrəmanlığı sayəsində haqqını bərpa etdi. Birinci Qarabağ müharibəsi nəticəsində öz yurdlarından didərgin salınan bir milyon azərbaycanlı qardaşımız üçün səsini çıxarmayan dövlətlərin bu gün haqsız və əsassız ittihamlarla qardaş Azərbaycanı hədəfə alması əsla qəbul edilə bilməz. Türk dünyası olaraq bu əsassız ittihamlara qarşı Azərbaycana güclü dəstək verməyimiz qardaşlığımızın olduğu kimi, ədalətin də zərurətidir.

Türk dünyasının hörmətli liderləri, qlobal səviyyədə yaşanan proseslər enerji təhlükəsizliyinin və enerji sahəsində əməkdaşlığın önəmini bir daha ortaya qoyub. Resurslarla zəngin və əlverişli coğrafi mövqedə yerləşən türk dövlətlərinin rolu bu baxımdan mühüm önəm daşımaqdadır. Şərq ilə Qərbi bir-biri ilə birləşdirən genişmiqyaslı enerji infrastrukturu layihələrini birlikdə uğurla həyata keçiririk. Azərbaycan ilə bu sahədə həyata keçirdiyimiz layihələr həqiqətən nümunədir. Başda türkmən təbii qazı olmaqla, Xəzərin digər tərəfindəki resursların Türkiyəyə və Avropaya daşınması həm bizlərin milli rifahına, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək. Türk Dövlətləri Təşkilatının nəzdində enerji mexanizminin qurulmasından məmnunluq duyuruq. Bu çərçivədə ortaq layihələrin inkişaf etdirilməsini dəstəkləməkdəyik”.

Çıxışında Azərbaycanın bu ilin noyabrında COP29-a evsahibliyi etməsinin əhəmiyyətini xüsusi vurğulayan Türkiyənin vitse-prezidenti bildirdi: “Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a evsahibliyi etməsindən böyük məmnunluq duyuruq. Xüsusilə iqlim maliyyələşməsi mövzusunda mühüm qərarların qəbul ediləcəyi bu konfransa hazırlıq prosesində bir çox mövzularda sıx əməkdaşlığımızı və dəstəyimizi davam etdirəcəyik. Azərbaycanın COP29-a ev sahibliyi regional əməkdaşlıq baxımından da böyük önəm daşıyır. Bu baxımdan, Azərbaycanın konfransda Türk Dövlətləri Təşkilatının bir təşəbbüsünə yer verilməsi və ya ortaq bir tədbirin keçirilməsi ilə bağlı təklifini məmnunluqla qarşılayırıq”.

Şuşadakı Zirvə görüşündə Şimali Kipr Türk Cümhuriyyətinin də təmsil olunmasının önəmini qeyd edən Cevdet Yılmaz dedi: “Bu gün Şuşada Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti hörmətli Ersin Tatarı aramızda görməkdən böyük məmnunluq duyuruq. Cənab Prezident İlham Əliyevə göstərdiyi həssaslığa görə təşəkkürümüzü ifadə edirik. Cənab Tatarın qarşıdakı Bişkek Zirvə görüşünə də qatılmasını arzu edirik və bu məsələdə Sizlərin dəstəyini gözləyirik”.

Türkiyənin vitse-prezidenti tədbirin yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək vurğuladı: “Bu gün imzalanacaq Qarabağ Bəyannaməsinin də xeyirli olmasını arzu edirəm. Sizi ehtiramla salamlayır, ev sahibi Can Azərbaycana, çox hörmətli cənab Prezident İlham Əliyevə təşəkkürlərimi bildirirəm. Təşkilatın üzvləri olan dost və qardaş ölkələrin xalqlarına sevgilərimi çatdırıram”.

***

**Zirvə görüşündə çıxış edən Macarıstanın Baş naziri Viktor Orban Şuşada keçirilən bu mötəbər tədbirə dəvətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi:** “İlk növbədə, icazə verin, Prezident Əliyevə Şuşada, bu şəhərdə bizi qəbul etdiyinə və sizi burada görmək imkanı yaratdığına görə minnətdarlığımı bildirim. Hazırda regionda minlərlə insana sülh şəraitində yaşamaq imkanı verdiyinə görə Prezident Əliyevə dərin ehtiramımızı bildiririk. Arzu edirik ki, bu fürsət ən qısa zamanda Avropada da əldə edilsin.

Hazırda müharibələr nəticəsində dünyanın müxtəlif bloklara bölünməsi risklərinin olduğunu vurğulayan Viktor Orban bildirdi: “Kədərli tarixi təcrübələrimizə əsaslanaraq, sülhə hörmət naminə qlobal əməkdaşlığı bərpa etmək üçün ünsiyyət və qarşılıqlı fəaliyyət dövrünə üstünlük verərdik. Bu mübarizədə sizə güvənirik. Biz Türk Dövlətləri Təşkilatına Qərb ilə Şərq arasında əməkdaşlıq üçün çox vacib bir təşkilat kimi baxırıq”.

Baş nazir Viktor Orban çıxışında Macarıstanın Avropa İttifaqına sədrliyinin prioritetlərindən danışdı, yüksək qonaqpərvərliyə görə Prezident İlham Əliyevə bir daha təşəkkürünü bildirdi.

***

**Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Şuşadakı tarixi Zirvə görüşünə dəvətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi:** “Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının Şuşa Zirvə görüşündə çıxış etməkdən duyduğum böyük xoşbəxtliyi və məmnunluğu sizinlə bölüşmək istəyirəm. Türk dünyasının mənəvi paytaxtı Şuşada, azad olunmuş bu gözəl torpaqlarda Azərbaycan Prezidenti İlham Əliyevin ev sahibliyi ilə bu Zirvə görüşündə aranızda olmaqdan duyduğum böyük məmnuniyyəti təkrar bildirmək istəyirəm. Əvvəlcə, bu günə qədər Şimali Kipr Türk Cümhuriyyətinə verdiyi böyük dəstəyə və bizi Şuşa Zirvəsinə dəvət etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə çox təşəkkür edirəm”.

*(ardı 3-cü səhifədə)*

# Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü



**(əvvəli 2-ci səhifədə)**

Şuşanın tarixi əhəmiyyətini vurğulayan Ersin Tatar bildirdi: “Azərbaycan xalqının ənənələrinin bir rəmzi olan, zəngin və görkəmli tarixə sahib Şuşa dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş, bir çox məşhur sənətkar, musiqiçi, memar, rəssam və yazıçının yetişdiyi qədim şəhərdir. Uzun illər erməni işğalı altında qalan Şuşa 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan




İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu tərəfindən həmin il noyabrın 8-də azad edilib. Qarabağda 30 il davam edən işğal Can Azərbaycanın Vətən müharibəsindəki Qələbəsindən sonra başa çatmışdır. Bu tarixi Zəfərdən böyük qürur və sevinc duyuruq. Qarabağ, o cümlədən, Şuşa 44 günlük Vətən müharibəsində və sonra yaşanan hadisələr baxımından Türk dünyasında birlik və bərabərliyin rəmzinə çevrilib”.

“Ən böyük gücümüz Türk dünyasının birlik, bərabərlik və həmrəyliyidir”, – söyləyən Ersin Tatar vurğuladı: “Bir araya gələndə, həmrəy olanda nələr edə biləcəyimizi göstərmişik. Bu baxımdan, Şimali Kipr Türk Cümhuriyyətinin Türk dünyasının ayrılmaz hissəsi olaraq bu gün qədim Şuşada təmsil olunması son dərəcə önəmli və tarixi hadisədir”.

***

**Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Azərbaycanın təşkilatın inkişafına verdiyi töhfəni vurğuladı və COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdıraraq dedi:** “Mən, ilk növbədə, Naxçıvan Sazişinin 15 illiyi ilə əlaqədar İlham Heydər oğlu Əliyevə dərin minnətdarlığımı bildirmək istərdim. Təsadüf elə gətirib ki, Şuşa “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilib və bu görüşü burada keçirməyimiz rəmzi məna kəsb edir”.

Təşkilata üzv ölkələr arasında əməkdaşlığın inkişafında beynəlxalq nəqliyyat dəhlizlərinin əhəmiyyətinə toxunan Baş katib qeyd etdi: “Orta Dəhliz qlobal ticarətdə həyati əhəmiyyət kəsb edən arteriya rolunu oynayır. İki ölkə arasında ən təhlükəsiz və ən qısa marşrut vəd edən bu dəhliz, sadəcə, yüklərin daşınması üçün yol deyil. Bu, iqtisadi artım, innovasiyalar və əməkdaşlıq üçün xilas kəməridir. Zəngəzur dəhlizi Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri arasında mühüm bağlantı olacaq”.

Azərbaycanın COP29-a evsahibliyi etməsinin önəmini vurğulayan Kubanıçbek Ömüralıyev dedi: “Mən qabaqcıl təşəbbüs olan və ən aktual məsələlərdən birinin müzakirəsi üçün bütün dünyadan minlərlə insanı bir araya gətirəcək COP29-a evsahibliyi edəcəyi münasibətilə qardaş Azərbaycanı təbrik etmək istərdim”.

Şuşa Zirvə görüşündə Türk Dövlətləri Təşkilatının fəaliyyətinin inkişafı üçün mühüm qərarın qəbul olunduğunu qeyd edən Baş katib vurğuladı: “Türk Dövlətləri Təşkilatının 10-cu Sammitində dövlət başçıları heyətin və büdcəmizin artırılması təklifini dəstəklədilər. Sizin bu gün qeyd olunan məsələlərlə bağlı qəbul etdiyiniz qərar, sözsüz ki, təşkilatımızı daha da gücləndirəcək. Bu mənada biz Azərbaycan Prezidenti Zati-aliləri cənab Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın verdiyi töhfəni - büdcəmizə 2 milyon ABŞ dollarının ayrılmasını yüksək qiymətləndiririk”.

Zirvə görüşü çərçivəsində Qarabağ Bəyannaməsinin imzalanmasının önəminə toxunan Kubanıçbek Ömüralıyev bildirdi: “Hesab edirəm ki, Zati-aliləriniz tərəfindən bu gün imzalanacaq Qarabağ Bəyannaməsi qardaşlıq əlaqələrinin daha da dərinləşməsi istiqamətində növbəti mühüm addım olacaq”.

***

**Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım çıxış edərək dedi:** “Bu gün Şuşada - tarixi şəhərdə, mədəniyyət paytaxtında Türk Dövlətləri Təşkilatının Zirvə görüşünün keçirilməsinin ayrı bir tarixi önəmi var. Şuşanın işğaldan azad edilməsindən sonra – 2021-ci ilin iyununda cənab Prezidentimizlə birlikdə burada idik və Şuşa Bəyannaməsinin imzalanmasında iştirak etdik. Həmin gündən indiyədək Şuşadakı dəyişiklikləri böyük heyranlıq və diqqətlə izləyirəm. O vaxt gördüyüm yerlə-yeksan olunmuş bir şəhər yenidən dirçəlir. Bunun üçün çox hörmətli cənab Prezident İlham Əliyevə təşəkkür edirəm”.

Qardaş ölkələrimizin birlikdə mühüm layihələr həyata keçirməsindən danışan Binəli Yıldırım bildirdi: “Bu məsələdə bir daha möhtərəm cənab Prezidentə təşəkkür edirəm, 2004-cü ildə birlikdə fikir olaraq planlaşdırdığımız Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinin reallaşdırılmasında hörmətli Prezidentimiz böyük bir liderlik etdi. Gürcüstanın layihə ilə bağlı tərəddüdlərinin aradan qaldırılmasında hörmətli Prezidentimizin mühüm töhfələri oldu. Bakı-Tbilisi-Qarsın reallaşması bu gün Orta Dəhlizin çatışmayan halqasının tamamlanması deməkdir və bu dəhlizdən artıq daha səmərəli istifadə olunmasına imkan yaradıb. 2030-cu ilə qədər bu marşrutla yükdaşımalarının həcmini 11 milyon tona çatdırmağımız mümkündür. Bunun üçün bəzi addımlar atılmalıdır”.

Binəli Yıldırım Zirvə görüşünün çox mühüm mövzuya həsr olunduğunu vurğulayaraq dedi: “Şuşa Zirvə görüşündə göstərdiyiniz mehriban qarşılanma və ev sahibliyi üçün Zati-alinizə, heyətinizə bir daha təşəkkür edirəm. Bu tədbirdə Orta Dəhlizin əsas mövzu olaraq seçilməsi təşkilatımızın gələcəyinə və ortaq hədəflərimizə – “Türk dünyasına baxış – 2040” sənədində qarşıya qoyulan məqsədə çatmaqla bağlı strateji planımız baxımından çox uyğun işdir. Bunu burada sizlərlə bölüşmək və bu dəhlizin daha da inkişafını təmin etmək üçün həyata keçiriləcək işləri ifadə etməkdən böyük məmnunluq duydum. Bu fürsəti mənə verdiyiniz üçün bir daha təşəkkür edir, hamınıza ehtiramımı bildirirəm”.

***

Sonra Şuşa Zirvə görüşündə “Türk Dövlətləri Təşkilatının Katibliyinin heyətinin və büdcəsinin artırılmasına dair qərar” imzalandı.

***

**Zirvə görüşünə yekun vuran Prezident İlham Əliyev dedi:**

-Əziz dostlar.

Bu gün biz Türk dünyasının birliyini bir daha təsdiqlədik. Birgə həyata keçirdiyimiz layihələrin icrasına yeni təkan verdik.

Noyabrda Bakıda keçiriləcək COP29 ilə əlaqədar iqlim dəyişikliyinin mənfi fəsadları ilə mübarizədə birgə fəaliyyət göstərməyin vacibliyini vurğuladıq.

Tarixən dünya sivilizasiyasına böyük töhfələr vermiş türk sivilizasiyasının tədqiq və təşviq edilməsi, Türk Dövlətləri Təşkilatının digər beynəlxalq təsisatlarla əlaqələrinin genişləndirilməsinin əhəmiyyətini bir daha qeyd etdik.

Əminəm ki, bugünkü müzakirələr, qəbul etdiyimiz qərarlar Türk Dövlətləri Təşkilatının gücləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Fürsətdən istifadə edərək, hazırda Türk Dövlətləri Təşkilatına sədrlik edən Qazaxıstan Prezidenti hörmətli Kasım-Jomart Tokayevə təşəkkürümü bildirirəm. Əminəm ki, qarşıdan gələn Bişkek Zirvə görüşündə səmərəli və nəticəyönümlü müzakirələrimizi davam etdirəcəyik.

İndi isə sizi Qarabağ Bəyannaməsini imzalamağa dəvət edirəm.

***

Daha sonra Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsinin imzalanması mərasimi oldu.

Sonda birgə foto çəkdirildi.

# TDT dövlət və hökumət başçılarının şərəfinə nahar

**İyulun 6-da Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türk Dövlətləri Təşkilatı dövlət və hökumət başçılarının şərəfinə nahar verilib.**



***AZƏRTAC***

# Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Zati-aliləri cənab Kir Starmerə

**Hörmətli cənab Baş nazir!**

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə təyin olunmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Birləşmiş Krallıq arasında ənənəvi dostluq və çoxşaxəli əməkdaşlıq münasibətləri bizim üçün xüsusi əhəmiyyət kəsb edir.

Enerji sektorunda uzunmüddətli və səmərəli birgə fəaliyyətimiz qlobal enerji təhlükəsizliyinin təminatına mühüm töhfə verir. Eyni zamanda, bərpaolunan enerji mənbələri, yaşıl enerjiyə keçid və dekarbonizasiya məsələləri bu gün Azərbaycan-Birləşmiş Krallıq ikitərəfli tərəfdaşlıq gündəliyində aparıcı yer tutur. Bu baxımdan yaxın və etibarlı tərəfdaşımız olan BP ilə təmiz enerjiyə keçid sahəsində uğurlu işbirliyimizi xüsusi qeyd etmək istərdim. Azərbaycanın cari ilin noyabr ayında evsahibliyi edəcəyi COP29 çərçivəsində də əməkdaşlığımızın davam etdiriləcəyinə dair inamımı ifadə edirəm.

Ölkəmizin işğaldan azad edilmiş ərazilərində minaların təmizlənməsi işinə Birləşmiş Krallığın verdiyi töhfəni yüksək qiymətləndiririk.

Əminəm ki, Azərbaycan ilə Birləşmiş Krallıq arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərin möhkəmləndirilməsi, əməkdaşlığımızın daha da inkişaf edərək yeni səviyyəyə qaldırılması istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 iyul 2024-cü il**

# TDT liderlərinin səfəri başa çatıb

***Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana səfəri iyulun 6-da başa çatıb.***

TDT-yə üzv ölkələrin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi hava limanında Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.

***

***Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak edən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana səfəri iyulun 6-da başa çatıb.***



TDT-yə üzv ölkələrin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi hava limanında Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.

***

***Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olan Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycana səfəri iyulun 6-da başa çatıb.***



TDT-yə üzv ölkələrin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qırğız Respublikasının Prezidenti Sadır Japarovu Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.

***

***Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak edən Macarıstanın Baş naziri Viktor Orbanın Azərbaycana səfəri iyulun 6-da başa çatıb.***

TDT-yə üzv ölkələrin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.



Macarıstanın Baş naziri Viktor Orbanı hava limanında Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.

***

***Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak edən Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın iyulun 6-da Azərbaycana səfəri başa çatıb.***




TDT-yə üzv ölkələrin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyənin vitse-prezidenti Cevdet Yılmazı hava limanında Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Qarabağ Bəyannaməsi imzalanıb

**Türk Dövlətləri Təşkilatının (bundan sonra TDT adlandırılacaq) "Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması" mövzusunda qeyri-rəsmi Zirvə görüşü Azərbaycan Respublikasının təşəbbüsü ilə 2024-cü il iyulun 6-da Şuşada keçirilmişdir. Görüşə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev evsahibliyi etmişdir. Görüşdə Qazaxıstan Respublikasının Prezidenti Zati-aliləri Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Zati-aliləri Sadır Japarov, Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri Şavkat Mirziyoyev, Türkiyə Respublikasının Vitse-prezidenti Zati-aliləri Cevdet Yılmaz, Macarıstanın Baş naziri Zati-aliləri Viktor Orban, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Zati-aliləri Ersin Tatar, eləcə də Türk Dövlətləri Təşkilatının Baş katibi Zati-aliləri Kubanıçbek Ömüralıyev iştirak etmişlər.**



## "Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi

**Türk Dövlətləri Təşkilatının dövlət başçıları!**

Türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu hesab edərək;

Türk xalqlarının qitə miqyasında töhfələrini, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarix boyu oynadığı rolunun ən yüksək dəyərini vurğulayaraq;

Bəşəriyyət tarixində Türk xalqlarının siyasi, iqtisadi və bəşəri nailiyyətlərinə əsaslanaraq;

2023-cü il noyabrın 3-də "TÜRKTIME" şüarı altında keçirilmiş, TDT-nin gələcək transformasiyasında və Türk dünyasının inteqrasiyası səylərində, eləcə də onların xalqlarının birlik və rifahının gücləndirilməsində növbəti mühüm mərhələ olan TDT-nin yubiley – Astana Zirvə görüşünün uğurlu təşkilinə görə Qazaxıstan Respublikasının sədrliyini dəyərləndirərək;

TDT-nin yaradılmasına dair Naxçıvan Sazişinə uyğun olaraq, Dövlət Başçıları Şurasının (DBŞ) müntəzəm görüşləri ilə yanaşı, ildə bir dəfə DBŞ-nin qeyri-rəsmi görüşlərinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevin təklifini alqışlayaraq;

Geniş Türk dünyasından olan xalqların bir araya gətirilməsində Şuşa şəhərinin mənəvi əhəmiyyətini qəbul edərək, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra Şuşada keçirilən görüşün Türk xalqlarının birliyinin, onların sülhə və ədalətə sadiqliyinin bariz təzahürü olduğunu bəyan edərək;

Yüz minlərlə azərbaycanlı keçmiş məcburi köçkünün öz ata-baba yurdlarına qayıdışı üçün şərait yaradacaq genişmiqyaslı minatəmizləmə fəaliyyəti və humanitar minasızlaşdırma səyləri də daxil olmaqla, işğaldan azad edilmiş torpaqların yenidən qurulması və bərpası səylərində Azərbaycan hökuməti və xalqı ilə həmrəyliklərini ifadə edərək;

Türk dövlətləri arasında sabit və çoxşaxəli əlaqələrin inkişafına, o cümlədən, iqlim fəaliyyəti vasitəsilə sağlam planetin qorunmasına yönəlmiş birgə səylərlə davamlı gələcəyin mümkün olduğunu təsdiq edərək;

Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışlarının türk dövlətlərinin vahid güc kimi çıxış etməsini tələb etdiyini və qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlərlə bağlı mütəmadi məsləhətləşmələrin aparılmasının zəruriliyini etiraf edərək,

**Bəyan etdilər ki, onlar:**

1. TDT-nin qeyri-rəsmi Zirvə görüşünün 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" olmuş Şuşa şəhərində keçirilməsinin tarixi dəyərini vurğulayırlar;

2. Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyini bir daha vurğulayırlar;

3. Türk dövlətlərinin qlobal miqyasda potensialı nəzərə alınmaqla daha iddialı məqsədlərin qarşıya qoyulmasının, birgə səylərin artırılması və strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi yolu ilə dayanıqlı gələcəyin qurulması baxımından TDT-nin vəzifə və məqsədlərinin səmərəli həyata keçirilməsi üçün müvafiq mexanizm və qaydaların tətbiqinin zəruriliyini qeyd edirlər;

4. Türk dövlətlərinin regionda və dünyada qlobal ticarətin və iqtisadiyyatın inkişafında əvəzsiz rolu nəzərə alınmaqla, müvafiq nəqliyyat infrastrukturunun və səmərəli transregional dəhlizlərin yaradılması yolu ilə türk dövlətləri arasında bağlılığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar;

5. Ticarət həcmlərini artırmaq, limanlara, dəmir yollarına, avtomobil yollarına və logistika qovşaqlarına infrastruktur investisiyalarını cəlb etməklə dayanıqlı inkişaf, iqtisadi rifah və beynəlxalq ticarət üçün təməl daşı kimi Avropa–Türkiyə–Cənubi Qafqaz–Mərkəzi Asiya–Çini birləşdirən Trans–Xəzər Beynəlxalq Şərq–Qərb Orta Dəhlizi vasitəsilə üzvlər arasında regional əlaqəni və inteqrasiyanı gücləndirmək, nəqliyyat əməliyyatlarını, gömrük prosedurlarını optimallaşdırmaq və rəqəmsallaşmanı əhatə etmək üçün üzv dövlətlər arasında sıx əməkdaşlığa çağırırlar;

Bu məqsədlə nəqliyyata məsul olan nazirlərə nəqliyyat və tranzit prosedurlarının optimallaşdırılması və rəqəmsallaşdırılması, daha çox yükdaşıma həcminin artırılması məqsədilə özəl sektor üçün stimullaşdırıcı mexanizmlərin təqdim edilməsi və dəhliz boyu müntəzəm nəqliyyat xidmətlərinin yaradılması istiqamətində gələcək addımların atılmasını tapşırırlar;

6. Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin modernləşdirilməsini, bu yolboyu mal və nəqliyyat vasitələrinə gömrük nəzarətinin sürətləndirilməsi ilə bağlı Azərbaycanın, Gürcüstanın və Türkiyənin üçtərəfli səylərini qiymətləndirirlər;

7. Bütün TDT regionunda beynəlxalq ticarətin, investisiya və tranzit potensialının artırılmasına da töhfə verəcək Qırğız Respublikasının Nazirlər Kabineti, Çin Xalq Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında 2024-cü il iyunun 6-da imzalanmış Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu layihəsinin təşviqi istiqamətində birgə əməkdaşlıq üzrə tarixi Sazişi alqışlayırlar;

8. Regional ticarət həcminin davamlı artdığını məmnunluq hissi ilə qeyd edirlər, qarşıdan gələn illərdə ticarət həcminin həqiqi potensialına çatdırılması üçün konkret tədbirlərin görülməsi barədə razılığa gəlirlər, beynəlxalq öhdəliklərə riayət etməklə ticarətdə texniki maneələrin aradan qaldırılmasının və DEPA (Rəqəmsal İqtisadiyyat üzrə Tərəfdaşlıq Sazişi) mətni üzrə müzakirələrin tamamlanmasının sürətləndirilməsinin vacibliyini vurğulayırlar;

9. İqlim dəyişikliyi və onun türk dövlətlərinin dayanıqlı inkişafına təsirlərinə birgə iqlim fəaliyyəti yolu ilə cavab verilməsində daha sıx əməkdaşlığın zəruriliyini vurğulayırlar;

10. Günəş, külək və su elektrik enerjisi kimi təmiz enerji mənbələrinin inteqrasiyasına diqqət yetirməklə dayanıqlı inkişafın təşviq edilməsi və rəqəmsal infrastruktur, ictimai xidmətlər və dayanıqlı təcrübələrin təkmilləşdirilməsi yolu ilə həyat keyfiyyətini yaxşılaşdırmaq, iqtisadi artımı gücləndirmək, iqlim fəaliyyətini dəstəkləmək üçün türk dövlətləri çərçivəsində "ağıllı şəhər və kəndlər" konsepsiyasının iqlimə davamlılığının inkişafını təşviq edir və bu xüsusda TDT-nin İqlim və Yaşıl Rəqəmsal Platformasının və TDT-nin İqlimə Davamlı Kəndlər Forumunun yaradılması üzrə müzakirələrin aparılması təşəbbüsünü irəli sürürlər;

11. Bərpaolunan enerji və enerji səmərəliliyi sahələrində əməkdaşlığın inkişafı da daxil olmaqla türk dövlətləri arasında enerji sahəsində strateji tərəfdaşlığın əhəmiyyətini vurğulayır və Azərbaycan–Qazaxıstan–Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqələndirilməsi layihəsində (Yaşıl dəhliz) son inkişafları alqışlayırlar;

12. Türk dövlətlərində bərpaolunan geniş enerji potensialından, üzv dövlətlər arasında və üçüncü ölkələrə bərpaolunan mənbələrdən də daxil olmaqla elektrik enerjisinin ixracı və ticarəti üçün geniş enerji sistemlərinin inkişafı imkanlarının istifadəsi məqsədilə onların enerji sistemləri arasında enerji inteqrasiyası və qarşılıqlı əlaqəsi üzrə sıx əməkdaşlığa çağırırlar;

13. Təcrübələrin ötürülməsi məqsədilə TDT üzvlərinin aidiyyəti qurumları arasında ticarət, enerji, nəqliyyat kimi ümumi maraq doğuran sahələrdə institusional quruculuq mexanizminin (Tvinninq) inkişafını təşviq edirlər;

14. TDT ölkələrinin mövcud imkanlarından və infrastrukturundan istifadə etməklə Avropa ilə Asiya arasında yeni telekommunikasiya magistral marşrutu yaratmaq məqsədi daşıyan "Rəqəmsal İpək Yolu" layihəsinin fəal yerinə yetirilməsini alqışlayırlar;

15. Rəqəmsal hökumət (e-Hökumət) infrastrukturlarının daha da inkişaf etdirilməsi üzrə türk dövlətləri arasında əməkdaşlıq və mübadilələri; elektron sənəd mübadiləsi üçün e-imza/rəqəmsal imza mexanizmlərinin uyğunlaşdırılmasını və onlayn dövlət xidmətlərinin inteqrasiyasını; kiberinsidentlərə və kiberhücumlara qarşı ümumi kibertəhlükəsizliyin qorunması tədbirlərini; süni intellekt üzrə siyasətlərin, təlimatların və tərəfdaşlıqların qurulmasını; məlumat mərkəzlərinin və bulud infrastrukturlarının yaradılması üzrə siyasət və ən yaxşı təcrübələrin inkişaf etdirilməsini təşviq edirlər;

16. Süni intellekt layihələrinin uğurlu inkişafı üçün üzv dövlətlərin böyük dil modelinin yaradılmasının və mədəniyyətlərarası ünsiyyəti asanlaşdırmaq, təhsil platformalarını inkişaf etdirmək, səhiyyə texnologiyalarını təkmilləşdirmək və iqtisadi inteqrasiyanı təşviq etmək üçün böyük dil modeli formasında ümumi platformadan istifadənin vacibliyini qeyd edirlər;

17. Milli kosmik proqramların potensialının və rəqabət qabiliyyətinin artırılması məqsədilə kosmik layihələrin birgə inkişafı üçün səylərin birləşdirilməsinin, texnoloji inkişaf səviyyəsinin və birgə layihələrin rəqabət qabiliyyətinin artırılması üçün kosmik texnologiyalar sahəsində kompleks inkişafın vacibliyini qeyd edirlər;

18. İqlim dəyişikliyi çağırışlarına regional və qlobal reaksiyanın gücləndirilməsi üçün ətraf mühitin mühafizəsi və iqlim gündəliyi sahəsində əməkdaşlıq etmək məqsədilə üzv və müşahidəçi dövlətlərin müvafiq orqanlarının əməkdaşlıq mexanizminin yaradılması ilə bağlı Katibliyə tapşırıq verirlər;

19. 2023-cü ildə Astana Zirvə görüşündə bəyan edilmiş, nazirlər səviyyəsində daimi Türk Ekoloji Forumunun yaradılması ilə bağlı Özbəkistan Respublikasının təşəbbüsünü və onun Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 2024-cü il noyabrın 11-22-də Bakının ev sahibliyi edəcəyi 29-cu sessiyası (COP29) çərçivəsində keçirilməsi nəzərdə tutulan ilk iclasını alqışlayırlar;

20. 2024-cü il noyabrın 11-22-də Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının (COP29) 29-cu sessiyasına ev sahibliyi etməkdə Azərbaycan Respublikası Hökumətinə uğurlar arzulayır və Konvensiyanın tərəflərinin gözləntiləri əsasında COP29-un konkret nəticələrinin əldə edilməsində Azərbaycanın ardıcıl səylərini dəstəkləyirlər;

21. BMT-nin İqlim Dəyişmələri Konfransının illik təqvimində "Dağlar və İqlim" adlı yeni qlobal dialoqun yaradılması təşəbbüsünün təşviqində iştirak etməyə hazır olduqlarını bildirir və "Dağ gündəliyinin irəlilədilməsi üçün fəaliyyətə çağırış: UNFCCC çərçivəsində əsas dağlar" sənəd layihəsinə qoşulmağı nəzərdən keçirirlər;

22. Qazaxıstanın 2026-cı ildə BMT və beynəlxalq təşkilatların himayəsi altında Regional İqlim Sammitinə ev sahibliyi etmək təşəbbüsünü alqışlayırlar;

23. 2024-cü il avqustun 9-da Astanada Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının 6-cı Məşvərət Görüşünün keçirilməsində Qazaxıstan Respublikası Hökumətinə uğurlar arzulayırlar;

24. Üzv dövlətlərin milli qanunvericiliyinə uyğun olaraq müdafiə sənayesi sahəsində birgə fəaliyyətin davam etdirilməsi niyyətlərini bir daha vurğulayır və bu xüsusda lazımi tədbirlərin görülməsi üçün üzv dövlətlərin aidiyyəti qurumlarına tapşırıq verirlər;

25. Qəzzada baş vermiş humanitar fəlakət vəziyyətinə görə dərin narahatlığını ifadə edir və mülki əhalinin seçimsiz hədəfə alınmasını qınayır; dərhal və daimi atəşkəsin təmin edilməsinə, Qəzzaya maneəsiz humanitar yardımın göstərilməsinə, eləcə də beynəlxalq hüquqa, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə tam riayət edilməsinə; daha sonra İsrail–Fələstin münaqişəsinin iki dövlətli həll əsasında ədalətli və uzunmüddətli həllinə çağırırlar;

Paytaxtı Şərqi Qüds olmaqla 1967-ci il sərhədlərinə əsaslanan, müstəqil, suveren və vahid Fələstin Dövlətinin beynəlxalq səviyyədə tanınmasını dəstəkləyir, Fələstin Dövlətinin BMT-yə üzvlüyə yararlı olduğunu və buna görə də onun BMT-yə üzvlüyə qəbul edilməli olduğunu müəyyən edən BMT Baş Assambleyasının 2024-cü il 10 may tarixli qətnaməsinin qəbul olunmasını məmnuniyyətlə alqışlayır; habelə bunu etməyən bütün ölkələri Fələstin Dövlətini tanımağa çağırırlar;

26. Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi qismində TDT-yə dəyərli töhfələrini alqışlayırlar;

27. Türk Dövlətlərinin Parlament Assambleyası (TÜRKPA), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu (TMİF) və Türk İnvestisiya Fondu (TİF) kimi türk əməkdaşlıq təşkilatları arasında davamlı əməkdaşlığı və artan sinerjini təqdir edirlər;

28. Qırğız Respublikası 2024-cü il oktyabrın 24-də Bişkekdə TDT-nin 11-ci Zirvə görüşünə ev sahibliyi etməyə hazır olduğunu bir daha təsdiq etdi;

29. Hökumət Başçıları/Vitse-Prezidentlər Şurasına dair Qırğız Respublikasının təklifini nəzərə alırlar;

30. Türk dünyasının nizamnaməsi ilə bağlı Özbəkistan Respublikasının təşəbbüsünü dəstəkləyir və Katibliyə Bişkekdə keçiriləcək növbəti Zirvə görüşündə qəbul edilməsi üçün sənəd layihəsinin yekunlaşdırılması tapşırığını verirlər;

31. TDT çərçivəsində iqtisadi əlaqələrin möhkəmləndirilməsinin əhəmiyyətli mərhələsi kimi Macarıstanın Türk İnvestisiya Fondunun yaradılması haqqında Sazişə qoşulmasını alqışlayırlar;

TDT-nin Dövlət başçıları Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevə Türk dünyasının birliyi, həmrəyliyi, təhlükəsizliyi və rifahına verdiyi böyük və davamlı töhfəsinə, TDT-nin vahid ruhunun gücləndirilməsində qətiyyətli liderliyinə və Şuşada qeyri-rəsmi Zirvə görüşündə uğurla yekunlaşan müzakirələrə sədrlik etdiyinə görə dərin təşəkkür bildirir, Azərbaycan Hökumətinin və xalqının səmimi qonaqpərvərliyini yüksək qiymətləndirirlər.

TDT-nin Baş katibinə bu Bəyannamədə nəzərdə tutulan qarşılıqlı fəaliyyəti və birgə səyləri əlaqələndirmək tapşırığı verilir.

2024-cü il iyulun 6-da Şuşa şəhərində Azərbaycan, qazax, qırğız, türk və özbək dillərində imzalanmışdır.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV,**

**Qazaxıstan Respublikasının Prezidenti**
**Kasım-Jomart TOKAYEV,**

**Qırğız Respublikasının Prezidenti**
**Sadır JAPAROV,**

**Özbəkistan Respublikasının Prezidenti**
**Şavkat MİRZİYOYEV,**

**Türkiyə Respublikasının Vitse-prezidenti**
**Cevdet YILMAZ."**

## Mərkəzi Seçki Komissiyasının iclasında

**Məzahir Pənahovun sədrliyi ilə iyulun 6-da Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**



Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən bildiriblər ki, əvvəlcə MSK-nın 2024-cü il 29 iyun və 2 iyul tarixli iclas protokolları təsdiq edilib.

Sonra sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyası, Azərbaycan Ümid Partiyası, Böyük Quruluş Partiyası, Demokratik İslahatlar Partiyası, "Ana Vətən" Partiyası, Müsavat Partiyası və Klassik Xalq Cəbhəsi Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. Komissiya üzvlərinə hər bir siyasi partiyanın MSK-ya müvafiq müraciəti barədə ayrı-ayrılıqda məlumat verilib və sözügedən siyasi partiyalar tərəfindən təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınması qərara alınıb.

İclasda daha sonra bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib, həmçinin cari məsələlərə baxılıb.

MSK-nın iclası media subyektlərinin nümayəndələri tərəfindən geniş işıqlandırılıb.

***XQ***

# Astana Bəyannaməsi: Xəzərdən Çin səddinədək



*İsa HƏBİBBƏYLİ,*
*AMEA-nın prezidenti, akademik*

**Müstəqil Azərbaycan dövlətinin Çin Xalq Respublikası ilə əlaqələrinin genişləndirilməsi ölkəmizin yeni tarixi yüksəlişi mərhələsində müasir inkişafın təmin edilməsinə təkan verəcək əhəmiyyətli hadisədir. İnkişafın Çin modelinin dünya brendinə çevrildiyi indiki şəraitdə Pekinlə əlaqələrin inkişafında yeni addımların atılması Prezident İlham Əliyevin Azərbaycanı inkişaf etməkdə olan ölkədən qabaqcıl dövlətlərin səviyyəsinə çatdırmaq istiqamətində həyata keçirdiyi mühüm strateji gedişdir. Xüsusən, Çin Xalq Respublikasının süni intellekt, rəqəmsal inkişaf, smart texnologiyaları, robot modelləri kimi ən müasir sahələr üzrə dünya birincilərindən olması ölkəmizdə Prezident İlham Əliyevin 14 fevral 2024-cü ildə keçirilmiş andiçmə nitqində ön mövqeyə çəkilmiş texnoloji inkişaf paradiqmaları əsasında inkişafı üçün yeni əməkdaşlıq imkanları yaradacaqdır. Bundan başqa, Azərbaycan Respublikası nəqliyyat-logistika strategiyasının Çin Xalq Respublikasının "Bir kəmər – bir yol" layihəsi ilə bir-birini tamamlaması da orta nəqliyyat dəhlizinin yaradılması üçün birgə səylərin inkişaf etdirilməsinə meydan açacaqdır.**

Bütün bunlara görə Prezident İlham Əliyevin ÇXR lideri Si Sinpinlə görüşü zamanı müzakirə etdiyi məsələlər dövlətlərarası əlaqələrin daha da möhkəmləndirilməsinə uğurla xidmət edir. Astana şəhərində 2024-cü il iyulun 3-də imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında birgə Bəyannamə"də öz əksini tapmış müddəalar ölkələrimizin bütün əsas inkişaf istiqamətləri üzrə səmərəli əməkdaşlıq layihələri hazırlayıb həyata keçirmələrinə tam təminat verir. Məsuliyyətlə demək olar ki, Azərbaycan–Çin əməkdaşlığı haqqında Astana Bəyannaməsi yeni tarixi şəraitdə dövlətlərimiz arasındakı əlaqələrin mükəmməl yol xəritəsidir.

Bu bəyannamə beynəlxalq ictimaiyyət üçün ciddi təhdidlər yaradan təhlükələrə qarşı birgə mübarizə aparmaqdan başlayaraq, ölkələrimizin hakim partiyaları, qanunverici orqanları, hökumətləri arasında əməkdaşlığın möhkəmləndirilməsini dəstəkləməkdən və ticarət-iqtisadi münasibətlərini, sənayeləşməni və investisiya əməkdaşlığını daha da genişləndirməkdən tutmuş regionlararası əlaqələrin genişləndirilməsinə, media sahəsində mübadiləyə qədər bütün sahələrdə əməkdaşlıq üçün geniş perspektivlər açır. Çin tərəfinin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin – Orta Dəhlizin salınmasını dəstəkləməsinə dair müddəaların Astana Bəyannaməsində yer alması geniş mənada "Bir kəmər – bir yol" çərçivəsinin əhatə etdiyi bütün sahələrdə əməkdaşlığın meydanının genişləndirilməsinə tam təminat verir. Bütün bunlara görə Astana Bəyannaməsi Azərbaycanla Çin arasında imzalanmış ilk strateji tərəfdaşlıq müqaviləsi kimi mühüm tarixi əhəmiyyətə malikdir. Bu, Azərbaycan Respublikasının müstəqillik dövründə xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük təməllərini yaratdığı Azərbaycan–Çin əlaqələrinin yeni inkişaf mərhələsinə çatdırılmasına təminat verən və bir çox mühüm istiqamətlərdə birgə fəaliyyət göstərməyə meydan açan strateji inkişaf proqramıdır. Astana Bəyannaməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimindən sonra ölkəmizdə başlamış yeni tarixi dövrün mükəmməl bir bələdçisidir.

Astana Bəyannaməsində elm, texnologiya, mədəniyyət, media və informasiya, turizm və idman sahələrində əməkdaşlığın tərəqqisinin fəal surətdə təşviq edilməsi bu zəruri sahələrdə də ölkələrarası çoxcəhətli əlaqələri inkişafın yeni mərhələsinə çıxarmağa şərait yaradır. Çin Xalq Respublikası ilə imzalanmış Astana Strateji Tərəfdaşlıq Bəyannaməsi ölkələrimiz arasında qarşılıqlı inteqrasiya baxımından indiyə qədər atılmış addımları, formalaşmış davamlı və dayanıqlı əlaqələri daha da möhkəmləndirmək və yeni tarixi dövrün reallıqlarına uyğun olaraq hərtərəfli şəkildə inkişaf etdirmək üçün geniş üfüqlər açır. Bu baxımdan hazırda Azərbaycan Milli Elmlər Akademiyasında Çin Sosial Elmlər Akademiyası, Hebey Sosial Elmlər Akademiyası, Honkonq Kore Elmlər Akademiyası, Konfutsi İnstitutu, Biomüxtəliflik və Yaşıl Dünya Fondu, Pekin Xarici Dillər Universiteti, Hebey Pedaqoji Universiteti ilə imzalanmış memorandumlar, həyata keçirilməsi davam etdirilməkdə olan qarşılıqlı layihələr, birgə elmi konfransların təşkili elmi-mədəni əməkdaşlığın möhkəm təməllərini təşkil edir. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Çin Ədəbiyyatı Mərkəzi və dil hazırlığı kursu akademiya üzrə geniş elmi-mədəni tədbirlərin hazırlanıb keçirilməsinə mühüm töhfələr verir.

Hazırda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda çapda olan "Azərbaycan şairlərinin Çin haqqında şeirləri antologiyası" bu inkişaf etmiş dünya nəhənginə həsr olunmuş ilk külliyyat kimi mühüm əhəmiyyətə malikdir. Akademiyada "Çin ədəbiyyatında arxeotiplər" mövzusunda hazırlanmış fəlsəfə doktorluğu dissertasiyası da Çin ədəbiyyatının sistemli şəkildə araşdırılıb öyrənilməsində ilk addımlardan biri kimi mühüm əhəmiyyətə malikdir. Ədəbiyyat İnstitutundakı Çin Ədəbiyyatı Mərkəzinin nəzdində fəaliyyət göstərən dil hazırlığı kursunda indiyədək akademiyanın müxtəlif elmi-tədqiqat institutlarında çalışan on bir nəfər əməkdaşı Çin dilini öyrənmiş, onlardan bir nəfəri Çin Xalq Respublikasının "Çin dili xaricdə" proqramını həyata keçirən Anxoy Universitetində yüksək dil kurslarında iştirak edərək sertifikat almışdır. Çin Sosial Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun professoru Huanq Zh Onqxianqın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda təcrübə keçməsi də elmi əlaqələrimizin yeni səhifəsidir.

Bu ilin iyun ayında Çin Xalq Respublikasının Siçzyaçjuan şəhərində Hebey Pedaqoji Universiteti ilə Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkil etdiyi "Xəzərdən Çinə: ədəbiyyat, texnologiya və sosial həyat" beynəlxalq elmi konfransı humanitar elmlər sahəsində elmi əlaqələrimizin yeni tarixi dövrdəki mühüm hadisələrindən biri hesab oluna bilər. Dünyanın on bir ölkəsindən gəlmiş yüzdən çox məruzəçinin iştirak etdiyi beynəlxalq konfransda Azərbaycan elmi ən böyük nümayəndə heyəti kimi təmsil olunmuş, alimlərimiz aktual mövzularda elmi məruzələrlə çıxış etmişlər. Tədbir çərçivəsində Hebey Sosial Elmlər Akademiyasının və Hebey Pedaqoji Universitetinin rəhbərlikləri ilə əməkdaşlıq məsələləri geniş müzakirə olunmuşdur. Həmçinin Hebey Sosial Elmlər Akademiyası ilə AMEA arasında əməkdaşlıq Memorandumu imzalanmış, tədbirlər planı müəyyən olunmuşdur. Eyni zamanda, tərəflər "Xəzərdən Çinə: ədəbiyyat, texnologiya və sosial həyat" məsələlərinə həsr edilmiş elmi konfransın növbəti ildə Azərbaycan Elmlər Akademiyasında keçirilməsi haqqında razılıq əldə etmişlər.

Bundan başqa, Azərbaycanın və Çinin tarixinə, ədəbiyyatına və mədəniyyətinə aid bircildlik ümumiləşdirilmiş elmi kitabların qarşılıqlı surətdə hazırlanaraq, hər iki ölkənin dilinə tərcümə olunub kitab halında nəşr edilməsi də müzakirə mövzuları olmuşdur. Məhz bu müddəalar Azərbaycan–Çin əlaqələrində yeni bir mərhələnin başlanmasının ilkin addımlarını özündə əks etdirir. Belə ki, bununla Azərbaycan–Çin elmi əlaqələri qarşılıqlı tanışlıqdan və ya ortaq tədbirlərdən birgə elmi layihələrə doğru yeni bir inkişaf mərhələsinə qədəm qoyur. Qarşıda duran əsas vəzifə yeni tarixi mərhələdə ortaq tədbirlərin keçirilməsi ənənəsini davam etdirməklə bərabər, birgə elmi-tədqiqat layihələrinin icrasını daha da inkişaf etdirməkdən ibarətdir. Bu baxımdan AMEA Fəlsəfə və Sosiologiya İnstitutunda fəaliyyət göstərən İpək Yolu virtual elmi laboratoriyasının elmi əlaqələr yaratmaq funksiyasını daha da genişləndirmək, ortaq layihələrin formalaşdırılmasına doğru yönləndirmək də fayda verə bilər. Fikrimcə, artıq çap edilmiş "Azərbaycanca–çincə lüğət" də təkmilləşdirilərək yenidən nəşr edilməli və həm də turistlər üçün ayrıca danışıq lüğətləri də hazırlanmalıdır.

Elm və təhsil sahəsində elmi əlaqələrimizdə Azərbaycan Milli Elmlər Akademiyası ilə Pekin Xarici Dillər Universiteti arasındakı əməkdaşlıq xüsusi yer tutur. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Pekin Xarici Dillər Universitetində Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbələrə elmi-metodiki dəstək vermək işini öhdəsinə götürmüşdür. Akademiyanın Nizami adına Ədəbiyyat İnstitutu, Nəsimi adına Dilçilik İnstitutu, Şərqşünaslıq İnstitutu, Əlyazmalar İnstitutu tərəfindən hədiyyə edilmiş kitablar əsasında Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrasında zəngin bir kitabxana yaradılmışdır. Akademiyanın prezidenti 2018, 2019 və 2024-cü illərdə bu universitetdə Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbələrin qarşısında «Azərbaycan ədəbiyyatı: mərhələlər və simalar» mövzusunda mühazirə oxumuşdur. Bu il, 17 iyun 2024-cü il tarixdə Pekin Xarici Dillər Universitetinin rektoru, professor Jia Venjian ilə həmin universitetdə keçirilən görüşdə akademiya ilə əlaqələrin yeni mərhələdəki vəzifələri geniş müzakirə edilmişdir. Müzakirə zamanı Pekin Xarici Dillər Universitetində indiyədək dörd ildə bir dəfə tələbə qəbulu aparılan Azərbaycan dili ixtisasına bundan sonra iki ildən bir tələbələrin qəbul edilməsi barədə razılıq əldə olunmuşdur. Eyni zamanda, Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbələrinin respublikamızın ali məktəbləri ilə yanaşı, Azərbaycan Milli Elmlər Akademiyasında da təcrübə keçmələri razılaşdırılmışdır. Həmçinin Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili ixtisası üzrə magistratura təhsili almış məzunlarının doktorantura təhsilinə dəstək verilməsini də Milli Elmlər Akademiyası öz üzərinə götürmüşdür. Heç şübhəsiz, bütün bunlar Çində Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə mütəxəssis hazırlığında böyük xidmətləri olan fədakar həmyerlimiz, Pekin Xarici Dillər Universitetində Azərbaycan dili kafedrasının yaradıcısı, filologiya üzrə fəlsəfə doktoru, dosent Aqşin Əliyevin fəaliyyətinə böyük dayaq olacaqdır.

Yeri gəlmişkən, qeyd etməyi lazım bilirəm ki, Neftçaladan olan Aqşin Əliyev Şanxay Universitetində bakalavr və magistratura təhsili almışdır. O, Şanxay Universitetində "Çin və Azərbaycan dillərinin morfoloji quruluşunun müqayisəli təhlili" mövzusunda magistr dissertasiyası müdafiə etmişdir. Aqşin Əliyev Şanxay Şərqi Çin Universitetində aspirantura təhsili almış, "Müasir Çin dilində reduplikativ sifətlərin bəzi problemləri" mövzusundakı doktorluq dissertasiyasında da mövzunu Çin, Azərbaycan və türk dilləri ilə müqayisəli şəkildə tədqiq etmiş, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Onun postdoktorluq dissertasiyası da "Çincə–azərbaycanca ikidilli lüğətlərin elmi-nəzəri əsasları" mövzusuna həsr edilmişdir. Aqşin Əliyev Çinin Nobel mükafatı laureatı Mo Yanın hekayələrini Azərbaycan dilinə tərcümə etmişdir. Bu ilin sentyabr ayında Pekin Xarici Dillər Universitetində keçiriləcək Birinci Çin Azərbaycanşünaslıq konfransının da təşəbbüskarı və əsas təşkilatçısı həmin universitetin Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Aqşin Əliyevdir. Aqşin Əliyev müstəqillik dövründə yetişib formalaşmış tanınmış azərbaycanşünas alimdir və Azərbaycan–Çin əlaqələrinin inkişafına mühüm elmi töhfələr verməkdə davam edir.

Nəhayət, Azərbaycan–Çin elmi əlaqələrində əldə olunmuş daha bir mühüm nəticəni də qeyd etməyi lazım bilirəm. Azərbaycan Milli Elmlər Akademiyasının tarixində ilk dəfə olaraq ölkəmizin alimlərindən iki nəfəri (akademik İ.Həbibbəyli və akademik D.Tağıyev) Çin Xalq Respublikası Honkonq Akademiyasının həqiqi üzvü seçilmişlər. Bu, Azərbaycan–Çin elmi əlaqələrində mühüm nəticədir. Bu ilin iyun ayında AMEA-nın prezidenti Çin Xalq Respublikasına səfəri çərçivəsində Şanxay şəhəri ətrafındakı ofislərində Honkonq Elmlər Akademiyasının rəhbərliyi ilə görüşüb, qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə etmişdir. Qarşıdakı sentyabr ayında Çin Xalq Respublikası Honkonq Akademiyasının rəhbər heyətinin Azərbaycana səfəri zamanı Azərbaycan Elmlər Akademiyası ilə qarşılıqlı əməkdaşlıq haqqında müqavilənin imzalanması nəzərdə tutulur ki, bu da öz növbəsində elmi əlaqələrimizin inkişafına müsbət təsirini göstərəcəkdir.

Göründüyü kimi, müstəqillik illərində bütün istiqamətlərdə olduğu kimi, Azərbaycan–Çin elmi əlaqələri sahəsində də mühüm addımlar atılmış, ilkin müsbət nəticələr əldə edilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1994-cü ildə Çin Xalq Respublikasına səfəri zamanı ölkələrimiz arasındakı çoxcəhətli əlaqələrin möhkəm təməlləri yaradılmışdır. Xüsusən, görkəmli dövlət xadimi Heydər Əliyevin Çin Sosial Elmlər Akademiyasının alimləri qarşısında yeni müstəqillik əldə etmiş Azərbaycan dövlətinin mövcud vəzifələri haqqında etdiyi dərin məzmunlu məruzə ilə elmi əlaqələrimizin gələcək inkişafının müəyyən edilməsində həlledici addım atılmışdır. Sonrakı dövrlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Zirvə görüşündə iştirakı və parlaq nitqində səsləndirilən strateji əhəmiyyətə malik olan fikirlər qarşılıqlı əməkdaşlıq münasibətlərində yeni səhifələrin açılmasına stimul verir. Azərbaycan və Çin liderlərinin görüşü Şanxay Əməkdaşlıq Təşkilatının strateji hədəflərinə dair aparılan müzakirələrin aparıcı istiqamətlərinin müəyyən olunmasına uğurla xidmət edir. Çin Xalq Respublikasının Sədri Si Sinpinin Azərbaycan Respublikasının Prezidenti ilə tarixi görüşü və Astana Bəyannaməsini ölkəmizin əlaqələrində "yeni bir başlanğıc", Azərbaycanı Çin üçün "yaxşı dost", "bərabərliyə və qarşılıqlı faydaya əsaslanan yaxşı tərəfdaş" kimi yüksək qiymətləndirməsi ölkələrimiz arasındakı əməkdaşlıq məsələlərində yaxın və uzaq gələcəyə böyük ümidlərlə baxmağa əsas verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri ilə görüşü zamanı ifadə etdiyi aşağıdakı fikirlər qarşılıqlı yüksək etimad üstündə qurulan ölkələrarası əlaqələrin daha intensiv şəkildə inkişaf edəcəyinə dərin inam yaradır: "Bu gün qəbul edilən bəyannamə Çin Xalq Respublikasını və Azərbaycanı rəsmi olaraq strateji tərəfdaşlara çevirir. Hesab edirəm ki, bu böyük nailiyyətdir, həmçinin yüksək məsuliyyətdir. Biz gələcəkdə də fəal qarşılıqlı fəaliyyət göstərmək, ikitərəfli əlaqələri bütün istiqamətlər üzrə möhkəmləndirmək niyyətindəyik. Qeyd etmək istəyirəm ki, investisiya əməkdaşlığının perspektivləri artıq əyani şəkildə görünür".




Həqiqətən də, artıq Azərbaycan–Çin əlaqələrinin daha da genişləndirilməsi sahəsində ilk addımlar atılmışdır. Belə ki, Azərbaycan dövləti yaxın dövr üçün birtərəfli qaydada Çin vətəndaşlarına münasibətdə vizaların aradan qaldırılmasına dair qərar qəbul etmişdir. Yaxın vaxtlarda Çin tərəfi də Azərbaycan vətəndaşları üçün vizasız gediş-gəlişi təmin etmək məsələsini nəzərdən keçirəcəkdir. Bu, ölkəmizdə həm turizmin və həm də ticarət-iqtisadi əlaqələrin, eyni zamanda, elmi-mədəni əlaqələrin də inkişafında yeni bir dövrün başlanmasının çox mühüm addımlarıdır. Bundan başqa, Çinin elektromobillər və elektrobuslar istehsal edən BYD şirkətinin Azərbaycanın strateji tərəfdaşı seçilməsi, həmçinin elektromobillərin və elektrobusların birgə istehsalı üçün razılığın əldə olunması da ölkələrarası münasibətlərdə yeni səhifədir. 6 iyul 2024-cü il tarixdə Azərbaycan mətbuatında yayılmış xəbərlərə görə artıq Astana Bəyannaməsində öz əksini tapmış Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu – Orta Dəhliz magistralı ilə Çin Xalq Respublikasının 26 yük avtomobilindən ibarət ilk konvoy Qazaxıstanın Kurik limanından Dəniz Nəqliyyat Donanmasına məxsus "Merkuri-1" gəmi bərəsinə yüklənərək Azərbaycana çatdırılmışdır. Çin şirkətinin göndərdiyi yük avtomobilləri Avropa ölkələrinə çatdırılmaq üçün Azərbaycandan Gürcüstana və Türkiyəyə yola salınmışdır. Bu faktlar Azərbaycan–Çin Astana Strateji Tərəfdaşlıq Bəyannaməsinin imzalandığı gündən qüvvəyə mindiyini və həyata keçirilməsinə dərhal start verildiyini əyani şəkildə nümayiş etdirir. Atılan ilk addımlar Astana Bəyannaməsinin Azərbaycan–Çin əlaqələrinin geniş miqyasda inkişaf etdirilməsində yeni və mühüm bir mərhələ yaradacağından xəbər verir.

Azərbaycan–Çin əlaqələrinin yeni mərhələsi Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda başlanmış yeni tarixi dövrün mühüm hadisəsi və əsas hərəkətverici qüvvələrindən biri olacağını görməyə və göstərməyə tam əsas verir. Astana Bəyannaməsi bütün istiqamətlər üzrə, o cümlədən də elm, təhsil və mədəniyyət sahəsində yeni hədəflər müəyyən edir. Heç şübhəsiz, müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə Xəzərlə məşhur Çin səddi arasında yeni və möhkəm əməkdaşlıq körpüləri quracaq və müasir dövrün daha möhtəşəm inkişafına nail olacaqdır.

# Azərbaycan və Türkiyə xarici işlər nazirlərinin görüşü

**İyulun 5-də Xarici İşlər naziri Ceyhun Bayramov Şuşa şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü, habelə TDT Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində Türkiyənin Xarici İşlər naziri Hakan Fidanla görüşüb.**



Görüş zamanı Azərbaycan ilə Türkiyə arasında mövcud müttəfiqlik münasibətlərindən irəli gələn məsələlər, çoxtərəfli formatlar çərçivəsində əməkdaşlıq, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Azərbaycan ilə Türkiyə arasında qardaşlıq, dostluq və həmrəyliyə əsaslanan müttəfiqlik münasibətlərini təsbit edən Şuşa Bəyannaməsinin imzalandığı Şuşa şəhərinin TDT-nin qeyri-rəsmi Zirvə görüşünə ev sahibliyi etdiyi məmnunluqla qeyd olunub.

Ceyhun Bayramov Azərbaycanın xarici siyasətində Türk dünyası və TDT istiqamətinin tutduğu əhəmiyyətli yerdən danışaraq Zirvə görüşünün təşkilat çərçivəsində əməkdaşlığın inkişafı və gücləndirilməsinə töhfə verəcək sənəd və qərarların qəbulu ilə yadda qalacağına ümidvar olduğunu söyləyib.

TDT ilə yanaşı, digər regional və beynəlxalq təşkilatlar, o cümlədən, müxtəlif çoxtərəfli formatlar çərçivəsində əməkdaşlığın intensivləşməsinin əhəmiyyəti qeyd olunub. Bu istiqamətdə cari il iyulun 3-də Azərbaycan, Türkiyə və Pakistan liderlərinin, habelə martın 15-də Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin üçtərəfli görüşlərinin regional, qlobal təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi baxımından faydalı olduğu bildirilib.

C.Bayramov, həmçinin postmünaqişə dövründə mövcud regional vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə fəaliyyəti, habelə Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin durumu barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Sülh prosesinin qarşısında duran çağırışların, o cümlədən, ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən və Ermənistan Konstitusiyasında iddiaların, üçüncü dövlətlər tərəfindən Ermənistanın hərbiləşməsinə töhfə verərək regional sabitliyə hədə törədən addımların hələ də qalmaqda olduğu diqqətə çatdırılıb.

***XQ***

# “Amerikasayağı” demokratiya

## Senator Rocer Uiker Azərbaycanı Rusiyaya qarşı qoymaq istəyir





**“Dünyada, xüsusən də Cənubi Qafqazda demokratiya və azadlıq ideyalarının yayılmasını puç etməyə çalışan qüvvələr var. Ermənistan bununla mübarizədə “böyük əzm” nümayiş etdirir”.**

Son aylar okeanın o tayından İrəvana təşrif buyuranların sayının və çeşidinin çoxalması bir sıra mətləblərdən xəbər verir. Məlum səbəblərdən birincisi odur ki, Vaşinqton Ermənistandan Rusiyaya qarşı “maşa” kimi istifadə etmək niyyətindən əl çəkməyib. Bundan az əhəmiyyət kəsb etməyən digər səbəb isə kollektiv Qərblə bir cəbhədən çıxış edən ABŞ maliyyə və hərbi yardımları ilə Ermənistanla Azərbaycan arasında “qüvvələr balansı” yaratmağa çalışır. Ağ Ev Administrasiyası, Konqres və Senatın rəsmi nümayəndələrinin Ermənistana bir-birini əvəz edən səfərləri məhz bu iki hədəfi reallaşdırmaqdan ötrü maraqlı “repitisiya” sayıla bilər.

Bu günlərdə ABŞ Dövlət Departamentinin yüksək vəzifəli rəsmilərinin ardınca İrəvana okeanın o üzündən daha bir “desant dəstəsi” göndərildi. Söhbət “qırğı” ləqəbli senator Rocer Uikerin başçılıq etdiyi Senatın ikipartiyalı nümayəndə heyətindən gedir. Yazımızın əvvəlində gətirdiyimiz sitat məhz senator Rocer Uikerin İrəvanda jurnalistlərə verdiyi açıqlamasındandır. Hayastan paytaxtında baş nazir və spikerlə görüşlərindən sonra müxalifətin təmsilçiləri ilə Ermənistanla Azərbaycanın şərti sərhədinə gedən “desantlar” Cermuk şəhərinə baş çəkməyi də unutmayıblar. Onları sərhədboyu turnedə Avropa İttifaqının Ermənistanda lövbər salmış mülki missiyasının “binokl diplomatları” müşayiət ediblər. Bunun ardınca mətbuat konfransı keçirən heyətin başçısı senator Uiker ABŞ-nin Ermənistanla təmaslarını artırmasını və bu fəallığın arxasında Cənubi Qafqazda ümumi maraqların dayandığını etiraf edib. Senator açıq şəkildə bildirib ki, rəsmi Vaşinqtonun strategiyası Rusiyanın postsovet respublikalarına təsirini zəiflətməyə, başqa sözlə desək, “böyük rus ayısı”nın emosiyalarını cilovlamağa yönəlib.

Yəni, Ağ evin bölgədə yürütdüyü siyasətin, dünyanın digər nöqtələrində olduğu kimi, Cənubi Qafqazda da öz mövqelərini gücləndirmək və Rusiyanı regiondan sıxışdırıb çıxarmaq strategiyası üzərində qurulduğunu ərz edən qoca senator bu zaman ABŞ-nin demokratiya və azadlıq prinsiplərini “rəhbər tutduğunu” önə çəkib. Bu kontekstdə özünün mübahisə doğuracaq fikirlərini açıqlayan Rocer Uiker Ermənistanın “mürəkkəb qonşuluq mühitinə” malik olduğunu, bir tərəfdən regionda böyük nüfuzu olan Rusiya, digər tərəfdən isə İran tərəfindən əhatə olunduğunu təəssüflə bildirib. Senatorun sözlərinə görə, Cənubi Qafqazda azadlıq və demokratiyanın bərqərar olmasını nə Moskva, nə də Tehran istəyir.

### “Azadlıq və demokratiya” oyunları davam edir

ABŞ-nin xeyli müddətdir ki, məhz “demokratiya” və “azadlıq” şüarları altında postsovet dövlətlərinin taleyi ilə oynadığı artıq heç kəsə sirr deyil. Bu zaman “demokratiyanın beşiyi”ndən bizim bölgəyə göndərilən emissarların ritorikasının nə qədər dəyişkən, ikiüzlü və riyakar olduğu aşkar görünməkdədir. İrəvanda “amerikasayağı demokratiya”dan dəm vuran senator Uikerin sözlərinə görə, Ermənistan hökuməti Azərbaycanla tezliklə sülh sazişinin bağlanmasını, sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin başa çatdırılmasını, həmçinin Türkiyə ilə sərhədlərin açılmasını istəyir. Senator gəlişigözəl sözlərinə onu da əlavə edib ki, ABŞ bu məsələlərdə İrəvan və Bakını tam dəstəkləyir. Necə deyərlər, bura qədər senatorun avazı yaxşı gəlirdi. Fəqət mətbuat konfransında amerikalı senatorun birbaşa Azərbaycana xitabən dediklərinə fikir verin: “Diqqət edin, Azərbaycanın Putin Rusiyası ilə birləşməsi nəyə gətirib çıxara bilər? Azərbaycandakı dostlarımıza tövsiyə etmək istəyirəm ki, onlar azadlığın qiymətini və əhəmiyyətini anlamağa çalışsınlar. Biz bunu təcrübəmizdə dəfələrlə görmüşük. Mən Azərbaycana bu xəbərdarlığı çatdırmaq istəyirəm: ayıq olun ki, böyük “rus ayısı” yenidən Cənubi Qafqazda dominant mövqe tutmağa çalışmasın”.

Senator Uikerin İrəvanda dilə gətirdiklərinin diplomatik məntiqsizliyi nəinki təəssüf doğurur, həm də çaşqınlıq yaradır. O, ehtimal nəzəriyyəsinə söykənərək, Azərbaycanın Putin Rusiyasına birləşməsindən danışarkən konkret nəyi nəzərdə tutur? Məgər, o, bilmir ki, Ermənistandan fərqli olaraq, Azərbaycanın Rusiyadan iqtisadi asılılıq kimi problemi yoxdur? Bəlkə Rusiyanın hərbi bazası, sərhəd qoşunları Ermənistanın deyil, Azərbaycan ərazisində yerləşir? Doğrudanmı hüquqşünas Uikerin Kremlə daha çox kimin – Bakının, yoxa İrəvanın bağlı olmasından xəbəri yoxdur? Görünür, 73 yaşlı senatorun ya yaddaşı tükənmək üzrədir, ya da erməni konyakının dozası artıq düşüb.

Hətta, fərz edək ki, ABŞ senatorunun bizə ünvanladığı tövsiyəsinə əməl edərək, Azərbaycan Rusiya ilə qarşıdurmaya getdi. Bundan Bakı nə qazanacaq? Qərbin boş və quru vədlərini? Gürcüstanın, Ukraynanın və Moldovanın acı təcrübəsi belə şirin vədlərlə müşayiət olunan “məsləhətlərin” son aqibətini əyani şəkildə nümayiş etdirdi. Ağ Evin Kiyevə strateji silahların və ya F-16 qırıcılarının tədarükü ilə bağlı boş vədlərini və ya Ukraynada təcrübədən keçirilmiş, ABŞ Dövlət Departamentinin direktor müavini Sallivanın biabırçı “Rusiyanın uduzmasına imkan verməyin” modeli hələ yaddaşlardan silinməyib. Yəni, bu gün də okeanın o tayındakının “Ukrayna, Azərbaycan, Gürcüstan və Moldovanın qalib gəlməsinə imkan verməyin” kimi təxribatçı çağırışlarının qüvvədə olmasını kimdən və necə gizlətmək mümkündür? Uzun sözün qısası, ABŞ-nin postsovet xalqlarının taleyi ilə oynamaq məqsədini güdən Uiker kimi siyasətçilərin avantürist bəyanatlarını nə vaxta qədər dinləməli olacağıq?

### Ağ Ev ayrı, Senat başqa?

İrəvana səfərə gəlmiş ABŞ senatorunun saxta və bəlağətli jarqonunun arxasında gizlənənləri sadaladıq. Onun təmsil etdiyi siyasi elitanın Şərqi Avropada törətdiyi qanlı qırğınları, demokratiyanı korporativ maraqlarına qurban ermısini də “xidməti dosyelərinə” əlavə etsək, bu gün Ukraynada baş verənlərə təəccüblənməməliyik. Düz altı aydır Senatda bu ölkəyə hərbi yardımın artırılması ilə bağlı riyakar müzakirələr davam edir. Əlbəttə ki, onlar üçün bu barədə danışmaq çox asandır. Necə ki, respublikaçı senator – Senatın Silahlı qüvvələr komitəsinin üzvü Rusiyaya qarşı sərt mövqe tutmaq və mantra kimi ABŞ-nin nüvə arsenalını yeniləmək və ya Afrikada hərbi bazalarını yerləşdirmək, Cənubi Koreyada yerləşən hərbi bazalara nüvə başlıqları daşımaq barədə annotasiyaları təkrarlamaq rahatdır. Maraqlısı budur ki, Senatda gedən bu tip müzakirələri az sonra Vaşinqton supergücün rəsmi mövqeyi ilə üst-üstə düşmədiyi barədə açıqlamalar verir. Rəsmi təkzib bir yana, keçən ilin noyabrında həmin Uiker Prezident Co Baydenə məktub yazaraq, Ukraynaya uzaqmənzilli raketlərin verilməsini istəyib.

Konqresdəki bəzi dinləmələri eşidəndə belə təsəvvür yaranır ki, ABŞ-nin qanunverici orqanı Rusiya, İran və KXDR-in koordinasiyalı davranışlarından özünə təhlükə görür. Bu, ABŞ-nin hərbi arsenalının zəiflədiyini göstərir. Və qoca və çılğın senator Rocer Uiker gördüyü həqiqətlə üz-üzə dayanaraq, İrəvandan Azərbaycana tövsiyələrini göndərir.

### Senator Uikerə zəruri xatırlatma

Bu, həmin senator Rocer Uikerdir ki, 11 il bundan əvvəl Bakıya rəsmi səfərindən sonra “The Washington Times” qəzetində Azərbaycanın ABŞ ilə tərəfdaşlığının bu regionda demokratiyanın inkişafı və təhlükəsizliyin təmin edilməsi üçün əlverişli şərait yaratdığı barədə məqalə dərc edib. Missisipi ştatını ABŞ Senatında təmsil edən Uiker həmin yazıda Azərbaycanı Qafqaz regionunun nüfuzlu lideri adlandırır. O, partnyor ölkə kimi Azərbaycanın dünya miqyasında tanınmasının Vaşinqtonun maraqlarına cavab verdiyini vurğulayır. Məqaləsində “Hər iki ölkə dünyada elə bir təhlükəsiz və firavan mühitin bərqərar olmasına çalışır ki, orada terrorçular əl-ayaq aça bilməsinlər, kütləvi qırğın silahlarından istifadə edilməsi halları azalsın” – qeyd edən senator ABŞ-nin Azərbaycanın öz sözünə sadiqliyinin dəfələrlə şahidi olduğunu deməyi də unutmur.

Hamıya məlum faktdır ki, Azərbaycan 2001-ci il sentyabrın 11-də terrorçuların ABŞ-yə məlum təyyarə hücumlarından sonra terrorizmə qarşı mübarizədə və Əfqanıstanda “Sarsılmaz azadlıq” hərbi əməliyyatı zamanı ABŞ-ni dəstəkləyib. Bu dəstək özünü rəsmi Bakının Amerika təyyarələrinə Azərbaycan səmasından Əfqanıstana uçuşlar həyata keçirmək hüququnun verilməsi, üstəlik, özünün mavi dəbilqəlilərini hərbi əməliyyatda iştirak etmək üçün Əfqanıstana göndərməsi kimi jestləri ilə təsdiqlənib. “The Washington Times”dakı məqalədə xüsusi olaraq vurğulanır ki, ABŞ-nin Xəzər hövzəsində Azərbaycan kimi sabit müttəfiq tapmaqda bəxti gətirib. Azərbaycanın əməkdaşlıqda davamlı etibarlılıq nümayiş etdirdiyini, müttəfiqlərin enerji təhlükəsizliyinin təminatında ölkəmizin rolunu yüksək qiymətləndirən R.Uiker yazısında ABŞ-nin Azərbaycanda o zamankı səfiri Riçard Morninqstarın dediyi sözləri sitat gətirir: “ABŞ ilə Azərbaycan arasında bir sıra müştərək maraqlar Birləşmiş Ştatların xarici siyasətinin prioritetlərinə uyğundur”.

Bəs, 11 il əvvəl “Avropa, Asiya və Yaxın Şərqin qovuşduğu məkanda yerləşən, dinamik və müasir dövlət olan Azərbaycan ABŞ tərəfindən davamlı dəstəyə və diqqətə layiq olan müttəfiqdir” – yazan senator üçün indi nə dəyişib? Cavab əvəzinə müxtəlif səbəblər gətirilə, maraqlı versiyalar irəli sürülə bilər. Misal üçün, ya onu İrəvana gələnə qədər hayların ABŞ-dəki lobbisi “verbovka” eləyib, ya da qayıdandan sonra “xidmətinə görə” xüsusi qaydada mükafatlandırılacaq. Senator Rocer Uikerin indiki halında, ola bilsin ki, hər iki versiya öz təsdiqini tapsın...

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Əslində, Ermənistana səfər etmiş ABŞ senatorları, konqresmenləri təxribatla məşğul olurlar. Okeanın o tayındakı Amerikadan gəlib burada belə tövsiyələr vermələri məhz təxribatdan başqa bir şey deyil. Digər tərəfdən, İrəvanda bu barədə ağızdolusu danışanda niyə reallığı nəzərə almırsan? Qafqazda “azadlıq qalası” saydığınız həmin Ermənistanı Rusiya qoşunları qoruyurlar. O Ermənistan ki, ərazisində Rusiyanın iki hərbi bazası– biri Erebunidə, digəri Gümrüdə yerləşir. Həmin “azad” Ermənistan ki, onun Rusiya ilə ticarət dövriyyəsi nəinki azalmır, əksinə, durmadan artır və dominant xarakteri daşıyır.

İndi İrəvanda oturub Azərbaycanın ünvanına hədyanlar yağdırırlar. Nə demələrindən asılı olmayaraq, Azərbaycan üçün nəinki senator Uikerin, ümumiyyətlə, ona qoşulmuş digər senator və konqresmenlərin tövsiyələrinin heç bir əhəmiyyəti yoxdur.

Azərbaycan Rusiya ilə həmsərhəd dövlətdir. Bakının öz təhlükəsizliyini təmin etməyin başlıca yolu Moskva ilə normal, işgüzar, qarşılıqlı hörmət və etimada söykənən münasibətlərin qurulmasından keçir. Azərbayna artıq bu münasibətləri qurub və boynuna götürdüyü öhdəliklərə əməl edir. Bu məsələdə Bakının kənardan tövsiyələrə ehtiyacı yoxdur. Əgər belə məsləhətləri İrəvandakılar alqışlayırsa, sözlərini elə onlara ünvanlasınlar.

**KÖŞƏ**

# Merihin “bozqurd”u və türkçülüyə uzanan əl

**Məlum olduğu kimi, Almaniyada keçirilən AVRO-2024-ün 1/8 final mərhələsində Avstriya ilə matçda Türkiyə millisinin qollarını vuran Merih Dəmiral “bozqurd” işarəsi göstərərək sevincini bölüşdüyü üçün UEFA tərəfindən cəzalandırılıb. Avropanın ali futbol qurumu futbolçunun ümumi davranış prinsiplərinə zidd hərəkətə yol verdiyini, əsas nəzakət qaydalarını pozduğunu açıqlayıb və onu iki oyunluq diskvalifikasiya edib. Üzücüdür...**



**Əvəz Rüstəmov**
**evez.rustemov@gmail.com**

Əlbəttə, hansı səmtdən yanaşsaq, UEFA-nın qərarı ədalətsizdir. “Bozqurd” işarəsi terrorçuluğu, ekstremizmi ifadə edən hərəkət deyil. Bu, bir rəmzdir. Eyni qaydada müxtəlif oyunçular da öz ölkələrinə xas rəmzləri göstərə bilərdilər. Çox güman, qurumun cınqırı da çıxmayacaqdı. Amma indi çıxdı və sırf siyasi qərar verdi. Yazımızda məsələnin iki tərəfinə diqqət yetirəcəyik.

***

Əvvəla, UEFA-nın məlum qərarı, ilk növbədə, “Köhnə qitə”nin türk varlığına münasibətdəki əndişəsini göstərdi. Keçmiş unudulmayıb. UEFA keçmişin təkrarlanmasına qarşı, bir növ, müqavimət formalaşdırır. Göstərir ki, Osmanlı, türk ruhuna müxalifdir. Nəinki müxalifdir, o ruhu süngü ilə qarşılamağa hazırdır. Nəzərə alaq ki, Merih Dəmiralla bağlı verilmiş qərar edam qərarı kimi bir şeydir. Çox güman ki, dövr başqa olsaydı, dar ağacı qurulacaqdı. Nəzərə alaq ki, indiki durumda futbolçunun meydanda olmasının qarşısını almaqla, onu həyatdan məhrum etmək eyni şeydir. Onu da nəzərə alaq, ki, Merih kimi bir oyunçunu cəzalandırmaq adi məsələ sayıla bilməz. Tutalım, “bozqurd” işarəsi Avstriyada qadağan edilib. Almaniyada belə bir qərar verilmədiyindən, o zaman məsələnin üzərindən keçmək olardı. Amma…

M.Dəmiralın hərəkəti türk dünyasında böyük coşğu ilə qarşılandı. Hər halda, Türkiyə–Avstriya matçından sonra, elə matçın gedişi zamanı da Azərbaycanda və Türkiyədə bu coşğu özünün pik nöqtəsində idi. Matçdan sonra M.Dəmiralın verdiyi açıqlama isə durumu bir qədər də dramatikləşdirdi, müvafiq olaraq “bozqurd”a qarşı hiddəti körüklədi. Futbolçu sırf türk kimliyini müqəddəsləşdirən fikirlər səsləndirdi. Ardınca hər yanı “Nə mutlu türküm deyenə” şüarları bəzədi. Sizcə, dünya buna cavabsızmı qalacaqdı? Xeyr! Yəni, M.Dəmirala qarşı qərar həm də dilində “Nə mutlu türküm deyenə” fikrini daşıyanların hər birini cəzalandırmaq idi.

***

Amma digər məqama diqqət yetirək və bir az soyuq yanaşaq. M.Dəmiral kimi müdafiəçi iki oyunluq meydanda olmursa, deməli, türk dünyasını, konkret olaraq Türkiyəni cəzalandırmaq istəyənlər məqsədlərinə çatdılar. Buna qarşı çıxacaq güc oldumu? Xeyr! Ədalətsiz qərar dəyişdimi? Yox! O zaman düşünək, görək, belə bir qərar olmaya bilərdimi? Burada söhbət təkcə M.Dəmiralın hərəkətindən getmir. Böyük anlamda götürsək, onun iki oyunluq diskvalifikasiyasına səbəb təkcə futbolçunun davranışının və matç sonrası türk kimliyini yüksək tutan açıqlamasının qıcıq doğurması deyildi. Sosial şəbəkələrin, medianın türk seqmentində yayılan fikirlər də öz mənfi rolunu oynamışdı. Mənzərə düşündürücüdür və düşünək.

AVRO–2024-də azarkeş sayında üstünlük türklərə məxsusdur – 130 min. İkinci yerdə 125 min sayla meydan sahibləri almanlar gəlir. Təsəvvür edin, bir ölkədə nüfuzlu idman yarışı keçirilir, ancaq başqa ölkənin azarkeş sayı həmin ölkədəkindən çoxdur. Hər halda, indiyədək belə bir halın yaşandığını eşitməmişik. Bu, o deməkdir ki, türk varlığı onsuz da Avropanı cənginə alır. Burada demoqrafik, sosial və sair amillər də öz sözünü deyir. Onladan danışmaq, nələrisə təkrarlamaq niyyətindən uzağıq. Fakt budur ki, türklər vaxtilə Osmanlı sultanlarının edə bilmədiklərini bu gün reallaşdırırlar. Avropanın fəthi başqa necə olmalıdır?

Qitənin ictimai rəyi türkləşməyə, müsəlmanlaşmaya qarşı ya heç nə edə bilmir, ya da etdiyi ciddi təsir bağışlamır. Çünki təbii gedən bir proses var. Mövcud durumda yuxarıda türk azarkeş sayı ilə bağlı səsləndirdiyimiz rəqəm çoxluğun rəqəmidir. Belə bir vəziyyətdə “bozqurd” psixoloji baxımdan azlığın özünü ifadə simvoluna çevrilir. Əsl azlıqla, əsl çoxluq yerini dəyişir. Birinci ikincini, az qala, ekstremizm şübhəsi ilə cəzalandırır. Başlıca sual isə budur: çoxluq niyə özünü azlıq kimi aparır? Olmazdımı ki, aparmasın? Onsuz da Türk dünyasının inkişafı göz önündədir. Bu gün Türkiyənin pilotsuz uçuş aparatları dünyada ön sıradadır. Türk Ordusu ən güclü ordulardandır. Ümumən, Türk dünyasının konsolodasiyası qlobal prosesdir. Belə olan halda Avstriya kimi ölkələr “bozqurd”a nə qədər istəyirlər qadağalar qoysunlar? Nə xeyri var?

***

Sonda soyuq başla yanaşaraq belə qənaətə gəlmək olar ki, M.Dəmiral “bozqurd” toteminə, eləcə də onu müqəddəsləşdirən ritorikaya ehtiyac yox idi. Həssas yanaşılması, reallıqların nəzərə alınması mütləqdir. Bir halda ki, türklər elm və texnika, hərb sənəti və inkişafla, elə təbii artımla da dünyanı fəth edirlər, indiki durumda əsas olan türk futbolçularının Avropanı fəth etməsidir. Bu fəthdə isə pafosa ehtiyac qətiyyən yox idi və nəticə budur ki, UEFA fəthin bir əsgərini sıradan çıxardı. Digər tərəfdən sırf “bozqurd” toteminə gəlincə, o, bir müqəddəslikdir. Müqəddəslik hər yerdə bölüşülməyən təbiətə malikdir. O gözəldir, çünki toxunulmazlıq statusunu saxlayır. Elə ki, müqəddəsliyi nümayişə çıxarırsan, ona əl uzadan mütləq tapılır. Tapıldı da…

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un keçirilməsi Azərbaycana beynəlxalq aləmdə nüfuzunu daha da möhkəmləndirməyə müsbət təsir göstərəcək, eləcə də iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal səylərə böyük töhfə verəcək.**

# COP29 Azərbaycanı qlobal ekoloji savaşın ön mövqeyinə çıxarıb

Rusiya BMT-yə Yardım Assosiasiyası sədrinin birinci müavini, Ümumdünya BMT Assosiasiyaları Federasiyasının vitse-prezidenti Aleksey Borisov bununla bağlı Azərbaycan mediasına müsahibəsində qeyd edib ki, İqlim Dəyişikliyi Konfransı (COP) qlobal dünya əhəmiyyətli tədbirdir. Çünki iqlim dəyişmələri ətraf mühitə, iqtisadiyyata, insanların sağlamlığı və təhlükəsizliyinə ciddi təhdiddir. COP ölkələrə bir araya gəlməyə, iqlim dəyişmələri problemlərini müzakirə etməyə, istixana qazlarının həcminin azaldılması üçün birgə hərəkətlər barədə tədbir və qərarları qiymətləndirməyə, yenilərini qəbul etməyə əlverişli şərait yaradır.




Bütün bu qeyd edilənlər deməyə əsas verir ki, COP əsas beynəlxalq ekoloji sazişlərdən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının və Paris İqlim Sazişinin həyata keçirilməsi üzrə danışıq prosesinin ali orqanıdır. Bu gün COP həm də ona görə mühüm önəm daşıyır ki, dövlət başçıları, nazirlər, digər dövlət xadimləri, eləcə də biznes, vətəndaş cəmiyyəti, akademiya, media və gənclər daxil olmaqla iqlim gündəliyinin geniş aktorlar dairəsini bir araya gətirir. İqlim probleminin həlli məqsədilə məhz belə sahələrarası yanaşmaya ciddi zərurət duyulur.

COP29 iqlim böhranından əziyyət çəkən cəmiyyətlər üçün yüksək dəyərləndirilir. Azərbaycanda keçiriləcək bu nüfuzlu tədbir artıq haqlı olaraq "maliyyə müşavirəsi" də adlandırılır, çünki məhz cari ilin noyabr ayında iqlim maliyyələşdirilməsi sahəsində yeni kollektiv razılaşdırılma gözlənilir.

İqlim dəyişikliyi ilə mübarizənin maliyyələşdirilməsində yeni hədəf isə inkişaf etmiş dövlətlər tərəfindən aşağı gəlirli ölkələr üçün nəzərdə tutulan maliyyə öhdəliyinin gerçəkləşdirilməsidir. Bu məsələdə problem ondan ibarətdir ki, 2009-cu ildə vəd edilən bütün vəsait ayrılmamışdı, bu da iqlim dəyişikliyi ilə mübarizənin ciddi şəkildə ləngiməsinə gətirib çıxardı. Ancaq iqlim böhranından əziyyət çəkən cəmiyyətlərdə inkişaf etmiş ölkələrin maliyyələşmə ilə bağlı verdikləri vəd və öhdəliklərin COP29-da tam həcmdə yerinə yetiriləcəyinə böyük ümid bəslənilir.

Ekspertlər sözügedən konfransda təkcə maliyyə deyil, daha geniş sahədə digər məsələlərin də yüksək səviyyədə müzakirə olunacağını düşünür, Azərbaycanın bu istiqamətdə qətiyyətli addımlar atacağına, bununla da bütün dünya üçün əhəmiyyətli sayılan iqlim təşəbbüsləri ilə çıxış edəcəyinə böyük ümid bəsləyirlər.

Bu gün karbon neytrallığına nail olmağın zəruriliyinə artıq heç kimin şübhə ilə yanaşmadığını vurğulayan ekspertlər, eyni zamanda, müxtəlif tipli iqtisadiyyata malik ölkələrə iqlim fəlakətinin qarşısının alınması üçün nəyi və necə etmək lazım olduğu ilə bağlı razılığa gəlməyin çətinliyi faktına da diqqət çəkirlər. Məsələn, Ümumdünya BMT Assosiasiyaları Federasiyasının vitse-prezidenti Aleksey Borisovun fikrincə, iki qütbün toqquşması göz önündədir. Birinci tərəf, ilk növbədə, Avropa İttifaqı ölkələri və ABŞ 2050-ci ilə qədər sürətləndirilmiş enerji keçidinə və karbon neytrallığına nail olmaqda israrlıdırlar. Onlar istixana qazları emissiyalarının karbohidrogenlərin hasilatı və istifadəsi sahəsində "keçid" layihələri hesabına azaldılmasına nail olmağı yolverilməz hesab edirlər.

İkinci qütbdə dayanan dövlətlər-inkişaf etməkdə olan ölkələr isə 2060–2070-ci illərə qədər karbon neytrallığına nail olmaq şərtilə iqtisadiyyatın inkişafının xüsusiyyətini nəzərə alan daha yumşaq keçidin tərəfdarıdırlar. Çünki bu yol inkişafda olan ölkələrə enerji və resurs səmərəliliyi istiqamətdə hərəkət edərək iqtisadiyyatı yenidən qurmağa imkan verəcək, eləcə də düşünülmədən sürətləndirilən enerji keçidini şərtləndirəcək sosial-iqtisadi risklərin səviyyəsini azaldacaq.

## Ekspert rəyi

**Samir HEYDƏROV, iqtisadçı-ekspert**



Respublikamızın bərpaolunan enerji potensialı əsasında istehsal edilən "yaşıl sərvət"in tezliklə ixracının həyata keçirilməsi, ölkəmizin bu sahədə genişmiqyaslı uğurlu layihələr reallaşdırması Azərbaycanın enerji strategiyasında yeni eranın başlanmasından xəbər verir. Bu eranın əvvəlində Azərbaycanın COP29-a evsahibliyi hüququ qazanması həm ölkəmizə etimad göstəricisi kimi diqqət çəkir, həm də qarşıya qoyulan vəzifənin – 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji payının respublikamızda 30 faizə çatdırılmasının gerçəkləşdiriləcəyi əminliyini ifadə edir.

Belə bir tədbir Azərbaycanın iqlim dəyişikliklərinə qarşı mübarizədə həyata keçirdiyi layihələrin beynəlxalq aləmdə tanınmağına və bu sahənin sürətli inkişafına yeni investisiyaların cəlb olunmasına əlverişli imkan yaradır. Respublikamız neft-qaz ölkəsi olmaqla yanaşı, iqlim dəyişiklikləri ilə bağlı çağırışlara da yüksək səviyyədə reaksiya verir. Belə ki, 2030-cu ilə qədər istilik effekti yaradan qazların həcminin ölkəmizdə 35 faizə qədər azaldılması nəzərdə tutulur. O cümlədən, sürətlə bərpaolunan enerji sahələri yaradılır və 2030-cu ilə qədər istehsal edilən elektrik enerjisinin 30 faizinin "yaşıl enerji" üzərinə keçirilməsi ilə bağlı könüllü öhdəlik diqqətdə saxlanılır. Bu məqsədlə günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı layihələr davamlı olaraq reallaşdırılır. Ölkəmizdə "yaşıl enerji" sahələrinin genişləndirilməsi ilə əlaqədar təcrübəsi olan dünyanın aparıcı şirkətləri ilə sazişlər imzalanır.

Azərbaycanda qlobal istiləşmə ilə mübarizədə respublikamızın etibarlı enerji tərəfdaşı və beynəlxalq birliyin məsul üzvü kimi rolunu nümayiş etdirən "yaşıl enerji" layihələri uğurla həyata keçirilir. 2024-cü ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Sammitinə sədrlik edəcək ölkəmiz bu nüfuzlu tədbiri iqlim dəyişikliyinə qarşı birgə mübarizədə beynəlxalq əməkdaşlığın reallaşdırılması üçün mühüm platforma olaraq dəyərləndirir.

Göründüyü kimi, neft-qaz ölkəsi olan Azərbaycan "yaşıl enerji" növlərinin yaradılmasını və onun dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyənləşdirib. COP29-un Bakıda keçirilməsi qərarının verilməsi, habelə beynəlxalq aləmdə razılıqla qarşılanması da məhz vurğulanan siyasətdən qaynaqlanıb. Şübhəsiz ki, bu zaman Prezident İlham Əliyevin bu sahədə – bərpaolunan enerji potensialının gerçəkləşdirilməsi ilə bağlı məqsədyönlü fəaliyyəti də əsaslı rol oynayıb.

# "Yaşıl texnologiya"dan "yaşıl mədəniyyət"ə…

**İnformasiya Texnologiyaları İnstitutunda uzun illərdir ki, rəqəmsal transformasiyalar şəraitində "yaşıl texnologiya"larla bağlı tədqiqatlar aparılır, "yaşıl iqtisadiyyat" və ekologiya kimi problemlərə böyük diqqət ayrılır.**



**Bu barədə AMEA-nın vitse-prezidenti, adıçəkilən institutun baş direktoru, akademik Rasim Əliquliyev deyib:**

– Hazırda bütün dünyada, o cümlədən Azərbaycanda enerji təhlükəsizliyi məsələlərinə böyük əhəmiyyət verilir, ən müasir texnologiyaların ölkəmizdə geniş tətbiq olunması ilə yeni iqtisadi sahələrin meydana gəlməsi, enerji istehsalı, enerji təhlükəsizliyinin yenidən qurulması istiqamətində mühüm addım atılır.

Bu il ən böyük beynəlxalq tədbirlərdən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un ölkəmizdə keçirilməsinə dair qərarı mühüm hadisə kimi diqqət çəkir. Bu mötəbər tədbir Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da yüksəldilməsi baxımından böyük siyasi və iqtisadi əhəmiyyət daşıyır, iqlim dəyişikliyinin azaldılmasına və yaşıl enerjidən istifadəyə yönəlmiş qlobal təşəbbüslərin təşviqində mühüm rol oynayır.

COP29 ölkəmizdə "yaşıl ideyaların" reallaşması istiqamətində institusional və kompleks tədbirlərin həyata keçirilməsinə təkan verəcək, dünyanın "düşünən beyinləri" ölkəmizdə cəmləşəcək.

Ənənəvi iqtisadiyyatın "yaşıl iqtisadiyyat"a transformasiya olunması üçün Azərbaycan cəmiyyətində "yaşıl mədəniyyət"in formalaşdırılmasına başlanılıb. AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun alimlərinə "yaşıl ideya", "yaşıl texnologiyalar" istiqamətində yeni təşəbbüslər irəli sürməklə bağlı tapşırıqlar verilib. İnstitutda artıq "yaşıl cəmiyyət"in formalaşması məsələləri ilə bağlı tədqiqatlara başlanılıb, "yaşıl texnologiyalar"ın tətbiqi istiqamətində aparılan işlərə, həyata keçirilən tədbirlərə elmi baxımdan ciddi dəstək verilməsi qərara alınıb.

# SOCAR regionun enerji xəritəsini yaradır

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) fəal iştirak edərək iqlim dəyişikliyinin təsirlərinin yumşaldılmasına kömək edəcək tədbirlər və müzakirələr təşkil etməyi planlaşdırır. Bunu SOCAR-ın vitse-prezidenti Əfqan İsayev "Euronews"a açıqlamasında deyib.**

Digər milli və beynəlxalq neft şirkətləri ilə birgə səylərin vacibliyini vurğulayan vitse-prezidentin sözlərinə görə, strateji tərəfdaşlıqlar və perspektivli layihələr vasitəsilə SOCAR gələcək nəsillər üçün dayanıqlı gələcəyi təmin etməyi hədəfləyir. "SOCAR strateji mövqe tutur ki, regionun gələcək enerji xəritəsinin formalaşmasında əsas rol oynasın", – deyə o, əlavə edib.

SOCAR-ın karbohidrogen və aşağı karbonlu biznes portfelini tarazlaşdırmaq məqsədilə ənənəvi neft-qaz müəssisəsindən 2035-ci ilə qədər enerji sahəsində şaxələndirilmiş lider şirkətə çevrilmək planları və addımları barədə məlumat verən Ə.İsayev təmsil etdiyi qurumun karbonsuzlaşdırmaya sadiqliyini vurğulayaraq emissiya səviyyəsini qlobal sənaye liderlərinin səviyyəsinə uyğunlaşdırmaq niyyətində olduğunu bildirib. O deyib ki, hazırda SOCAR strateji qlobal oyunçularla əməkdaşlıq edir, o cümlədən 2 günəş və 1 külək elektrik stansiyası da daxil olmaqla 1 giqavat gücündə bərpaolunan enerji mənbələrinin, həmçinin ekoloji cəhətdən təmiz hidrogen istehsalına yönəlmiş 2 giqavat gücündə dəniz külək enerjisi layihəsinin hazırlanmasına başlayıb.



# İctimai nəqliyyat və ekoloji standartlar




**Hazırda bütün dünyada atmosfer havasına atılan karbon emissiyalarının əsas mənbəyi avtonəqliyyat vasitələri sayılır. Hətta mütəxəssislər hesab edirlər ki, avtomobillər stasionar mənbələrdən, o cümlədən zavod və fabriklərdən atmosferə daha çox zərərli tullantılar atır.**

Azərbaycanda da bu sahədə vəziyyət ürəkaçan deyil. Müşahidələr göstərir ki, hazırda ölkədə və paytaxtda atmosfer havasına atılan çirkləndirici maddələrin əksəriyyəti məhz avtonəqliyyatın payına düşür. Artıq ölkəmizdə bu zərərli tendensiyanın qarşısını almaq məqsədilə bir sıra zəruri tədbirlər görülür. Məlum olduğu kimi, artıq bir ildən çoxdur ki, xaricdən ölkəmizə buraxılış tarixi 10 ili ötmüş avtomobillərin idxalı qadağan edilib. Bununla yanaşı, ekoloji cəhətdən təmiz olan elektrik mühərrikli avtomobillərin idxalı üçün bir sıra güzəştlər nəzərdə tutulub. Məsələn, bütün elektrik mühərrikli avtomobillərin idxalı və satışı əlavə dəyər vergisindən azaddır. Bununla yanaşı, yaşı 3 ilə qədər olan elektromobillər 15 faiz gömrük rüsumundan azad olunub. Elektriklə işləyən elektromobillər üçün enerji doldurucularının idxalı və satışı zamanı isə həm ƏDV, həm də gömrük rüsumu tələb olunmur.

Bu sahədə növbəti addımlardan biri də yerüstü ictimai nəqliyyatın, xüsusən də avtobusların müasir dövrün ekoloji standartlarına uyğunlaşdırılması ilə bağlıdır. Artıq xaricdən ölkəmizə gətirilən elektrikli avtobuslar sınaq məqsədilə xəttə buraxılıb. Bununla yanaşı, hazırda belə avtobusların Azərbaycanda istehsalının təşkili istiqamətində də bir sıra zəruri addımlar atılır. Ölkənin avtobus parkının yerli istehsal hesabına təmin edilməsi məqsədilə bugünlərdə "Azərbaycan İnvestisiya Şirkəti" ASC, Çinin "BYD Company Limited" və "SARDA Group" şirkətlərinə məxsus "Electrify Azerbaijan" arasında Anlaşma Memorandumu imzalanıb.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müşaviri Rəşad Bayramovun sosial şəbəkə hesabında yazdığına görə, memorandum Sumqayıt Kimya Sənaye Parkının ərazisində elektrobus istehsalı zavodunun tikintisini nəzərdə tutur. Onun sözlərinə görə, ilkin mərhələdə zavodda ildə 150-200 ədəd elektrobus istehsal olunacaq ki, bu da daxili tələbatı qarşılamaqla yanaşı, Azərbaycanın ixrac potensialının artırılmasına imkan yaradacaq.

Məsələ ilə bağlı İqtisadiyyat Nazirliyi də geniş açıqlama yayıb. Nazirliyin məlumatına əsasən, imzalanma mərasimi Nazirlər Kabinetində Baş nazirin müavini Şahin Mustafayevin iştirakı ilə keçirilən görüşdə baş tutub. Bildirilib ki, işbirliyinə dair sazişi iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov, BYD şirkətinin kommersiya avtomobilləri üzrə icraçı direktoru Tien Çunlon və "Electrify Azerbaijan" MMC-nin direktoru Tariyel Rüstəmov imzalayıblar.

Qeyd edək ki, çərçivə sazişi elektrik mühərrikli avtobusların alınmasını, onlara xidmətin göstərilməsini, ölkəmizdə istehsalın qurulmasını və lokallaşdırılmasını nəzərdə tutur. Sazişin məqsədi Azərbaycanda elektrik nəqliyyatı infrastrukturunun inkişafı, sərnişinlərin rahatlığının təmin edilməsi və ətraf mühitə zərərli təsirin azaldılması, habelə ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılmasıdır.

Yeri gəlmişkən, sözügedən müqavilənin Azərbaycanın evsahibliyi edəcəyi Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP 29) ərəfəsində imzalanması ölkəmizin iqlim dəyişiklikləri ilə mübarizə üzrə qlobal səylərə sadiqliyini bir daha göstərir. Nazirliyin məlumatında, həmçinin bildirilir ki, saziş çərçivəsində BYD şirkəti ölkəmizdə əlavə dəyər zəncirinin inkişaf etdirilməsi məqsədilə yeni istehsal sahələrinə də investisiya qoymağı nəzərdə tutur. Belə ki, şirkətlə 2026-cı ildən aşağı tonnajlı yük elektrik avtomobillərinin, kommunal təsərrüfat üçün elektrik mühərrikli avtonəqliyyat vasitələrinin, elektrik mühərrikli minik avtomobilinin istehsalı, 2028-ci ildən isə elektrik enerjisinin saxlanması üçün batareyaların yığımı kimi sahələrdə əməkdaşlıq planlaşdırılır. Bu layihələr üzrə yaradılacaq birgə müəssisə tərəfindən, ümumilikdə, təqribən 60 milyon ABŞ dolları məbləğində əlavə investisiyanın qoyulması planlaşdırılır.

Bir məqamı da qeyd edək ki, ölkə Prezidentinin müvafiq sərəncamı ilə bundan sonra elektrik mühərrikli avtobusların BYD şirkətindən alınmasına qərar verilib. Azərbaycanda elektrik mühərrikli avtobus istehsalı müəssisəsi fəaliyyətə başladıqdan sonra isə tələbat daxili istehsal hesabına ödəniləcək. Birinci mərhələdə "BakuBus" MMC tərəfindən BYD şirkətindən 160 ədəd elektrik mühərrikli avtobus və 100 ədəd enerjidoldurma aparatı alınacaq. Avtobusların bu il oktyabrın 31-dək mərhələli şəkildə gətirilərək Bakı şəhərində marşrut xəttinə çıxarılması planlaşdırılır.

Çin şirkəti ilə əməkdaşlıq çərçivəsində, həmçinin gələn il yerli istehsalın qurulması və ehtiyat hissələrinin mərhələli şəkildə lokallaşdırılması planlaşdırılır. Bununla yanaşı, layihə dəstək mexanizmləri, birgə müəssisənin maliyyələşdirilməsi, əqli mülkiyyət hüquqlarının verilməsi və s. kimi məsələləri özündə ehtiva edir. Lokallaşdırılmanın 2030-cu ilədək avtobusların ümumi maya dəyərinin 40 faizini təşkil etməsi nəzərdə tutulur. Layihə ilə bağlı müqavilənin isə cari ilin sentyabr ayında imzalanması planlaşdırılır.

Ölkədə elektrik avtobuslarının istehsalı layihəsində "Azərbaycan İnvestisiya Şirkəti" ASC payçı kimi iştirak edəcək. Layihə üzrə BYD şirkətinin Azərbaycandan olan tərəfdaşı "SARDA Group" şirkətlərinə məxsus "Electrify Azerbaijan" MMC-dir. BYD şirkəti tərəfindən Sumqayıt Kimya Sənaye Parkında qurulacaq zavodda elektrik mühərrikli avtobusların istehsalına yaradılacaq birgə müəssisə tərəfindən, təqribən, 34 milyon ABŞ dolları həcmində investisiyanın qoyulması nəzərdə tutulub. Şirkət tərəfindən daxili tələbat və ixrac imkanları nəzərə alınmaqla illik istehsal gücünün 500 ədəd olması nəzərdə tutulur. Layihə çərçivəsində 800 yeni iş yerinin yaradılması da planlaşdırılır.

Qeyd edək ki, 1995-ci ildə yaradılmış BYD şirkəti ötən il 3 milyon ədəd yeni enerji avtomobilinin rekord satışını həyata keçirməklə dünya birincisi olub. BYD, həmçinin avtomobil istehsalı, elektronika, elektrik batareyaları, bərpaolunan enerji və dəmir yolu nəqliyyatı sahələrində son yenilikləri tətbiq edən dünya miqyaslı aparıcı texnologiya şirkətlərindən biri hesab olunur.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Dünya bazarına çıxışımız genişlənir



**Xarici ticarət dövriyyəsi, idxal-ixrac əməliyyatları ölkələrarası münasibətlərin, iqtisadi əlaqələrin inkişafında daim diqqətdə saxlanılır. Məhz buna görə dövlət başçıları, eləcə də nümayəndə heyətləri arasında keçirilən görüşlərin, danışıqların əsas mövzularından biri də xarici ticarət dövriyyəsinin artırılması olur.**

Azərbaycanda da xarici iqtisadi əlaqələrin genişlənməsinə hər zaman mühüm önəm verilir, ixracın strukturunda qeyri-neft məhsullarının, o cümlədən ərzaq mallarının çəkisinin artırılması, rəqabətqabiliyyətliyinin yüksəldilməsi ilə bu sahənin sürətli inkişafı şərtləndirilir. Təbii ki, bu yolla dünya bazarlarına çıxarılan məhsullarımız istehlakçılar tərəfindən razılıqla qarşılanır.

Prezident İlham Əliyev çıxışlarının birində bu əhəmiyyətli məqama toxunaraq deyib: "İndi bizim yerli məhsullarımız heç bir xarici məhsuldan geri qalmır, həm keyfiyyəti, həm də onların müasir qablaşdırılması, xarici görünüşü, dadı baxımından... Azərbaycanda indi kənd təsərrüfatı emalı sənayesində elə gözəl məhsullar istehsal olunur ki, Avropa ölkələrinə də, Amerikaya da ixrac edilir".

Son illərdə rəqabət indeksi göstəricisini ilbəil yaxşılaşdıran respublikamızda xarici ticarət dövriyyəsinin tərkibində mühüm dəyişikliklər baş verib. Belə ki, ölkəmizdə yeni istehsal sahələrində buraxılan məhsullar daxili bazarda satılan analoji xarici malları tədricən sıxışdırıb çıxarıb, hətta bəzi hallarda ixraca da yönəldilib. Bu da son nəticədə daxili bazarın idxaldan asılılığının azaldılmasına imkan yaradıb.

Azərbaycanın qeyri-neft məhsullarının xarici bazarlara ixrac imkanlarının daha da genişləndirilməsi məqsədilə ötən illər ərzində mühüm işlər görülüb. Belə ki, qanunvericilik bazası təkmilləşdirilib, ixrac mallarının istehsalı stimullaşdırılıb, ixracın infrastruktur təminatı yaxşılaşdırılıb. Sənaye zonalarının genişləndirilməsi, həmçinin potensial ixrac bazarı ölkələrində ticarət evlərinin sayının artırılması nəticəsində sözügedən istiqamətdə həyata keçirilən tədbirlərin səmərəliliyi artırılıb.

Respublikamızın ticarət sahəsində əməkdaşlıq coğrafiyasının sürətlə genişləndirilməsinin nəticəsidir ki, 2024-cü ilin yanvar-aprel aylarında Azərbaycanın hüquqi və fiziki şəxsləri tərəfindən dünyanın 156 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirilib, 100 ölkəyə məhsul ixrac edilib, 148 ölkədən idxal olunub.

İxrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2024-cü ilin yanvar-aprel aylarında ölkəmizin xarici ticarət dövriyyəsi 13 milyard 978 milyon ABŞ dollarına çatıb. Ticarət dövriyyəsinin 8 milyard 513 milyon dollarını və ya 60,9 faizini ixrac məhsulları, 5 milyard 465 milyon dollarını (39,1 faizini) isə idxal məhsulları təşkil edib, nəticədə 3milyard 47 milyon dollar məbləğində müsbət saldo yaranıb.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumata əsasən, Azərbaycanın xarici ticarət dövriyyəsinin 22,3 faizi İtaliya, 14,9 faizi Türkiyə, 9,6 faizi Rusiya, 7,6 faizi Çin, 4,7 faizi İsrail, 4,3 faizi Hindistan, 4 faizi Almaniya, 2,2 faizi Avstraliya, 2,1 faizi Çexiya, hər biri 1,7 faiz olmaqla Rumıniya və Gürcüstan, 1,6 faizi Tailand, 1,5 faizi ABŞ, hər biri 1,4 faiz olmaqla Bolqarıstan və Yunanıstan, 1,3 faizi İran, hər biri 1,1 faiz olmaqla Ukrayna və Türkmənistan, hər biri 1 faiz olmaqla Belarus, Koreya və Fransa, hər biri 0,9 faiz olmaqla Tunis və Portuqaliya, 10,7 faizi isə digər ölkələr ilə aparılan ticarət əməliyyatlarının payına düşüb.

Yeri gəlmişkən, burada bir məqamı da qeyd etmək istərdik. Azərbaycanın ikitərəfli ticarətin həcmini getdikcə artırdığı, əmtəələrin strukturunu optimallaşdırdığı və malların bazarlara çıxışını asanlaşdırdığı ölkələr sırasında Çin xüsusi yer tutur. Şanxay Əməkdaşlıq Təşkilatının bir neçə gün bundan əvvəl Astanada keçirilən Zirvə toplantısında bu barədə ətraflı danışılıb, eyni zamanda, tədbir çərçivəsində iyulun 3-də qəbul olunan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"-də ətraflı bəhs edilib.

Adıçəkilən sənəddə bildirilir ki, dost ölkə Azərbaycanın Çin Beynəlxalq İdxal Ekspo, Çin idxal və ixrac malları sərgisi, Çin beynəlxalq xidmət ticarət sərgisi və digər böyük sərgilərdə fəal iştirakını alqışlayır, respublikamızın tematik təqdimatlar keçirməsini və bu dövlətin ərazisində açılan ticarət mərkəzləri və milli pavilyonlar, eləcə də Çin elektron ticarət şəbəkələri ilə əlaqə qurmasını dəstəkləyir.

Hər iki ölkə ticarət-iqtisadi əlaqələrin davamlı və dinamik inkişafını yüksək qiymətləndirir və ticarət, sərmayə və mühəndislik layihələri sahəsində qarşılıqlı fəaliyyəti daha da gücləndirmək üçün Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyası mexanizminin rolunu getdikcə , o cümlədən Azərbaycan-Çin ticarət-iqtisadi əməkdaşlığının yüksək səviyyədə inkişafına nail olmaq məqsədilə nəqliyyat və kommunikasiyalar, "yaşıl enerji", emal və istehsal, infrastruktur, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı və s. sahələrdə layihələrin həyata keçirilməsinin təşviqinə diqqət yetirir.

Ötən ilin nəticələrinə görə, Çin Azərbaycanın 4-cü iri ticarət tərəfdaşı olub. Əgər 2018-ci ildə respublikamızla dost ölkənin xarici ticarət dövriyyəsi 1,3 milyard ABŞ dolları idisə, 2023-cü ildə 3,1 milyard ABŞ dollarını ötüb. Bu da müvafiq surətdə 2018-ci illə müqayisədə 1,8 milyard ABŞ dolları və ya 2,4 dəfə, 2022-ci ilin müvafiq göstəricisindən isə 1 milyard ABŞ dolları və ya 44 faiz çoxdur.

Bu uğurlu göstəricilərin əldə edilməsində Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl və sistemli surətdə həyata keçirilən sənayenin inkişafına dair Dövlət Proqramı da əhəmiyyətli rol oynayıb. Bu proqram şübhəsiz ki, ənənəvi sənaye sahələri ilə yanaşı, Azərbaycan iqtisadiyyatı üçün yeni olan kosmik, müdafiə, gəmiqayırma, alternativ enerji və digər sahələrin, həmçinin müasir istehsal infrastrukturunun malik sənaye zonalarının inkişafını sürətləndirib. Belə vəziyyət ölkənin ixrac qabiliyyətinin güclənməsinə, idxalı əvəz edən məhsulların istehsalının artırılmasına da əhəmiyyətli təsir göstərib.

Şübhəsiz ki, bu məsələdə qabaqcıl texnologiyalardan və idarəetmə təcrübəsindən səmərəli yararlanmaq böyük əhəmiyyətə malikdir. Bundan başqa, ölkədə hökm sürən siyasi və makroiqtisadi sabitlik, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici sərmayələr üçün ən cəlbedici dövlətlərdən biri kimi tanıdır.

Qeyri-neft sənayesində məhsul istehsalının artımına iqtisadiyyatın rəqəmsallaşması ilə bağlı layihələrin uğurla reallaşdırılması da müsbət təsir göstərir. Rəqəmsallaşma respublikamızın investisiya cəlbediciliyini şərtləndirən mühüm amillərdən biri olduğu üçün investorlar tərəfindən bu sahəyə aid infrastrukturun qurulması, eləcə də elektron ticarətin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır. Məhz bunun nəticəsidir ki, Azərbaycanda təhlükəsiz rəqəmsal ödəniş həllərinin genişləndirilməsi, etibarlı logistik şəbəkələrin təkmilləşdirilməsi kimi güclü rəqəmsal infrastruktur yaradılmasına böyük maraq göstərilir və bu sahədə müsbət göstəricilər əldə olunur.

Onu da qeyd edək ki, qeyri-neft ixracının yüksəlməsi bu sahənin, bütövlükdə, keyfiyyət baxımından strukturunun tənzimlənməsi ilə bağlıdır. Məhz buna görə də Azərbaycan əvvəlki illərdən fərqli olaraq yalnız xammal məhsulları deyil, eyni zamanda, emaledici məhsulları da dünya bazarına çıxarır. Bu da təbii ki, qeyri-neft ixracatının dayanıqlığı baxımından mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, son illər ölkəmizdə dövlət səviyyəsində həyata keçirilən bir sıra zəruri tədbirlər, strateji məhsulların idxal və ixracında bütün fiziki və hüquqi şəxslərin bərabər hüquqlarının gerçəkləşdirilməsi və inhisarçılığın qarşısının alınması istiqamətində görülən işlər, daxili bazarın marketinqinin düzgün müəyyənləşdirilməsi, gömrük əlaqələrinin sadələşdirilməsi, xarici ticarətin liberallaşdırılması kimi məsələlər, heç şübhəsiz, xarici iqtisadi əlaqələrin həcminin və coğrafiyasının bir qədər də genişlənməsinə səbəb olub.

# Azərbaycan gəmisi ABŞ sahillərində

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) donanmasına yeni əlavə edilən "Handysize" tipli "Xocalı" gəmisinin ilk səfəri uğurla yekunlaşıb.**




Bununla bağlı ASCO-dan redaksiyamıza verilən məlumatda bildirilir ki, gəmi Cənubi Koreyanın "Bukpyung" limanından qəbul etdiyi 30800 ton sement yükünü ABŞ-nin "Portland" limanına çatdırıb. 20 gün davam edən səfər çərçivəsində "Xocalı" ümumilikdə 8390 kilometr məsafə qət edib.

Bu səfərlə Azərbaycanın gəmiçilik tarixində ilk yaşanıb. Belə ki, "Xocalı" müstəqil Azərbaycan bayrağı altında ABŞ limanına yan alan ilk gəmi olub.

Qeyd edək ki, "Xocalı" bu ilin mayda Çində istismara verilib. Ümumilikdə, 38593 ton yükgötürmə imkanına malik olan gəminin uzunluğu 180, eni 30, bortunun hündürlüyü 15, suya oturumu 10,47 metr, maksimum sürəti 15,7 knotdur. Suya oturumu maksimum yük götürməklə, onun bir çox dayaz limanlara belə rahatlıqla daxil olmasına şərait yaradır.

"Xocalı" Prezident İlham Əliyevin tapşırıq və tövsiyəsi ilə hazırlanan və ASCO-nun Müşahidə Şurasının qəbul etdiyi Gəmiçiliyin Strateji İnkişaf Proqramı çərçivəsində alınan "Handysize" tipli ilk gəmidir.

# Aqrar sığorta ödənişləri 2 dəfə artıb

**Bu ilin yanvar-may aylarında Aqrar Sığorta Fondu fermer və təsərrüfatlara 2 milyon 572 min manat ödəniş edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 2,3 dəfə çoxdur.**




Fondun bu barədə məlumatında bildirilir ki, 5 aylıq ödənişin 2 milyon 21 min manatı əkin sahələrinə, 551 min manatı isə heyvandarlıq təsərrüfatlarına yönəldilib. Son 1 ildə əkin sahələri üzrə ödənişlər 2,7 dəfə, heyvandarlıq təsərrüfatları üzrə isə 1,5 dəfə artırılıb.

Hesabat dövründə 8,75 milyon manat sığorta haqqı müqabilində 364 min hektar əkin sahəsi sığortalanıb. Bu, ötən ilin eyni dövrünə nisbətən 52,3 faiz çoxdur. Ən çox sığortalanan əkinlər fındıq, çay, tütün, buğda, arpa, pambıq və qarğıdalı olub.

Bundan başqa, yanvar-may aylarında 659 min manat sığorta haqqı müqabilində 1100 baş kənd təsərrüfatı heyvanı sığortalanıb. Bu müqavilələr üzrə fermerlərə 6 milyon 74 min manatlıq sığorta təminatı verilib.

# Dövlət satınalmalarında qənaət

**Bu ilin yanvar–iyun aylarında dövlət satınalmalarında qənaət olunan dövlət büdcə vəsaitlərinin məbləği 2023-cü ilin eyni dövrü ilə müqayisədə 23,4 faiz artaraq 237,6 milyon manat təşkil edib.**



Bu barədə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli "X" sosial şəbəkəsindəki hesabında bildirib. Onun sözlərinə görə, 2023-cü il ərzində bu göstərici 742,5 milyon manat olub.

Cari il ərzində ən çox qənaət edilən dövlət büdcə vəsaitlərinin məbləği (69,1 milyon manat) iyun ayına təsadüf edib. Bu isə 2023-cü ilin eyni dövrü ilə müqayisədə 39,8 faiz çoxdur.

"Dövlət Xidməti satınalmaların planlaşdırılması, təchizatçıların uyğunluq göstəriciləri və təkliflərin qiymətləndirilməsində şəffaflıq və qərəzsizlik prinsiplərinə əməl olunması istiqamətində nəzarət tədbirlərini davam etdirir", – deyə M.Abbasbəyli bildirib.

Onun sözlərinə görə, dövlət satınalmalarının təşkili zamanı dövlət vəsaitlərindən səmərəli istifadə ilə izafi xərclərə yol verilməməsi və maliyyə intizamının gücləndirilməsinə nail olunur.

# Ötən il neft-qaz cəbhəsi ölkəyə 14,5 milyard manat qazandırıb

**Ötən il Azərbaycan öz payına düşən karbohidrogenlərin satışından 14 milyard 519 milyon manat və yaxud 8 milyard 540,6 milyon ABŞ dolları xalis gəlir əldə edib. Bu, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il üzrə təsdiq edilmiş büdcə göstəricisinə nisbətən 2 milyard 753,2 milyon manat və ya 23,4 faiz çoxdur. Bu barədə Hesablama Palatasının "Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitlərinin formalaşdırılmasının və əsas istiqamətlər üzrə istifadəsinin auditi" üzrə apardığı kənar dövlət maliyyə nəzarəti tədbirinin nəticələrinə dair hesabatında bildirilib.**

İl ərzində bir sıra yataqlar üzrə hasilat proqnozu tam yerinə yetirilməsə də, xam neftin satış qiymətinin proqnozlaşdırılmış qiymətdən yüksək olması nəticəsində fondun bu mənbə üzrə daxilolmaları proqnoz məbləğini üstələyib. Belə ki, 2023-cü ilin büdcəsində xam neftin satış qiyməti 60 ABŞ dolları proqnozlaşdırıldığı halda, il ərzində bir barelin ortaçəkili qiyməti 83,4 dollar təşkil edib. Neftin satış qiymətinin proqnoza nisbətdə 23,4 dollar artıq olması ilə əlaqədar mənfəət nefti və qazın satışından daxilolmalar proqnozdan 2 milyard 753,2 milyon manat çox olub.

Ümumilikdə, neftin satış qiymətinin proqnozlaşdırıldığından artıq olması ARDNF-in büdcəsində profisitin yaranmasına gətirib çıxarıb. Belə ki, neftin satış qiymətinin proqnoza nisbətdə çox olması ilə bağlı mənfəət nefti və qazın satışından 8 milyard 540,6 milyon dollar gəlir əldə edilib. Eyni zamanda, fondun vəsaitinin idarə olunması üzrə gəlirliliyin 7,1 faiz səviyyəsində və ya əldə olunan gəlirlərin 3 milyard 728,1 milyon dollar təşkil etməsi aktivlərin həcmində artıma səbəb olunub. Belə ki, 2023-cü ilin dekabrın 31-nə fondun aktivləri ilin əvvəlinə nisbətən 7 milyard 36,1 milyon ABŞ dolları və yaxud 14,4 faizə qədər artaraq 56 milyard 69,7 milyon dollar təşkil edib.

Hesablama Palatasının sözügedən sənədinə əsasən, 2023-cü ildə Azərbaycan Dövlət Neft Fonduna 800,7 milyon manat və yaxud 471 milyon dollar məbləğində bonus ödənişləri daxil olub. Beləliklə, bu gəlir maddəsi büdcədə nəzərdə tutulana nisbətən 100 faiz icra olunub. Ümumilikdə, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri–Çıraq–Günəşli" yataqlar blokunun birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş üzrə 450 milyon dollar, "Abşeron" dəniz yatağı blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş və ona edilən düzəlişlərə əsasən fonda 20,8 milyon dollar, digər yataqlar üzrə isə 0,15 milyon dollar məbləğində vəsait ödənilib.

Dövlət Neft Fondunun gəlirlərinin bir qismi də akrhesabı ödənişlər hesabına formalaşdırılır. Hesablama Palatasının sözügedən sənədinə əsasən, 2022-ci ildə fonda, ümumilikdə, 3,6 milyon manat akrhesabı ödənişlər köçürülüb. Bununla da, bu ödənişlər hesabat ili üçün təsdiq edilmiş rəqəmlə müqayisədə tam həcmdə icra olunub.

Yeri gəlmişkən, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə "BP Exploration (Azərbaycan) limited" və SOCAR-ın ortaq neft şirkəti arasında imzalanmış Xəzər dənizinin Azərbaycan sektorundakı "Şəfəq-Asiman" perspektiv strukturunun birgə geoloji-kəşfiyyatı və işlənməsi haqqında hasilatın pay bölgüsü sazişi çərçivəsində müqavilə sahəsinin



hər kvadratkilometri üçün 2 min ABŞ dolları məbləğində illik akrhesab haqqı ödənilmədir. Adı çəkilən struktur sahəsinin ərazisi, təxminən, 1059 kvadratkilometr olduğundan il ərzində fonda 2,1 milyon dollar məbləğində ödəniş edilib.

2023-cü ildə neft və təbii qazın Azərbaycan ərazisi ilə nəqlindən əldə edilən gəlirlərdə isə (tranzit haqqı) azalma qeydə alınıb. Hesablama Palatasının "Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitlərinin formalaşdırılmasının və əsas istiqamətlər üzrə istifadəsinin auditi" üzrə apardığı kənar dövlət maliyyə nəzarəti tədbirinin nəticələrinə dair hesabatında bu məbləğin 0,9 milyon manat təşkil etdiyi bildirilib. Sənədə əsasən, bu gəlir maddəsi büdcədə nəzərdə tutulana (15,3 milyon manat) nisbətən 14,4 milyon manat və yaxud 94,5 faiz az icra olunub. Neft və qazın Azərbaycan ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər üzrə daxil olan məbləğin kəskin azalmasının səbəbi Ukraynadakı vəziyyət və Qara dənizdə daşınmalarla əlaqədar yaranmış məhdudiyyətlər nəticəsində Qərb İxrac Boru Kəməri (Bakı-Supsa) üzrə daşınmaların dayandırılması olub.

Bu arada, Hesablama Palatası Dövlət Neft Fonduna bir sıra təkliflərlə çıxış edib. Belə ki, qurumun ARDNF-in 2023-cü il büdcəsinin icrasına verdiyi rəydə bildirilir ki, daşınmaz əmlak alt portfeli üzrə hədəflənən alt portfelin qurulması ilə bağlı tələb olunan vaxt və məqbul bençmarkların seçilməsi və təsdiqi istiqamətində görülən işlər də nəzərə alınmaqla altportfel üçün yekun bençmarkın təsdiqi və fondun fəaliyyətini tənzimləyən müvafiq normativ hüquqi aktlarda öz əksini tapması məsələsinə baxılmalıdır. Bununla yanaşı, Palata qlobal daşınmaz əmlak bazarlarında qeyri-müəyyənliklərə və dəyişən tendensiyalara uyğunlaşmaq məqsədilə uzunmüddətli inkişaf potensialı olan sektorların araşdırılmasının vacibliyini qeyd edib.

Hesablama Palatasının ARDNF-ə verdiyi təkliflərdən biri də özəl səhmlərlə bağlıdır. Qurum hesab edir ki, özəl səhm investisiyalarının xüsusiyyətləri (likvidlik, uzun müddətli saxlanılma) səhmlərdən fərqli olduğuna görə ARDNF-in ümumi səhmlər portfelindən özəl səhmlər alt portfelinin öz müvafiq bençmarkı qeyd olunmaqla ayrılaraq fərqli alt portfeldə verilməsi məsələsinə baxılmalıdır. Eyni zamanda, Palatanın gəldiyi qənaətə görə, ARDNF-in səhmlər alt portfelinə daxil olan özəl səhm investisiyalarının xüsusiyyətləri, habelə bu maliyyə aktivinin qeyri-likvid xarekteri səbəbində altportfelin qurulması ilə bağlı vaxt və fondun bu yatırımlarla bağlı hədəflərini özündə tam olaraq əks etdirən ən məqbul bençmarkın seçilməsi istiqamətində görülən işlər də nəzərə alınaraq yekun müəyyən olunan bençmarkın təsdiqlənməsi və bunun müvafiq qaydada öz əksini tapması zəruridir.

Hesablama Palatası, həmçinin Dövlət Neft Fonduna SOCAR və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) ilə koordinasiyanı gücləndirməyi təklif edib. "Azərbaycanın payına düşən karbohidrogenlərin hasilat proqnozları ilə icra göstəriciləri arasında fərqlər müşahidə edildiyindən hasilat proqnozları müəyyən edilərkən SOCAR və ABƏŞ-lə koordinasiyasının gücləndirilməsi zəruridir", –deyə Hesablama Palatasının ARDNF-in 2023-cü il büdcəsinin icrasına verdiyi rəydə bildirilir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# İpək şəhərində XIII "İpək yolu" Festivalı

**Şəkidə XIII "Böyük İpək yolu" Beynəlxalq Musiqi Festivalı keçirilir. Qədim Şəki şəhəri tarixi İpək Yolu üzərində yerləşən və min illər ərzində bir-biri ilə ticari-iqtisadi əlaqələrə malik olmuş onlarla ölkənin mədəniyyət təmsilçilərini bu il də bir araya gətirib. Böyük İpək yolu həm tarixən, həm də bu gün, sadəcə, ticari-iqtisadi mahiyyət daşımır.**



Bu yollarda ayrı-ayrı xalqların dünyagörüşü və adət-ənənələrinin daha geniş arealda yayılması və qarşılıqlı şəkildə bir-birini zənginləşdirməsi kimi geniş miqyaslı mədəniyyət mübadiləsi baş verib. Bu yollar həyat və düşüncə tərzinə görə bir-birindən köklü surətdə fərqlənən xalqların universal bəşəri dəyərlərə yiyələnməsinə yol açıb. Xüsusi bir nəvazişlə İpək yolu adlandırdığımız Şərq–Qərb dəhlizi bu gün də öz tarixi missiyasını davam etdirməkdədir. Qədim İpək yolu üzərində yerləşən xalqların mədəniyyət təmsilçilərinin qədim ipək şəhəri Şəkidə bir araya gəlməsi də bu tarixi missiyanın çağdaş dövrümüzdəki davamıdır.

Tarixən Avropa ilə Asiya arasında körpü rolunu oynamış "Böyük İpək yolu"-nun bərpası ölkəmiz qarşısında yeni inkişaf üfüqləri açmaqdadır. Azərbaycanın zəngin təbii xammal ehtiyatları və Avropadan Asiyaya uzanan ticarət yolu üzərindəki əlverişli coğrafi mövqeyi dünya birliyi üçün onun geostrateji əhəmiyyətini artıran başlıca amillərdəndir. Böyük İpək yolu Avropa, Qara dəniz, Xəzər dənizi və Asiya regionlarındakı təbii ehtiyatlardan səmərəli istifadə və qarşılıqlı faydalı əməkdaşlıq baxımından bütün zamanlarda önəmli əhəmiyyət kəsb etmişdir.

Bu tarixi yolun bərpası və inkişaf etdirilməsi təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının dirçəlməsində, onun mənəvi oyanışında və inteqrasiya proseslərində misilsiz əhəmiyyətə malikdir. İlk dövrlərdə Şərq–Qərb əlaqələrinin yaxınlaşması prosesində kommunikativ rol oynayan Böyük İpək yoluna hazırda mədəniyyətlə yeni nəfəs verilməsi çox böyük önəm daşıyır.

Türk dövlətləri bu yolun qorunub saxlanılması üçün tarixin bütün dövrlərində xeyli cəhdlər göstərmişlər. Bəşər tarixində ilk transkontinental ticarət və diplomatiya yolu kimi qiymətləndirilən Böyük İpək yolu eramızdan əvvəl II əsrdən başlayaraq, Çindən Qərb istiqamətində ticarət karvanlarının hərəkət etməsi sayəsində xarici ticarət əlaqələrinin yaranmasına səbəb olmuşdu. Odlar yurdu Azərbaycan hələ antik dövrlərdə Böyük İpək yolu zəncirində olduqca önəmli həlqə, strateji mövqeyə malik bir region kimi qiymətləndirilirdi. Şərq və Qərb ölkələri arasında ticarət yollarının ölkəmizin ərazisindən keçməsi bütövlükdə bölgənin siyasi və iqtisadi inkişafında Azərbaycanın rolunu önəmli dərəcədə artırıb.

XXI əsrin başlanğıcından etibarən Böyük İpək yolunun müasir əsaslar üzərində yenidən qurulması və Şərq–Qərb tranzit və enerji dəhlizi sisteminin yaradılması istiqamətində həyata keçirilən iri miqyaslı layihələr qlobal iqtisadi sistemə yeni nəfəs gətirən mühüm hadisələrdir.

Çağdaş dünyamızda gedən geosiyasi proseslər fonunda geniş Avrasiya coğrafiyasında nəqliyyat-tranzit dəhlizlərinin aktuallığı heç vaxt olmadığı qədər artıb. Avropanın mərkəzində davam etməkdə olan müharibə və bir çox bölgələrdəki mövcud qarşıdurmalar Avrasiya miqyasında dövlətlərarası kommunikasiyaları iflic edir, bəzi sərhədlər bəzi ölkələrin üzünə qapanır. Ölkələr bir-biri ilə qarşılıqlı iqtisadi-ticari əlaqələri inkişaf etdirmək məqsədilə beynəlxalq daşıma şirkətləri üçün iqtisadi cəhətdən səmərəli və daha təhlükəsiz yeni alternativ marşrutlar axtarırlar. Belə bir şəraitdə nəzərlər, ilk növbədə, Azərbaycana yönəlir. Son 20 ildə ölkənin nəqliyyat-tranzit infrastrukturuna yatırılan sərmayələrin funksionallığı və səmərəliliyi məhz burada özünü göstərir. Ölkəmiz Şimal–Cənub, Şərq–Qərb nəqliyyat marşrutlarının qovşağında olduğu kimi həm də demək olar ki, bütün dünyanın marağında olan Orta Dəhlizin çox mühüm həlqələrindən birini təşkil edir

Bəllidir ki, tarixən də Azərbaycan Böyük İpək yolunun üzərində mühüm ticarət və mədəniyyət mərkəzlərindən biri olub. Azərbaycan Böyük İpək yolunun bərpa edilməsi konsepsiyasını dəstəkləyən ilk ölkələrdən biridir. Bu marşrutun yenidən canlandırılması perspektivini vaxtında dəyərləndirən Heydər Əliyev tarixi İpək yolunun bərpası və Azərbaycanın nəqliyyat-logistika imkanlarının dünyaya təqdim edilməsi istiqamətində çoxşaxəli fəaliyyət həyata keçirib.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə hələ 1998-ci il sentyabrın 7–8-də Bakıda 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçılarının, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə Böyük İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilib. Konfransın yekununda Avropa İttifaqının TRASEKA Proqramı əsasında "Avropa–Qafqaz–Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanıb. Əsas Çoxtərəfli Sazişin müddəalarına uyğun olaraq, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınıb. Müstəqil respublikamızın tranzit daşımaları baxımından cəlbediciliyini artırmaq üçün uzunmüddətli daxili sabitliyi təmin etmək, yüksək səviyyəli yol-nəqliyyat infrastrukturu qurmaq, milli qanunvericiliyi beynəlxalq tələblərə uyğunlaşdırmaq, Transxəzər marşrutu üzərində yerləşən dövlətlərlə koordinasiyalı fəaliyyət qurmaq və s. istiqamətlərdə görülən işlər bu gün daha bir əfsanənin – Avrasiya miqyaslı Böyük İpək yolunun reallaşdırılmasını mümkün edib.

Ulu öndərin gerçəkləşdirdiyi Bakı–Novorossiysk, Bakı–Supsa neft kəmərləri, bu neft strategiyasının davamı olaraq Prezident İlham Əliyevin "Böyük İpək yolu"nun şaxələndirilməsi istiqamətində həyata keçirilmiş Bakı – Tibilisi – Ceyhan əsas ixrac neft boru kəməri, TANAP və TAP qaz boru kəmərləri, Bakı–Tbilisi–Qars dəmir yolu xətti Avrasiya nəqliyyat dəhlizinin əsas sütunları sırasındadır.

Böyük İpək yolunun inkişafı təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının dirçəlişində, onun mənəvi oyanışında və inteqrasiya proseslərində misilsiz rola malikdir. Xüsusilə də, 2020-ci ilin payızında Azərbaycanın qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda yaranmış yeni geostrateji vəziyyətdə geniş miqyaslı iqtisadi-ticari və mədəni-humanitar əməkdaşlığa yol açacaq Zəngəzur dəhlizinin reallaşdırılması Türk dünyasının bütünləşməsi istiqamətində atılan ən ciddi addımlardan biri olacaqdır.

Böyük İpək yolu üzərində Şərq–Qərb enerji və nəqliyyat dəhlizi sistemlərinin yaranması XXI əsrin qlobal tarixi hadisələridir. Müasir dövrdə Avropa və Asiyanın mərkəzi zolağı boyunca uzanan və 34-dən artıq dövlətin ərazisindən keçərək onları birləşdirən bu tarixi ipək yolunun tam bərpası və yeni infrastruktur vahidləri ilə onun funksionallığının artırılması bütün dünya və o cümlədən Azərbaycan üçün ölçüyəgəlməz əhəmiyyətə malikdir.

***Cavanşir FEYZİYEV,***
***fəlsəfə doktoru***

# Ömrün payız nəğmələri

**"Ömrün payız nəğmələri" xeyli vaxtdı telefonumun yaddaşındadı. Yazını bu günlərdə hospitalda yatanda da oxudum və uşaqlığım keçən yollar, dumanlar arxasında qalan işıqlı illərim, qazandıqlarım, itirdiklərim... bir anda gözlərim önündən gəlib keçdi. Bu səmimi qeydlər ömrümün "yol xəritəsi" sayıla bilər. İstədim siz də oxuyasız. Bəzi məsələlərdə məni qınayan da olacaq. Həyatda, təbii ki, səhvlərim, uğursuz addımlarım olub. Ancaq, əsası odur ki, mən ömrümü vicdanla yaşamağa çalışmışam...**



Jurnalistika fakültəsində birgə oxuduğumuz, indi mənsub olduğumuz yaradıcı nəslin istedadlı nümayəndələrindən olan tələbə yoldaşımız Səməd Məlikzadənin 70 yaşına bu sətirləri yazarkən sütül gəncliyimizi əks etdirən bəxtəvərlik şəkillərimizə baxa-baxa düşünürəm: hə, illər sürətlə keçir, hələ zamanın hökm-fərmanına qarşı çıxa bilən tapılmayıb. Biz– dünənki uşaqlar da tanınmaz dərəcədə dəyişmiş, qocalmışıq, yalnız bir yerə yığışıb görüşəndə, sanki, zamanı aldadıb gəncləşmək istəyirik. Bir vaxtlar bu təşəbbüs Adil Qaçayoğlundan gələrdi, indi rəhmətliyin missiyasını Səməd davam etdirir.

Mən onu milli mətbuatımızın banisi, böyük maarifçi və içtimai xadim Həsən bəy Zərdabi ilə müqayisə etmək fikrindən uzağam. Hərçənd ki, Səməd özü də milli mətbuatımızın tanınmış simalarından biridir və bir çox cəhətlərilə istər-istəməz rəhmətliyi xatırladır... O da Həsən bəy kimi torpağa, təbiətə bağlıdır, qələmə aldığı yazılardan fəsillərin rəngi, rayihəsi duyulur. O da Zərdabi kimi heç bir təmənna güdməz, haramla işi yoxdur, haqqın tərəfindədir. Kiməsə, nəyə görəsə yaltaqlanmaz, əminəm ki, bu mərəz onu heç vaxt tutmayacaq. O da Zərdabi kimi heç bir təltif, mükafat görməyib. O da qocalığında doğma yurda dönüb, ağcaqanadlı torpağını bütün məkanlardan üstün tutub. Nə alovlu məqalələr yazan, nə pafoslu çıxışlar edən ehtiraslı fəallardan, nə də "millətin dərdlərinə biganə qalmaqla öz iftraları ilə hakimiyyətə yaltaqcasına xidmət edən" (Ömər Faiq Nemanzadə) ütüklərdən olub. Özü demişkən, sadəcə başını aşağı salıb qəzetçiliyini edib, vəzifə borcunu vicdanla yerinə yetirib, yazanda da elə yazıb ki, heç vaxt vicdan əzabı çəkməsin. Bir sözlə, biz zahirən Zərdabiyə oxşatdığımız dostumuzu jurnalist ləyaqətinə və mənəvi-əxlaqi keyfiyyətlərinə görə də o rəhmətliyə bənzədirik.

Uzun illər mətbuat aləmində külüng vurub (məcazı mənada), qələmi ilə daşdan çörək çıxarıb. Ötən müddətdə neçə qəzet-jurnalla əməkdaşlıq edib: "Yeni Şirvan" (Şamaxı rayonu) qəzetində şöbə müdiri, "Azərbaycan aqrar elmi" jurnalında redaktor, "Avrasiya" qəzetində baş redaktorun müavini, "Yeni Azərbaycan" qəzetində məsul katib, "Eksklüziv" informasiya agentliyində redaktor, "Tumurcuq" qəzetində redaktor...

Səməd həm də üç kitab müəllifidir. Əslində, Azərbaycan Dövlət Universiteti jurnalistika fakültəsinin 1976-cı il məzunlarının ömür yolundan bəhs edən "Bizim alın yazımız" adlı müxtəlif imzalı məqalələr toplusu da S. Məlikzadənin israrlı təşəbbüsünün və yorulmaz zəhmətinin məhsuludur. Kitabın məsuliyyətlə redaktəsi, nəfis tərtibatı və topluda verilmiş silsilə yazıları Səmədin zəhmətsevərlik və peşəkarlıq səviyyəsinin, zövq və səmimiyyətinin parlaq göstəricisidir.

O, son illərdə qələmə aldığı publisistik yazıları, sənət adamları ilə bağlı portret oçerkləri və lirik hekayələrini toplayıb "Ürəyimə yazılanlar" adlı kitab hazırlayıb.

Pensiyada olmasına baxmayaraq, bu gün də imzası dövrü mətbuatdan düşmür, illah da, indi medianın daha populyar qolunu təşkil edən internet vasitəsilə, Feysbukda təqdim etdiyi xırda yazılar həm böyük mətləblərə toxuna bilmək, həm də dil-üslub şirinliyi ilə maraq doğurur. Məlumdur ki, xırda sayt yazılarında ciddi məsələləri mövzuya çevirmək və təhlil etmək hər yazarın işi deyil, amma Səməd bunu bacarır, cəmiyyətdə baş verənləri, dərdlərimizi, problemlərimizi ustalıqla "incələyir", ən kəskin sözünü belə Mirzə Cəlil sayağı– qələminə "bal" qatıb deyir, Sabiranə ehyamlarını şəkərləyib "yedizdirir",– kimsənin incitmək yox, hamının yaxşılığına can atmaq istəyi var onda. Bir-iki misal:

"...Əcaib-qəraib kəpənəklər daraşıb məmləkətə. Haradan gəlib, kim göndərib, dəqiq bilən yoxdur... Onu da deyim ki, urus sovet olannan axıradək bu kəndə sarı adam ayağı dəymədi... İndi hər səhər durub görürsən ki, pəncərənin qabağı sarı-sarı kəpənəklərlə doludur. Həyətdə də ora-bura uçuşurlar... Məni qınamayın, deyirəm, bəlkə bu ya kitayların, ya da "sülhməramlı"ların hoqqasıdı..."

"Deyirəm, adam burada darıxar, ee. Küçəyə zibil tökmə, maşınını yolun ortasında saxlama, yaşıllıqları qırma, qonşunu narahat eləmə! Daha bunun harası birgəyaşayış oldu?... Heyif deyil Yasamal!"

Yaxud:

"Darıxma, atam balası, ömür dediyin şey elə belə olur: bu üzü ağ, o biri üzü qara, yarısı gecə, yarısı gündüz, bəzən şirin, bəzən acı, gah ümidli, gah da ümidsiz...

Darıxma, bu dünya ilə sənin alıb-verəcəyin nə qalıb ki, darıxırsan? Axı sən həyatda gözü-könlü tox yaşamısan, hər zaman aza qane olub, O Gözəgörünməzə duaçı olmusan. Bəs onda nəyin haqq-hesabını aparmağa çalışırsan? Bəlkə, şair demiş, eləmədiklərin yandırır Səni? Buna görə vaysınırsan? Çox nahaq, əlində-ovcunda olan bir girvənkəlik savabı təəssüflə yuyub aparma.

Darıxma, özün-özünü yıxarsan haa! Unutma, ağacı içindəki qurd yıxır, insanı fikir... Bil ki, qədərin Haqqdandır, alın yazın nədirsə – odur!

Darıxma, "belə qəmli dayanma", qalan ümidlərini də söndürmə..Ömür deyilən şey elə belə olur – bəzən ümidli, bəzən də ümidsiz...

Ayə, Sən canın, darıxıb məni də darıxdırma!"

Gənclik illərində dostlarla birlikdə Bakının axar-baxarlı küçələrini gəzməyi, Filarmoniya bağının ətəyindəki, Sabirin heykəlinin yaxınlığındakı çayxanalarda çay içə-içə söhbətləşməyi xoşlayardı. Yaşa dolunca doğma el-obası maqnit kimi özünə çəkməyə başladı. Onun "Yuxularımın kəndi" silsilə yazıları bu mövzudadır. Artıq iki ildir ki, boya-başa çatdığı yurduna qayıdıb, sakit həyat tərzi keçirir, əlbəttə, buna "sakit" demək mümkünsə...

Bir yaz günü tələbə yoldaşımız Teymur Xaspoladovla onun kəndinə yollandıq – Ağsu rayonunun Küdrü düzü deyilən aran ərazisindəki Cəfərli kəndinə. Məlumat üçün deyim ki, Küdrü əvvəllər tərəkəmələrin qışlaq yeri olub, yazda üzü dağlara yaylağa, payıza qənşər Küdrüyə üz tutublar, bu yerlərdə kənd-kəsək, o cümlədən Cəfərli sonralar salınıb. Səmədin qeydlərinə görə, o, anadan olanda Cəfərlidə vur-tut otuz ev olub. Yazdan iki ay keçmiş boz çölləri saralıb bozarmış Cəfərli adama qərib və darıxdırıcı təsir bağışlayır. Amma, necə deyərlər, Leylinin gözəlliyini görmək üçün gərək ona Məcnunun gözü ilə baxasan. Cəfərli həm onun uşaqlıq xatirələrini yaşadan doğma yurdu – Vətənin başlanğıcıdır, həm də nağılları ilə böyüdüyü ağsaqqal və ağbirçəklərinin, həyatdan vaxtsız getmiş can yoldaşının və oğlunun uyuduğu ziyarətgahdır.

Səmədin "jurnalistliyi" də bu kənddən başlanıb, rayon qəzetində, "Azərbaycan pioneri" qəzetində dərc olunan ilk qələm təcrübələri bu kəndə həsr olunub, yazarlığın şirinliyini – "sağ ol" və qonararını, acısını- kənd yoluna baxımsızlıq haqqında "Kirpi"yə yazdığına görə rayon təşkilatından gələn qınaq və töhməti burada dadıb.

– Bax, ora qəbristanlıqdı, Səidə və Nicatı orada dəfn eləmişəm... Hər gün buradan baxıb rəhmət diləyir, həyatın mənasını düşünürəm, gedib qəbirlərini ziyarət edirəm...

– Ağır-ağır nəfəs alır, gözlərini bir müddət o tərəfdən çəkə bilmir... Üz-gözündən həsrət, nisgil, ağrı ifadəsi oxunur. Bu görüntü ilə zamanın yorulub hərəkətdən dayanmış "heykəlini" xatırladır. "Yox, o, nə yayın qızmarında, nə də qışın şaxtasında heç yana getməyəcək"–, deyə fikrimdən keçirir və hələ tikib qurtara bilmədiyi evinin üzünü də qəbiristanlığa salmasının da fərqinə indi varıram... "İşə bax a, doğurdan da heç kəs, heç kəsin kitabını oxumur indi... Heç tələbə yoldaşımızın da taleyindən düz-əməlli xəbər tutmamışıq". Teymur da, mən də təəssüf içində "Allah hər ikisinə rəhmət eləsin" – deyirik.

**Ömür ötdü, arzularsa yarımçıq,**
**Bəlkə, sabah çətin günüm olacaq.**
**Qohum-qardaş hey arxamca deyinir,**
**Bu tək qaldı, bunun axırı noolacaq?**
**Mən bilməzdim dünya belə fanidi.**
**Bizdən sonra bir quru ad qalacaq.**
**Ötən günlər bir də dönməz geriyə.**
**Payız gəlir, bağça-bağlar solacaq.**

Səməd bu misraları darıxanda yazıb. Onun rəhmətlik həyat yoldaşı Cəfərlinin ilk şəhərli gəlini olub. Səidə də jurnalist idi, bir müddət "Azərbaycan Tibb Jurnali"nda işləmişdi, sonra da Milli Təhlükəsizlik Nazirliyində çalışdı, tərcüməçi zabit idi, mayor rütbəsi almışdı. Oğlu Nicat tarixçi jurnalist, "Zerkalo" qəzetində şöbə müdiri vəzifəsində çalışırdı. Rusdilli mətbuatımızın gözəl yazarlarından biri idi... Ailə sanki bir redaksiya idi...

Teymurla eyvana çıxıb qarşı tərəfdəki salxım saçaqlı söyüdün kölgəsinə sığınırıq. Aşağı sallanan sarımtıl-yaşılsov nazikcə budaqlardan birində kiçik torbaya bənzəyən quş yuvası var. İstidir, təzə salınmış yurddakı pöhrələrdən fərqli olaraq, nə vaxtsa su ilə dopdolu arxın kənarında basdırılmış bu ağac, bəhrə verməsə də, geniş qol-budağı və sərinliyi ilə lap qənimətdir. Arxın o tayında isə nar bağıdır, su bolluğunda yer də, ağaclar da yamyaşıldır. Səməd də öz sahəsində tinglər əkib, inanır ki, becərib hasilə çatdıracaq, barını görəcək... Tərəvəz ləkləri də salmışdı, amma haradansa peyda olmuş dovşan imkan vermədi. Az əvvəl: – Neyləsin, o da yaşamaq istəyir, yaşamaq üçün isə yemək lazımdır, – xəfif bir təbəssümlə demişdi Səməd. Və onu da demişdi ki, eyvanın yuxarısında, bax, o küncdə, pərdə ilə divarın arasında qumru quşu quva qurub bala çıxarmışdı. Bir dəfə köhnə kresloda oturub kitab oxuyurdum, gördüm ki, bir ilan yanımda dayanıb:" bir az o yana çəkil, o yuvaya baş çəkim, qayıdıram..." – deyirmiş kimi, haça dilini yalmandıra-yalmandıra həmin yuvaya – civildəşən balalara tərəf sürünür. Öldürmədim, qovdum getdi. – Ölüm-itimin nə demək olduğunu yaxşı bilən ilana da qıymazmış...

Səməd deyir ki, indi kənddə yaşamağımın əsas çətinliyi bilirsiz nədi? Uşaqlığımda gördüyüm, otub-durduğum insanların çoxunun dünyasını dəyişməsidi. Yeni nəsil isə məni yaxşı tanımır, mənimlə söhbətləri tutmur. Çünki mən zaman qəribiyəm. Özümü öz kəndimdə qərib quş kimi hiss edirəm. Buna görə də tez-tez qəbiristanlığa gedir, əzizlərimin, o insanların məzarları önündə dayanıb, onlarla "söhbətləşirəm". Arabir də əl ağacımı götürüb kəndin ətrafına çıxır, uşaqlığım keçən yolları bir daha keçirəm.

Hərdən Bakıya gəlib onu yad edən dostlarını başına yığıb söhbətləşəcək. Nəvələri ilə görüşüb, onları gəzməyə çıxaracaq, həsrətini çəkdiyi əzizlərinin iyini onlardan alacaq... Tələbə dostları ilə atüstü görüşməyə vaxt tapacaq, "uşaqlar, biz tərəflərə də gəlin, darıxıram axı", – deyəcək. Amma Səmədi hamıdan çox yad edən qardaşlarıdır. Maşallah, beş qardaşı var, onlar Səmədin üstündə yarpaq kimi əsirlər. Allah bir tərəfdən alanda, o biri tərəfdən var edir, ədalətinə şükür!

Biz – tələbə yoldaşlar isə onunla internet və mobil telefon vasitəsilə əlaqə saxlayır, hal-əhval tuturuq. Qocalıq qapını kəssə də, "uşaqlıq və gənclik sadəliyini, həmən yaş dövrünün təmiz heyrətini heç vaxt soldurmayam" (Vaqif Bəhmənlinin sözüdür, Səməd haqqında deyib- red.) dostumuzun kənd həyatına, təbiətə bağlılığı, təsərrüfat qayğıları haqqında da bu yolla xəbər tuturuq.

Uzun illərin ailə dostu, sənətşünaslıq doktoru, Rəssamlıq Akademiyasının professoru Ziyadxan Əliyev Səməd haqqında belə yazır: "Aqillərin "Yüz manatın olmaqdansa, yüz dostun olsa yaxşıdır" deyimini qəbul etməklə, demək istəyirəm ki, Səməd kimi dostu olanlar qalan 99-u olmadan da keçinə bilərlər!

Belə bir dostumun olması ilə fəxr edirəm! İndiyə kimi həyatın ən müxtəlif sınaqlarına tuş gələn dostumun o qədər də işıqlı olmayan "Alın yazısı"na yönəli nümayiş etdirdikləri çoxlarına məlumdur. Bu mənada öz nuru ilə təmənnasız dostlar qazana bilmiş Səmədin həyatı və əməlləri bizlərə də nümunədir."

Nədən, necə yazırsa-yazsın, səmimi olmağa çalışır. Onun yazılarında lirik bir ruh var. Bu ruh insanları təmizliyə, saflığa, vəfalı olmağa səsləyir.

Səfər vaxtımız bitdi. Səmədlə xudahafizləşib geriyə dönürük. "İnşallah iyulun 15- də mütləq Cəfərliyə yığışacağıq! Sənin 70 illiyinin səsi nəinki Cəfərliyə, Bakıyacan səs salacaq",– deyə, yarıciddi, yarızarafat bildirirəm. Və nədənsə şair İbrahim Yusifoğlunun "yaradıcılığına dərin hörmət bəslədiyi, həyatda 100 il ömür arzuladığı Səməd Məlikzadəyə həsr etdiyi "Ölümü gözləyən qoca" şeirindən bu həzin misralar xəyalımda canlanır:

**Gen otaqlar ona dardı,**
**Çıxıb həyətdə gözləyir.**
**Deməyə çox sözü vardı,**
**Yetişən anı gözləyir....**

Nə deyim, ay Səməd? Özün demiş, ilin və ömrün payızını eyni vaxtda yaşamaq çox çətindir, özü də tək-tənha. Allah dözüm və ömür versin. Ümidlərin sönməsin! Yeni tikdiyin evin, bağ-bağçanın barını-bəhərini görəsən! Küdrü düzündən havalanan ömür nəğmələrin tükənməsin!

***Elçin MEHRƏLİYEV,***
***yazıçı-publisist,***
***filologiya elmləri doktoru***

# Nəğməli "İpək yolu" Şəkidən keçir

**Şəki şəhərində "İpək yolu" adlı XIII Beynəlxalq Musiqi Festivalı keçirilir. Qədim və gözəl şəhərin yenidən qapılarını sazlı-sözlü qonaqların üzünə taybatay açıb. Bayram təntənələri Şəkinin 2712 illiyinin qeyd olunduğu vaxta düşməsi ilə daha da əlamətdardır.**



Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin sədri Murad Ağabəyli Şəkidə mədəni-tarixi irsin qorunub saxlanmasına çox böyük diqqət göstərildiyini vurğulayıb, şəhər sakinlərini əlamətdar gün münasibətilə təbrik edib. Şəki Bələdiyyəsinin sədr müavini Səyyarə Musayeva şəhərin inkişafı ilə bağlı həyata keçirilən layihələr barədə məlumat verib.

Rəsmi hissədən sonra bayram tədbirinin iştirakçıları rəngarəng konsert proqramını izləyiblər. Eldar Rəcəbovun rəhbərlik etdiyi Şəki Folklor Ansamblının, Şəkinin tanınmış ifaçılarının, həmçinin Qax rayonundan gəlmiş Qaxingiloy kənd Mədəniyyət evinin "Şvitkatso" xalq xoru və "İmedi" rəqs qrupunun çıxışları bayram tədbiri iştirakçılarının ürəyincə olub.

Tədbirin sonunda Şəki şəhərinin inkişafı ilə bağlı layihələrin həyata keçirilməsində, "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğunun ərazisində yerləşən tarixi binaların bərpasının layihələndirilməsi və dizayn işlərinin görülməsi xidmətlərinə, həmçinin Şəkinin mədəni həyatında fəal iştirakına, təhsil, idman sahəsində fərqləndiklərinə görə bir qrup şəhər sakininə xatirə hədiyyələri təqdim olunub.




Musiqi bayramı Mədəniyyət nazirliyi, Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşıb. Xatırladaq ki, indiyədək keçirilən festivallarda dünyanın 35 ölkəsindən tanınmış musiqi kollektivləri iştirak ediblər. Bu dəfə isə TÜRKSOY ölkələrindən, eləcə də Rusiya, İndoneziya, Hindistandan gəlmiş rəqs və musiqi kollektivləri, ifaçılar böyük həvəslə sənət bayramına qatılıblar.

Proqrama uyğun olaraq, iyulun 5-də "Yuxarı karvansaray" mehmanxana kompleksində ilk konsert verilib. Tatarıstanlı bayan ifaçısı, beynəlxalq müsabiqələr laureatı Aydar Salaxovun çıxışını tamaşaçılar maraqla qarşılayıblar.

Həmin gün axşam isə "Marxal" kompleksinin Yay Teatrında beynəlxalq festivalın təntənəli açılış mərasimi olub. Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov bu yerlərin sənət bayramları keçirmək üçün unikal məkan olduğunu qeyd edib, bu festivalı şəkililər üçün böyük bir hadisə kimi dəyərləndirib.

Festivalın bədii rəhbəri, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü, professor Firəngiz Əlizadə iştirakçıları salamlayıb, Şəki "İpək yolu" festivallarının Bəstəkarlar İttifaqının fəaliyyətində mühüm yer tutduğunu vurğulayıb və festivalın işinə uğurlar arzulayıb.

Sonra rəngarəng musiqilər təqdim edilib. İndoneziyanın "Mila Art" rəqs və "Hamdani" musiqi qrupları maraqlı proqram sərgiləyiblər. Uğurla keçən konsertin sonunda kollektivlərə festivalın simvolu təqdim olunub.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü, professor Firəngiz Əlizadə jurnalistlərə müsahibəsində deyib:

– Yenə də gözəl Şəkidəyik, XIII Beynəlxalq Musiqi Festivalını keçiririk. Festivalımız "İpək yolu" adlanır və biz neçə illərdir ki, bu yolla addımlayır, gedirik. Builki festivalın proqramı da çox zəngindir. Şəkililər musiqini çox sevir və böyük maraqla konsertlərimizə gəlirlər. Əminəm ki, hazırkı festivalımız da yüksək səviyyədə keçəcək və hər kəsə unudulmaz anlar yaşadacaq.

Dünən isə Şəkidə təntənələr "Şəhər günü" bayram tədbiri ilə başlanıb. "Şəhər günü"nün Şəkidə "İpək yolu" XIII Beynəlxalq Musiqi Festivalının keçirildiyi günlərə təsadüf etməsi sakinlərin bayram sevincinə əlavə rəng qatıb. Bayram tədbirinin iştirakçıları əvvəlcə Şəki sənətkarlarının əl işlərindən ibarət sərgilərə baxıblar.

"Şəhər Günü"nün açılışında bildirilib ki, 2712 illiyini qeyd edən qədim Şəki bütün dövrlərdə Azərbaycan tarixində mühüm yerə malik olub. Ona görə də şəhər sakinlərinin bu günü bayram etməyə daha çox mənəvi haqqı var. Diqqətə çatdırılıb ki, Şəkinin sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyi ərazilərdən biri olması bu şəhərə UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə üzv olmaq hüququ qazandırıb. Beş il öncə bu beynəlxalq təsisatın Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında "Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Axşam saatlarında festival iştirakçıları "Az Abrau Muzeyi"i ilə tanış olub, şərab zavodunun həyətində qurulmuş səhnədə Hindistandan gələn rəqs qrupunun və yerli musiqiçilərin çıxışına tamaşa ediblər. Burada Hindistan və yerli mətbəxin nümunələri təqdim olunub, şərab dequstasiyası, həmçinin şəbəkə sənəti üzrə ustad dərsi keçirilib.

Festival çərçivəsində bu gün Şəki Heydər Əliyev Mərkəzində TÜRKSOY-un təşkilatçılığı ilə Türkiyə və Qazaxıstandan gələn kollektivlərin çıxışları olacaq.

Bəli, qədim Şəki yenə də çal-çağırlı günlərini yaşayır. Şəhərin hər tərəfi əlvan festival rənglərinə bələnib. Bu gün keçiriləcək bağlanış mərasimində Fikrət Əmirov adına Əməkdar kollektiv Dövlət Mahnı və Rəqs Ansamblı, həmçinin Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri konsert proqramı ilə çıxış edəcək. Musiqi, dostluq və həmrəylik bayramına çevrilən festival yenə də insanların qəlbində gözəl duyğular, silinməz təəssüratlar yaradacaq.

*İlqar HƏSƏNOV,*
*"XQ"-nin bölgə müxbiri*

**Şəki**

ÖTƏNLƏRİN ƏKS-SƏDASI

# Mehdiqulu xanın mirzəsi və Bakıxanovun bir əsəri

**Qismətim elədir ki, hansısa tədbirdə iştirak edəndə gah dəyərli ziyalılarımızdan kiminləsə tanış oluram, gah da mənə çox qiymətli bir kitab hədiyyə edilir. Bu il mayın 25-də Xəzər Universitetində keçirilən bir təqdimatda isə dəyərli bir ziyalı soydaşımızla həmsöhbət oldum, həmin şəxs mənə Abbasqulu Ağa Bakıxanovun "Riyazül-Qüds" kitabını hədiyyə etdi.**




Söhbət Abbasqulu Ağa Bakıxanovun 230 illik yubileyinə həsr olunmuş tədbirdən, daha doğrusu, böyük alimin "Təhzibi-əxlaq"və "Mirat-ül Cəmal" kitablarının (fars dilindən tərcümə və şərhlər) təqdimatından gedir. Həmin tədbirdə musiqişünas, publisist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Səadət Qarabağlı ilə maraqlı söhbətimiz oldu. Mən onun haqqında Üzeyir bəy Hacıbəylinin Ev-muzeyinin direktoru olduğu illərdə çox eşitmişdim. İndi isə canlı söhbət etdik və milli tariximizin müxtəlif səhifələri barədə maraqlı faktlardan söz açdı.

Həmsöhbətim danışdı ki, milli mədəniyyət tariximizdə xüsusi xidmətləri olan nəsillərdən biri də Məşədi Ocaqverdi uşağı Haqverdi (Haqverdiyevlər) nəslidir: "Nəslimizin ulu babası Məşədi Ocaqverdidir. Ocaqverdi babam XVIII əsrin sonları, XIX yüzilliyin əvvəllərində yaşayıb yaratmışdır. Gözəl xəttatlığı vardı. Kitab üzü köçürməklə məşğul idi. Məşhədi ziyarət etdiyi üçün Məşədi titulu qazanmışdı. Məşədi Ocaqverdi Şərəf Məşədi Bağır qızı ilə ailə həyatı qurmuş, bu izdivacdan iki oğlanları – Haqverdi və Həsən doğulmuşlar. Haqverdi babam bizim şəcərənin davamçısıdır. O, Şuşada dünyaya gəlmişdir.

Yüksək mədrəsə təhsili almış, savadı və dünyagörüşü dolayımirzə adını qazanmışdır. Qarabağın sonuncu hakimi – Mehdiqulu xanın mirzəsi olmuşdur. Mehdiqulu xan Mirzə Haqverdi Qarabağiyə Ağcabədidə kənd bağışlamışdır. Bu kənd indi Haqverdi Mirzə adı ilə tanınır. Mirzə Haqverdinin nəvəsi, babam Məşədi Zeynal Haqverdiyevin xatirələrinə görə Məşədi Haqverdi Qarabaği uzun illər Mehdiqulu xanın yanında mirzə olaraq çalışmış, lakin bir əhvalat nəticəsində saraydan inciyərək, oranı tərk etmişdir. Əhvalat belə olmuşdur:

Günlərin bir günü saraydakı uşaqlar, Mirzə Haqverdi babam sarayda olmayanda, onun iş otağına girir, qələmi ilə oynayaraq onu sındırırlar. Mirzə saraya gələndə qələminin sındığını görür, bundan çox kədərlənir və saraydan birdəfəlik üz döndərir. Mehdiqulu xan dəfələrlə Mirzə Haqverdinin yanına minnətə adam göndərərək, geri qayıtmasını xahiş etsə də, babam bir daha saraya dönmür. Deyir ki, qələmimə hörmət olmayan yerdə mənim işim yoxdur! Bundan sonra bir daha saraya ayaq basmır".

– Bəs bu tədbirə nə məqsədlə gəlmisiniz? – deyə soruşdum. Həmsöhbətim xatırlatdı ki, Mirzə Haqverdi Qarabaği mahir xəttat idi. Atasının işini davam etdirərək, kitab üzü köçürməklə ailəsini dolandırır, həyatını təmin edirdi: "Akademik Feyzulla Qasımzadə "Abbasqulu ağa Bakıxanov Qüdsinin şeirləri" məqaləsində belə yazırdı: "Abbasqulu ağa Bakıxanovun mühüm əsərlərindən biri "Riyazül-Qüds" əsəridir. Bu əsərin Nizami adına Dil və Ədəbiyyat İnstitutunda kamil bir əlyazma nüsxəsi vardır. Bu nüsxənin üzü şairin sağlığında, 1841-ci ildə Məşədi Ocaqverdi oğlu Haqverdi Qarabaği tərəfindən köçürülmüşdür."

Həmin əsər bu yaxınlarda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının qərarı ilə ( ön sözün müəllifi akademik Möhsün Nağısoyludur) 560 səhifə həcmində ( əsərin Azərbaycan dilindəki variantı və əlyazmasının foto surətləri ilə birlikdə) çapdan çıxmışdır. Həmin kitabın bir nüsxəsini Xəzər Universitetinə təqdim etdim, başqa birini isə "Xalq qəzeti"nin kitabxanasına təqdim edirəm.

Səadət xanım danışdı ki, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Mirzə Haqverdinin köçürdüyü kitablar saxlanılır: "Mirzə Haqverdi həm də Qarabağın tarixini yazmış, gözəl şeirlər qələmə almışdır. Ancaq təəssüflər olsun ki, onların böyük əksəriyyəti əlimizə gəlib çatmamışdır. Çünki 1937-ci il repressiyasının xofundan babam Məşədi Zeynalın əmisi oğlu Yunus Haqverdiyev Mirzə Haqverdi Qarabağinin əlyazmalarını Xəzər dənizinə "ərmağan"etmişdir. Və beləliklə də Qarabağ tarixinin mühüm bir hissəsi məhv edilmişdir.

Mirzə Haqverdi Qarabağinin ikinci oğlu Hacı Ələkbər mənim babam Məşədi Zeynal Haqverdiyevin atası idi. O, Şuşada doğulmuş, dini təhsil almışdır. Tacir idi. Şuşada, Ağdamda, Ağcabədidə dükanları olmuşdur. Məkkəni ziyarət etmiş, Hacı titulu qazanmışdı". Həmsöhbətim məmnunluqla xatırlatdı ki, Məşədi Ocaqqulu oğlu Mirzə Haqverdi Qarabağinin nəsl şəcərəsi davam edir.

Bu, şəcərə hər zaman füsunkar, əsrarəngiz Şuşamızı, Qarabağımızı, həmçinin Azərbaycanımızı layiqincə yaşatmaq, şöhrətini ucalara qaldırmaq üçün öz xidmətlərini əsirgəməyəcək, hər zaman bu missiyanın müqəddəsliyini qoruyacaqdır.

*İttifaq MİRZƏBƏYLİ*

TƏQDİMAT



# Hulusi Kılıçın "Zəfər" sevdası

**Sumqayıt Dövlət Dram Teatrında "44 gün Vətən müharibəsi, Hulusi Kılıç informasiya cəbhəsində" kitabının təqdimatı keçirilib.**

Teatrın foyesində təşkil olunan tədbirdə öncə Vətən uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra təqdimatın moderatoru, Əməkdar artist Cəlal Məmmədov kitab və müəllifi haqqında ətraflı məlumat verdi. Xatırlandı ki, Hulusi Kılıçın həm Azərbaycanda, həm də daha sonra Moldovada səfir kimi fəaliyyət göstərdiyi dövrlərdə türkdilli xalqların bir-birinə yaxınlaşmasında xüsusi xidmətləri olub. İkinci Qarabağ savaşında ölkəmizin informasiya cəbhəsində mübarizə apardığı 44 gün ərzində Hulusi Kılıç baş verən hadisələrə dəfələrlə özəl münasibətini bildirib və müsahibələr verib ki, bu da haqq işimizin dünyaya çatdırılmasında xüsusi əhəmiyyət kəsb edib. Sonradan bu müsahibələr, çıxışlar toplanaraq kitab şəklində çap olunub.

Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının 1-ci müavini Teymur Səmədov, Veteranlar Şurasının sədr müavini, Əməkdar müəllim, Prezident təqaüdçüsü Ofeliya Babayeva, Sumqayıt Dövlət Universitetinin professoru, Əməkdar mədəniyyət işçisi, şair Rafiq Yusifoğlu, Azərbaycan Yazıçılar Birliyi Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin, Əli Kərim adına Poeziya evinin direktoru, şair İbrahim İlyaslı, Azərbaycan Televiziyası beynəlxalq əlaqələr departamentinin direktoru, siyasi icmalçı, "İmza" ictimai birliyinin rəhbəri Elnar Məmmədli, tanınmış psixiatr, tibb elmləri namizədi, Əməkdar həkim Mail Tağıyev ürək sözlərini söylədilər. Çıxışlarda vurğulandı ki, 44 günlük Vətən müharibəsinin bir dəyəri də Azərbaycan–Türkiyə dostluğu və mərdliyini nümayiş etdirməsi oldu. Tariximizdə buna qədər kifayət qədər nümunələr göstərmək olar, bu dəfə də cəngavər əsgərlərimiz böyük türk ruhunun cəsarətini ortaya qoydular. Elə təqdim olunan kitabında da Hulusi Kılıçın şərh etmək istədiyi əsas ideya və fikir ondan ibarətdir ki, dostluq və qardaşlıq qandan gəlir və bu, sözdə deyil, əməldə özünü göstərməlidir. Natiqlər Xalqımızın həqiqi sevgisini qazanmış Hulusi Kılıçın daim iki qardaş ölkənin birliyi, Azərbaycanın mənafeyi naminə uğurlu və məqsədyönlü fəaliyyət göstərdiyini təqdir etdilər.

Görüşdən məmnunluğunu bildirən Hulusi Kılıç bütün Türk dünyasının Zəfər qürurunu yaşadığını söylədi. O dedi ki, Azərbaycanın 44 günlük Vətən müharibəsi zamanı cismən Türkiyədə olsa da, ruhu və düşüncəsi cəbhədə idi. İnformasiya cəbhəsi isə diplomatik və siyasi bir cəbhədir. Vətən müharibəsi həqiqətlərini açıqlayan müsahibələrindən, düşüncələrindən ibarət bu kitabın satışından əldə olunan gəlir YAŞAT Fonduna köçürülür, şəhid ailələri və qazilər üçün sərf edilir.

Tədbirin davamı olaraq dramaturq Hafiz Ataxanlının qələmə aldığı, teatrın baş rejissoru, Xalq artisti Firudin Məhərrəmovun quruluş verdiyi qəhrəmanlıq dramı "Missiya" tamaşası təqdim edildi və böyük maraqla qarşılandı.

Tamaşadan sonra ünlü diplomat səhnə əsərindən çox təsirləndiyini bildirdi, teatr truppasının peşəkarlığından çox razı qaldığını dedi. Hulusi Kılıç Azərbaycanın artıq yeni dünya nizamında öz mövqeyi olduğunu, beynəlxalq layihələrə evsahibliyi etdiyini, siyasi-diplomatik, mənəvi-hərbi, sosial-iqtisadi inkişaf trayektoriyasını qürurla vurğuladı, Diplomat qeyd etdi ki, işğaldan azad olunmuş bölgələrdə yeni iqtisadi rayon yaradılıb və Qarabağ gülüstana çevrilməkdədir. Aşkar görünür ki, Azərbaycanın Zəfəri bölgənin böyük intibah dövrünə rəvac verəcək.

Hulusi Kılıç bu payız 75 yaşını qeyd etməyə hazırlaşan Sumqayıt şəhərinin də abadlıq və quruculuq işlərini bəyəndiyini, burada ədəbi-mədəni mühitin dolğun olduğunu dilə gətirdi.

*Əli NƏCƏFXANLI*
*XQ*

# "Halal" standartlı otellər

**Azərbaycanda fəaliyyət göstərən otel və mehmanxanalarda halal turizm xidmətlərinin rəsmi tətbiqi istiqamətində real addımlar atılmaqdadır. Bu konsepsiya İslam qaydalarına uyğun şəkildə tətil keçirmək istəyənlər üçün nəzərdə tutulan spesifik xidmətləri əhatə edir.**

Ölkəmizdə otellərlə bağlı rəsmi qaydada "halal" standartı tətbiq edilmir, amma Bakıda bir neçə otel var ki, rəsmi qaydada həmin standartı olmasa da, özü təyin etdiyi qaydalar əsasında halal xidmətlər təklif edir. Dövlət Turizm Agentliyinin açıqlamalarından da görünür ki, artıq ölkəmiz də beynəlxalq təcrübə əsasında halal turizm xidmətləri üzrə yeni dövlət standartı qəbul etməyə hazırlaşır. Bu standartın tətbiqindən sonra bir neçə otel və mehmanxanaya "halal" sertifikatı veriləcək. Turizm obyektləri bu sertifikatlaşmadan keçəcək və "halal otel" kimi fəaliyyət göstərə biləcəklər. Mövzu ilə əlaqədar XQ-yə ətraflı bilgi verən turizm üzrə ekspert Ceyhun Aşurov "halal otel" konseptinin gələn ildən tətbiq oluna biləcəyini dedi.

– İstənilən otel də bu konseptə keçə bilər. Bu, ölkəmizin turizm sənayesində



– Bu, turizm məhsullarının çeşidləndirilməsi və müştəri məmnuniyyəti baxımından önəm kəsb edir. Hazırda dünya turizm bazarında "halal" otelçiliyə tələbat var. Çünki səyahət edən turistlərin arasında müsəlman inanclılar da yetərli qədərdir. Nəzərə almaq lazımdır ki, Azərbaycana gələn turistlərin bir qismi müsəlman ölkələrinin sakinləridir və bu konsepsiya da həmin müştərilərin ehtiyaclarını qarşılamaq məqsədi daşıyır.

Ekspert "halal" adı ilə fəaliyyət göstərən otel və mehmanxanalarda tətbiq olunacaq meyarlar barədə də məlumat verdi.

– Bu konseptdə bir sıra meyarlar var ki, onlara əməl edilməlidir. Burada spirtli içkilər təqdim olunmur, namaz qılmaq üçün xüsusi yer olur. Hər otaqda namaz xalçası, qiblə göstəricisi və müqəddəs kitab – "Qurani-Kərim" olacaq. Ən əsası, turizm obyektlərinin menyusunda halal yeməklərə yer verilir.

Ekspert söylədi ki, belə obyektlərdə təkcə müsəlman ölkələrindən gələn qonaqlar deyil, digər dinlərin nümayəndələri də rahat qala bilərlər. Bu, sadəcə, turizm məhsuludur. Onun da öz müştəriləri var.

Turizm üzrə digər ekspert Rəhman Quliyev bu konsepsiyanın tətbiqi üçün ölkəmizdə dini otellərin inşasının nəzərdə tutulduğunu bildirdi və dedi ki, bu otellərin inşası paytaxt ərazisində və regionlarda planlaşdırılır.

yeni müştəri portfeli yaradacaq. Dünya ölkələrindən də bu konseptdə çalışanlar var. Ərəb ölkələri və qardaş Türkiyədə də bu model mövcuddur. Düşünürəm ki, Azərbaycanda bu standartın tətbiq olunması ölkəmizin turizm sektorunda əlavə müştəri bazası yaradacaq.

Söhbət yeməklərin halal standartlara uyğun gəlməsindən, qadınlar üçün ayrıca bir yerin ayrılmasından gedir. Çimərlik varsa, onların qadınlar üçün ayrıca nəzərdə tutulması da önəmlidir. Qadınların kişilər ilə birlikdə, məsələn, dənizdə çimməsinə, üzməsinə din birmənalı yanaşmır və bütün bunlar sözügedən standartda nəzərdə tutulur.

*Ceyhun ALIŞLI*

BEYNƏLXALQ HƏYAT

# Böyük Britaniya: Leyboristlərin lideri baş nazirdir




**Son cümə günü Böyük Britaniyada növbədənkənar parlament seçkiləri keçirilib. Məlum olduğu kimi, bu ölkənin artlq keçmiş baş naziri və 2010-cu ildən hakimiyyətdə olan Mühafizəkarlar Partiyasının lideri Rişi Sunak bu il mayın 22-də növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı qərar vermişdi.**

İki gün əvvəl keçirilmiş seçkilərin nəticələrinə görə, Leyboristlər Partiyası böyük fərqlə qələbə qazanıb. Belə ki, 650 yerlik İcmalar Palatasında leyboristlər 410, mühafizəkarlar isə cəmi 118 yer qazanıblar. Bu, Böyük Britaniyada mühafizəkarların 14 illik hakimiyyətinin başa çatması deməkdir.

Maraqlıdır ki, yeni İcmalar Palatasında, həmçinin rekord sayda qadın deputat olacaq. Britaniya qanunvericiliyinə görə, ən çox yerə sahib olan partiyanın lideri Baş nazir seçilir və kral tərəfindən ona hökuməti formalaşdırmaq tapşırılır.

İkinci yeri tutan partiyanın lideri ana müxalifət lideri olur. Mühafizəkarlar Partiyasının lideri Rişi Sunak seçkilərin nəticələri bəlli olan kimi, siyasi rəqibini təbrik edib.

Böyük Britaniyada sonuncu ümumi seçki 2019-cu il dekabrın 12-də keçirilib. O vaxt Boris Consonun rəhbərlik etdiyi Mühafizəkarlar Partiyası seçkilərdə qalib gəlib və partiya 43,6 faiz səs alaraq 365 mandat qazanıb. Mühafizəkarlar Partiyasının 44 yaşlı lideri Rishi Sunak Böyük Britaniyada Hindistan əsilli ilk Baş nazir olmuşdur.

R.Sunak əvvəllər Boris Consonun yaratdığı hökumətdə maliyyə naziri vəzifəsində çalışıb, Consonla fikir ayrılıqlarından sonra istefa verib və 2022-ci ilin oktyabrında partiyanın lideri və baş nazir seçilib.

Leyboristlər Partiyasının 61 yaşlı lideri Kir Starmer 2019-cu ildə partiyasının seçkilərdəki məğlubiyyətindən sonra 2020-ci ilin aprelində lider seçilib. Starmer əvvəllər Böyük Britaniya Krallığı Tacının Prokurorluğu Xidmətinin sədri vəzifəsində çalışıb. Seçicilərinə müraciət edən Starmer deyib ki, "dəyişiklik indi başlayır".

Leyboristlər Partiyasının lideri Kir Starmer Kral III Çarlzdan kabineti formalaşdırmaq mandatı alaraq Böyük Britaniyanın Baş naziri vəzifəsinin icrasına başlayıb. O, ölkə tarixində 58-ci baş nazirdir.

Yeri gəlmişkən, Böyük Britaniyanın yeni seçilmiş Baş naziri Kir Starmer vəzifəsinin ilk günündə əvvəlki hökumətin mübahisəli Ruandaya deportasiya planının icrasını dayandırıb.

"The Telegraph" qəzetinin cümə günü axşam saatlarında insayderlərə istinadla yaydığı məlumata görə, bu layihə "faktiki olaraq ölüdür". Kir Starmer bu addımın atılacağı vədini seçki kampaniyası zamanı vermişdi.

Qanunsuz miqrasiya yeni hökumət üçün prioritet məsələdir. Son illər Böyük Britaniyaya on minlərlə miqrant gəlib. Onlar tez-tez kiçik qayıqlarla La-Manş boğazı boyunca riskli marşrutla hərəkət edirlər. Yeni daxili işlər naziri İvett Kuper cümə günü hökumətin ilk prioritetlərindən birinin sərhəd təhlükəsizliyini təmin etmək olacağını bəyan edib.

***M.HACIXANLI***
***XQ***

# "YAY" qalereyası"düşüncə toxumları"nı cücərdir



**Günümüzdə incəsənətə yeni texnoloji anlam gəlib. Bu müasirlik bizim xeyrimizə olduğu qədər, həm də dövrümüzün yaradıcılığını bizə təqdim edir. Bunu bizə hiss etdirən "YAY" qalereyası böyük məmnuniyyətlə yenidən açılışını elan edir.**

"YAY" qalereyasında "Hər şey yaxşı olacaq: Sabah və ya nə vaxtsa" adlı qrup sərgisinin açılışında iştirak edən "YARAT" Müasir İncəsənət Məkanın təsisçisi, rəssam Aida Mahmudova da qrup sərgisində olan rəssamlardan biridir.

Açılış mərasimində çıxış edən "YARAT" Müasir İncəsənət Məkanının baş kuratoru, sənətşünas Fərəh Ələkbərli başda "YARAT" Müasir İncəsənət Məkanının təsisçisi, rəssam Aida Mahmudova olmaqla, sərgidə əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

Ekpozisiyanın kuratoru Zəhra Məmmədova mediaya açıqlamasında bildirib ki, fərqli təcrübələri olan 8 rəssam bu sərgidə bir araya gəlib. Bu dəfə Rasim Babayev, Elşən Baba, Orxan Hüseynov, Tərlan Qorçu, Aida Mahmudova, Qafar Rzayev, Zamir Süleymanov və CHINGIZ-in əsərlərindən ibarət qrup sərgisi təqdim olunub. Sərginin başlıca məqsədi müəyyən "düşüncə toxumları"nın cücərməsinə sövq etmək, insanları çətin dövrlərdə incəsənətin gücünə inanmağa vadar etməkdir.

Sərgi ilə tanış olan qonaqlara burada müasir dilemmalardan tutmuş introspek-




tiv səyahətlərə qədər geniş mövzuları araşdırmaq təklif olunur. Rəssamlar zaman və məkan anlayışının mürəkkəblikləri arasında məna axtarmaqla liminal məkanları, həmçinin bizim kim olduğumuzu və əqidəmizi götür-qoy etməyə məcbur edərək, identiklik və kimlik məsələsini araşdırırlar.

Mərasimdə konsert proqramı təqdim edilib.Sərgi dekabrın 8-dək davam edəcək.

***XQ***

# İran islahatçı namizədi seçdi

## Yeni prezident Məsud Pezeşkian ölkəyə nə vəd edir?

**Beləliklə, İranda yeni prezident seçildi. Seçkilərdə bir həftə əvvəl birinci turda səslərin 42,5 faizini qazanan islahatçı Məsud Pezeşkian və onun mühafizəkar rəqibi Səid Cəlili (38,6 faiz) iştirak etdi. 16 saatlıq səsvermədən sonra seçkilərin qalibinin islahatçı namizəd Məsud Pezeşkianın olduğu elan edildi.**



İranın dövlət xəbər agentliyi Press TV şənbə günü ölkənin seçki qərargahına istinadən xəbər verdi ki, islahatçı namizəd Məsud Pezeşkian səsvermədə qalib gəldi. Press TV cümə günü keçirilən ikinci turda cənab Pezeşkianın hesablanmış 30,5 milyon səsdən 16,3 milyondan çox səs qazandığını bildirdi. Onun mühafizəkar rəqibi Səid Cəlilinin isə 13,5 milyondan çox səs qazandığı vurğulanır. Seçici fəallığının 49,8 faiz təşkil etdiyi qeyd olunur.

Xatırladaq ki, səsvermənin birinci turunda prezidentliyə namizədlər tələb olunan 50 faiz səsi toplaya bilməmişdilər. 69 yaşlı ürək cərrahı və parlament üzvü Məsud Pezeşkian islahatçı kimi tanınır. O, ilk dəfə 2021-ci ildə qeydiyyat sənədlərini təqdim etmiş, lakin o zaman seçkilərdə iştiraka buraxılmamışdı. 2024-cü ildə isə sabiq prezident Həsən Ruhani və sabiq xarici işlər naziri Məhəmməd Cavad Zərif onu seçki kampaniyasında dəstəkləmişdilər.

Məsud Pezeşkian İranın düşmənləri ilə, xüsusən də nüvə proqramı ilə bağlı dialoqa üstünlük verir və bunu ölkənin daxili problemlərini həll etmək üçün bir vasitə kimi görür. "Əsas məsələ perspektivdir: biz dünya ilə problemlərimizi həll etmək istəyirik, yoxsa yox? İnanıram ki, biz ölkənin problemlərini həll etmək üçün çıxılmaz vəziyyətdən çıxmalıyıq – deyə, o, prezidentliyə namizədlərin son debatında belə çıxış etmişdi.

İslahatçı özünü bütün iranlıların namizədi kimi təqdim edir. 1994-cü ildə yol qəzasında həyat yoldaşını və uşaqlarından birini itirdikdən sonra cənab Pezeşkianın vaxtının çox hissəsini siyasətə həsr etdiyi məlumdur. İki oğlu və bir qızını tək böyütməsi və bir daha ailə qurmaması İranda ona rəğbət hissini artıran və hörmət qazandıran amillərdən biri kimi qeyd olunur.

Bəs islahatçı prezidentin seçilməsi İran və digər ölkələr üçün nə vəd edir? Öncə qeyd zəruridir ki, hər hansı bir namizədin qələbəsi İran siyasətinin köklü şəkildə yenidən qurulmasına gətirib çıxarmayacaq. Çünki bu ölkədə prezident ali liderin ümumi xəttinə həmişə sadiq qalır. Qonşu ölkədə prezident müəyyən səlahiyyətlərə malik olsa da, son səlahiyyət bütün dövlət məsələlərində son söz sahibi olan ali rəhbərdədir. Bununla belə, prezident postunda daha mötədil bir simanın olması İran və Qərb dövlətləri arasında dialoqu asanlaşdıra bilər. Ölkə daxilində Pezeşkian seçki kampaniyası zamanı vurğuladığı bəzi sosial dəyişiklikləri də həyata keçirə bilər, baxmayaraq ki, ekspertlər bu cür addımların çox çətin olduğunu bildirirlər.

Xatırladaq ki, M.Pezeşkian seçki kampaniyası zamanı inflyasiyanın qarşısını almaq üçün iqtisadi islahatlara çağırır, qadınların və etnik azlıqların hüquqlarını müdafiə edirdi. Bundan əlavə, o, Qərb ölkələri ilə münasibətlərin tədricən yaxşılaşdırılmasının tərəfdarıdır. O, İranın dünya ilə qarşılıqlı əlaqəsinin vacibliyini vurğulayaraq, tarixdə heç bir ölkənin qəfəsdə tərəqqi edə bilmədiyini deyirdi. M. Pezeşkian çıxışlarında qonşu ölkələr ilə turizm və ticarətin inkişaf etdirilməsi yönündə fəaliyyət göstərəcəyini deyirdi: "Sərhədləri bağlayaraq bir yerə çata bilməyəcəyik, turizm və ticarəti inkişaf etdirmək yönündə çalışacayıq".

Londonda yerləşən "Chatham House" analitik mərkəzinin Yaxın Şərq və Şimali Afrika Proqramının direktoru Sənam Vəkilin sözlərinə görə, M.Pezeşkianın seçilməsinin dərhal siyasət dəyişikliyinə səbəb olacağı ehtimalı azdır: "Ancaq Pezeşkian daha az repressiv mühitə uyğunlaşmaq üçün sistem vasitəsilə və daxilində işləməyə çalışacağını açıq şəkildə bildirir". İslahatçının bu dəyişiklikləri edə biləcəyinə zəmanət vermədiyini deyən S.Vəkil əlavə edir ki, bu, İranda prezident səlahiyyətlərinin sərhədlərini göstərir. Ancaq analitik düşünür ki, sosial azadlıqlar sahəsində yeni prezidentin manevr üçün imkanları ola bilər.

Bundan başqa, cənab Pezeşkian ölkəsinin Qəzzadakı müharibə və İranın nüvə proqramının irəliləyişindən qaynaqlanan İsrail və onun Qərb müttəfiqləri ilə gərginliyin artdığı bir vaxtda prezidentliyə başlayır. İsrail indi Livanda "Hizbullah"a qarşı potensial ikinci cəbhəyə hazırlaşır. İran isə şiddətlə buna qarşı çıxır. Buna görə də, ekspertlər Məsud Pezeşkianın İsraillə bağlı hazırkı siyasət trayektoriyasının dəyişəcəyini gözləmirlər.

Eyni zamanda, siyasi müşahidəçilərin sözlərinə görə, cənab Pezeşkian bir çox cəhətdən ali dini rəhbərlik üçün də ən yaxşı namizəddir. Ona görə ki, lazım gələrsə o, Qərblə danışıqlar aparmağa və daxili gərginliyi azaltmağa qadir siyasətçi kimi qiymətləndirilir. Qərb dövlətləri bu seçkilərin İranla münasibətlərini dəyişəcəyini gözləməsələr də, M.Pezeşkiana üstünlük verirdilər. Çünki Qərbdə düşünürlər ki, onun rəqibinin seçilməsi mövcud gərginliyi artırardı.

***S.ELAY***
***XQ***

# Naxçıvan xəbərləri

## "Yaşıl dünya könüllüləri" hesabat verib



"Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər, Gənclər və İdman nazirliklərinin birgə həyata keçirdiyi "Yaşıl dünya könüllüləri" proqramının birinci mərhələsinə yekun vurulub. Bununla bağlı qurum rəhbərlərinin iştirakı ilə ETSN-də hesabat toplantısı keçirilib.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman nazirinin müavini Məcid Seyidov, ekologiya və təbii sərvətlər naziri Xanlar Mustafayev ölkə başçısının rəhbərliyi altında "Yaşıl dünya naminə həmrəylik ili", eləcə də COP29 ilə bağlı ölkəmizdə geniş iş aparıldığını vurğulayıb, ekosistemin qorunmasında gənclərin rolundan bəhs ediblər.

Məclisdə bildirilib ki, bu il martın 13-dən fəaliyyətə başlayan könüllü qrupu ötən dövr ərzində muxtar respublikada keçirilən elmi-praktiki konfranslarda, bir sıra sərgilərdə, "1 günə 100 min ağac əkək", "Tullantıları tingə dəyiş" kimi ekoloji aksiyalarda, "Əkinçi bağı"nın salınmasında ardıcıl iştirak ediblər. "Yaşıl dünya könüllüləri"nin həmrəylik yürüşü ilə cəmiyyətə ətraf mühitin mühafizəsi və ekosistemlə bağlı bilgilər, sosial mesajlar ötürülüb. Könüllülər hazırladıqları müxtəlif məzmunlu qrafik posterlər sosial şəbəkə hesablarında yayımlanmaqla təbliğat və məlumatlandırma işi də aparıblar.

Müzakirələrdə "Ekoloji maarifləndirmə və ətraf mühitin mühafizəsinə dəstək" İctimai Birliyininin üzvlərinin və könüllülərin təklifləri, fikirləri dinlənilib. Sonda bir sıra tədbirlərin təşkilində göstərdiyi əməkdaşlığa görə ictimai biriliyin üzvlərinə təşəkkürnamə, könüllülərə isə sertifikat təqdim edilib.

## NDU-nun Beynəlxalq Məktəbi Kembric statusu alıb

Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncamında qeyd olunan mühüm məsələlərdən biri də Naxçıvan Dövlət Universitetinin nəzdində ingilisdilli orta məktəbin fəaliyyətə başlaması olub. Bu istiqamətdə görülən işlərin nəticəsi olaraq NDU-nun Beynəlxalq Məktəbinə Kembric Beynəlxalq Təhsil Proqramı ilə bu dərs ilindən 1-ci və 6-cı siniflər üçün tədris aparılmasına beynəlxalq lisenziya verilib.

Ali məktəbin bu layihə üzrə məsul şəxsi Bayram Əliyev XQ-yə bildirdi ki, Kembric proqramı dünyada bir neçə tanınmış, nüfuzlu tədris proqramlarından biridir və onun diplomlarını (attestat) dünyanın ən nüfuzlu universitetləri tanıyır. Tədrisi ingilis dilində həyata keçirilən Kembric proqramına lisenziya almaq üçün məktəblərdən müasir idarəetmə, yeni və effektiv tədris prosesi, müasir tədris imkanları tələb olunur. Məktəbdə şagirdlər ingilis dili ilə yanaşı, dünya dillərindən, ən azı, birinə də mükəmməl yiyələnirlər.


CAMBRIDGE

***Səbuhi HƏSƏNOV***
***XQ***

# Beyin çipli robot

**Çinin Tianjin Elm və Texnologiya Universitetitinin tədqiqat qrupu tərəfindən "mini beyin"lə təchiz edilmiş robot yaradılıb. Bioloji insan beyninin bəzi funksiyalarını özündə daşıyan beyin insan beynindən fərqli olaraq, xüsusi çip vasitəsilə idarə olunur.**



Çipin istifadəsi ilə robotun beynini idarə etmək, hədəflərini müəyyənləşdirmək, maneələri necə dəf etdiyini və digər hərəkətlərini izləmək mümkündür. Robotun bir xüsusiyyəti də, çip tərəfindən ona ötürülən elektrik siqnalları vasitəsilə ətrafda baş verən hadisələri anlaması və şərh edə bilməsidir.

Qeyd edək ki, "MetaBOC" adı verilən bu mini beyinlərdən daha çox elmi və texnoloji təcrübələr zamanı istifadə olunur. Lakin onu da bildirək ki, bu süni beyin növü ilk dəfədir ki, hazırlanmır. 2018-ci ildə tədqiqatçılar fosilləşmiş (daşlaşmış-müəllif) sümüklərin DNT-sindən mini beyin yaratmağa nail olmuşdular.

***FİDAN***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 140 (30544) 7 iyul 2024-cü il, bazar











# İspan “korridalar”ı fransız “xoruzlar”ı ilə yarımfinalda



## Alman “maşını”nı çökdürdülər

Bir çox idman növlərində olduğu kimi, futbolda da işlədilən “erkən final” ifadəsi, əslində, çox mübahisəli bir formuladır. Avro-2004-ün azarkeşlərinə bu barədə bir çox misallar çəkmək olar. Portuqaliya – İngiltərə, sonra Portuqaliya – Hollandiya və sonda Avropa çempionatının qızıl medallarına Yunanıstan millisi sahib olur. Ona görə də oyun zamanı hər iki məşqçi bu mövzudan ustalıqla yayındı. Yulian Nagelsmann alman pedantlığı ilə açıqlama verdi: “Bu, final deyil, dörddəbir finaldır və biz yarımfinalın iştirakçılarından biri olmaq istəyirik”. Lakin alman mütəxəssis nizam-intizamı gücləndirdi və agentlərin ardınca futbolçuların yaxınlarının da bazaya girişini bağladı. Məşq zamanı isə yüksək səslə musiqi ifa edirdilər ki, oyunçuların göstəriş və iradlarını heç kim eşitməsin.

Öz növbəsində, Luis de la Fuente də gərginliyi aradan qaldırmağa və futbolçularını lazımsız təzyiqdən azad etməyə çalışıb. Turnirin ən parlaq iki komandası arasında oyuna təsadüfən belə ad vermədilər: finala layiq matç. Bu, Avropa çempionatında ispanların həmişə gecikdiyi mətbuat konfransında baş məşqçi zarafat etməyi də unutmadı. Məsələn, ötürmə almaq və topu asanlıqla qəbul etmək imkanlarının məhdudlaşdırılması lazım olan Kroosla bağlı sual verəndə, de la Fuente zarafatla deyib: “Almanın ayaqlarını bağlamaq mümkündür, lakin UEFA, çətin ki, bu fikri bəyənsin”.

Beləliklə, gözlənilənlər baş verdi: rəqiblər İspaniya və Almaniya matçının erkən final olacağını gözləyənləri məyus etmədilər və Avropa çempionatının, bəlkə ən gözəl futbol tamaşasını nümayiş etdirdilər. Bəlli oldu ki, 1/4 finala belə bir səs-küylü adın verilməsi təkcə gurultulu ifadə və çılğın başlıq seçmək xətrinə olmayıb. Müxtəlif analitik saytlar tərəfindən turnirin iki əsas favoriti kimi təqdim edənlərin proqnozları təsdiqləndi.

Nəhayət, bu turnirdə istədiyimiz və gözlədiyimiz futbolu görə bildik. Bu oyunda hər şey var idi: intriqa və gərginlik, sürət və kombinasiyalar, süjet və dramatik vəziyyətlər. Hətta ispanların çoxsaylı qayda pozuntularına görə Kroosu meydandan qovmamaqdan, almanların isə Kukurellanın əlinə dəyən topa görə təyin olunmamış penaltidən şikayətlənmələri və qalmaqallı hakim qərarları da bu matçın ”menyusuna” daxil edilmişdi.

Almaniya sakinlərinin komandalarının son üç böyük turnirdəki çıxışından narazı qalmaları və sıxıntı yaşamaları bəlli idi. O səbəbdən evlərində keçirilən bu Avropa çempionatından gözləntiləri böyük idi. Üstəlik, yüksəlişdə olan ulduzlar Musiala və Virtz böyümüşdülər, Kroos qayıtmışdı, Nagelsmann isə komandada həddən çox çətinləşən atmosferi yaxşılaşdırmışdı.

Komandanın uğursuz olduğunu demək də doğru olmazdı. Bəlkə də hazırki Almaniya üçün bu maksimum idi. İndiki İspaniyanın səviyyəsinə çatmaq isə son dərəcə çətindir, çünki onlar, demək olar ki, idealdırlar.

Texniki ustalarla nə etmək olar? Sanki çarəsi məlumdur: sərt oyun, fədakarlıq, xarakter. Almanlar bunu çox gözəl başa düşürdülər. Kroosun ilk dəqiqələrdə nə etdiyini gördünüzmü? Əlbəttə, o, Pedrini zədələmək fikrində deyildi. Ancaq Pedrini əzəli rəqiblər olan Real və “Barselona” qarşılaşmalarından yaxşı tanıyan Toni açıq-aydın rəqibini bir az qorxutmaq istəyirdi. Sanki bu işə yaradı – Almaniya rəqibin ilkin hücum impulsunu darmadağın etdi. Sonra klassik qaydaya keçid başladı – bir tərəf sırf texniki sənətkarlığı ilə digər tərəfin ciddi intizamına qarşı oynadı. "Qırmızı Furiya" indiki vəziyyətdə o qədər yaxşıdır ki, hətta nizam-intizamı ilə də diqqət çəkir. Komandanın ehtiyat oyunçular skamyasının dərinliyi elə təmin edilib ki, zədəli Pedrinin yerinə alman intizamına qarşı möhtəşəm oyunu ilə tanınan Olmo çıxır və problemləri həll edir: əvvəlcə özü qol vurur, sonra Merinoya möhtəşəm qol ötürməsi verir.

Nagelsmannın komandası hesabı bərabərləşdirmək üçün titanic səy göstərdi. Heç Virtz 89-cü dəqiqədə qol vurmasaydı belə, yenə də matçın finala bərabər keçdiyini danmaq olmazdı. Stadionlarının tribunalarından yayılan emosiyalar, Füllkruqun zərbəsindən sonra topun dirəkdən dönməsi, Havertsin qapıçının üzərindən aşırma zərbəsi, aramsız təzyiq bunu açıq nümayiş etdirirdi. Amma Almaniya təzyiqi artırmalı idi. Axı eşitdiyimiz bütün əfsanələr alman xarakteri haqqında yaradılıb. Nəhayət, onlar bunu 89-cu dəqiqədə bacardılar. Elə görünürdü ki, dünyada bundan ədalətli heç nə ola bilməz.

Amma bu dəfə də “Bundestim”in əfsanələri davam etdirməyə gücü yetmədi. Doğrudur, xarakter onları dişlərinizi sıxıb şərəfli və iradəli yolla qaçmağa məcbur edirdi. Lakin yürüş məsafəsinə görə rəqiblərini xeyli üstələsələr də, imkanlardan kənara belə sıçrayışlardan sonra yorğunluq özünü göstərir. Ayaqlarının yorğunluğundan Kroos matçı başa vurdu, Rüdigerin çətinliklə hərəkət etdiyi, 119-cu dəqiqədə Merinonun onun arxasına çevik qaçmasından artıq bəlli oldu...

Yəqin ki, İsveçrə ilə qrup matçının əsas vaxtında Füllkruqun qolunu indi çoxları xatırlayır. O olmasaydı, Almaniya ikinci yerdə pley-offa yüksələrdi və İtaliya ilə 1/8 finalda oynayacaqdı. Bu oyunda da uğur qazansa, İngiltərə ilə qarşılaşacaqdı. Bu “marşrut” İspaniya ilə qarşılaşmaqdan daha sadə görünürdü. Bəs nə etməli, Füllkruq qol vurmamalı idimi? Qorxaqlıq göstərməli idimi? Bu, Almaniyanın nüfuzuna yaraşmazdı. Bir də, bu cür hiylələr adətən əks nəticə də verir.

Bəli, almanlar yenə titulsuz qaldılar. 2026-cı il Dünya çempionatında biz yəqin ki, fərqli “Bundestim” görəcəyik. Orda təqaüdə çıxan Kroos olmayacaq. Şübhəsiz ki, artıq 38 yaşı olan Noyeri də görməyəcəyik. Hətta belə bir hiss var ki, demək olar ki, 34 yaşlı kapitan Gündoğan ən yüksək səviyyədə daha iki il oynaya bilməyəcək.

“Kicker” nəşri yazır: Necə əzmkar mübarizə idi. Ancaq Almaniyanın öz evində Avropa Çempionatını qazanmaq xəyallarının faciəli sonu çatdı! Enişli-yoxuşlu 120 dəqiqədən sonra “Bundestim”– komandanın son həftələrdəki çıxışını layiqincə mükafatlandıran tamaşaçıların həvəsləndirici alqışları altında turnirlə vidalaşdı. Cümə axşamı Ştutqartda əvvəlcə İspaniya uzun müddət ən yaxşı komanda, sonra isə əlavə vaxtda daha şanslı oldu – onlar turnirin favoriti kimi yarımfinala çıxdılar”.

Heç bir komanda turnirdə bu iki komandadan daha yaxşı çıxış etmədi. Ardıcıl on üçüncü rəsmi oyununda qalib gələn ispanlar ümumilikdə matçın ən yaxşı komandası oldular. Amma Almaniya bu turnirdə məğlubiyyətə görə xəcalət çəkməməlidir. Çünki, İspaniya həqiqətən çox möhtəşəm idi.

## Qollara müharibə elan edən Fransa və Portuqaliya

İspaniya və Almaniya 1/4 finalın qalan iştirakçıları üçün səviyyə və intensivlik baxımından yüksək hədd qoydular. Ona görə də qalib “Qırmızı furya” ilə qarşılaşacaq Fransa–Portuqaliya cütündən gözləntilər bəlli idi. Təkcə meydanda qarşılaşan oyunçuların adlarını oxumaq kifayət edirdi ki, bu oyunun necə gərgin və maraqlı keçəcəyini təsəvvür edəsən. Axı, Kriştiano Ronaldo və Kilian Mbappe kimi ulduzların bol olduğu matç necə fərqli ola bilərdi?

Amma hər iki komandanın hücumunda qalaktik seçim olmasına baxmayaraq, komandaların konkret olaraq oyunları ilə bağlı kifayət qədər suallar yarandı. Fransızlar bu Avropa çempionatında heç vaxt təkbaşına oyundan qol vurmayıblar. Onların bombardiri avtoqollardır. Didie Deşam daim hücumçularını qarışdırır və yenə də bunu etdi – Kolo Muani Mbappe ilə mərkəzə çıxdı, Qrizmann onların arxasında. Qalan heyətdə elə sürprizlər olmadı.

Portuqaliyalı baş məşqçi Roberto Martinesə isə hamının verdiyi bir sual var idi, amma çox ciddi sual idi: Sloveniya ilə oyunda uğursuz çıxış edən Ronaldonu ehtiyat oyunçular skamyasında oturtmağa qərar verəcəkmi? Cəsarət etmədi – həm Kriştiano, həm də 41 yaşlı Pepe yenidən start heyətində idilər. Bəziləri bunu qorxaqlıq, digərləri isə sağlam ardıcıllıq adlandıracaq. Hər halda, portuqaliyalı kapitan təcili olaraq öz reputasiyasını bərpa etməli və komanda üçün ballast olması ilə bağlı söhbəti kəsməli idi.

Ümumiyyətlə, fransız və Portuqaliya hücumu bu turnirdə artıq meme çevrilməyə yaxındırlar. Amma görünən o idi ki, bu fakt futbolçuların özlərini və onların məşqçilərini elə də narahat etmirdi. Ən azından ilk yarıda belə görünürdü. Hər iki komanda hücuma keçməyə tələsmir, topu ehtiyatla meydanın mərkəzində irəli-geri qovmağa və yalnız ekstremal hallarda ağırlaşma ilə riskə getməyə üstünlük verirdi.

Fransızlar ilk dəqiqələrdən daha fəal olmağa başladılar, lakin 15-ci dəqiqədə sürəti azaltdılar və fasiləyə qədər sürət tamamilə yoxa çıxdı. Onların performansında yaddaqalan təkcə Teo Hernandesin cərimə meydançasına yaxınlaşmadan güclü zərbə endirməsi, bir də Mbappenin əsas göstəricisi olan sürətlə irəli şığıması oldu.

Portuqaliyalılar əsasən sol cinahdan hücuma keçməyə çalışırdılar, burada Nuno Mendeş və Rafael Leau sürətlə cərimə meydançasına doğru şığımaqla oyunda partlayış etmək istəyirdilər. Ancaq təhlükəli bir vəziyyət yarada bilmədilər. Kriştianu isə daim komandadan kənarda qaldı və Bruno Fernandes isə yalnız uzaq məsafədən zərbələr endirməyə müvəffəq oldu. Hər iki komandanın birinci hissədə hədəfə cəmi bir zərbə endirməsi azarkeşlərin gözlədikləri oyun deyildi. Amma hər iki komandanın meydanın mərkəzində qala qurmaları aydın görünürdü, elə ekspertlər də təxminən bunu gözləyirdilər.

Fasilədən sonra oyun nəhayət ki, qızışdı. Portuqaliya sürəti artıran ilk tərəf oldu – Kamavinqa demək olar ki, yalnız taktiki follarla, hətta öz qapısı qarşısında bu təhlükəli hərəkətləri etməklə, Leaunun keçidinə mane olmağı bacarırdı. Bir məqamda Kanselo əla fintlərlə topu cərimə meydançasına daxil olan Bernardo Silvaya ötürdü. Onun zərbəsini fransalı qapıçı Maignan gözəl seyv ilə dəf etdi. Daha bir dəqiqə sonra yenə də fransız qapıçı xilaskara çevrildi – bu məqamda iki dəfə dalbadal-əvvəlcə Vitinyanın zərbəsini, sonra arxadan Ronaldonun iti bucaqdan vurduğu zərbəni dəf etdi.

Didye Deşam Qrizmannı daha sürətli və çevik Dembele ilə əvəzlədi. Osman dərhal fransızların hücumuna sürət və kəskinlik əlavə etdi, sağ cinahda rəqibləri gərginlikdə saxlamağa başladı. Hətta özü təhlükəli zərbə endirdi, Mbappeyə ötürmə etdi. Lakin fransızların bütün zərbələri ya qapıdan yan keçdi, ya da düz Dieqo Kostaya “ünvanlandı”. Sonda Turam demək olar ki, Pepedən qaçmağı bacardı, lakin 41 yaşlı veteran 90-cı dəqiqədə oyuna yeni daxil olmuş gənc rəqibini iki dəfə qabaqlayaraq çeviklik möcüzəsi göstərdi. Ümumiyyətlə, ikinci qırx beş dəqiqə hər iki komandanın çıxışında xeyli canlı alındı, lakin bu, hesabı açmaq üçün kifayət etmədi.

Əlavə vaxt gözlənildiyi kimi, sakit templə keçdi, sanki komandalar penaltilər seriyasına getmək üçün əvvəlcədən razılaşmışdılar. Leaunun hər şeyi bitirmək imkanı var idi, lakin Rafa həmin axşam qol vurmağa qabil olmadığını nümayiş etdirdi. Ümumiyyətlə, portuqaliyalılar, demək olar ki, vəziyyət gərginləşmədən ötürmə verir, fransızlar isə müdafiəyə otururdular. Hər iki komanda bu mənzərədən razı görünürdü.

Fasilə zamanı maraqlı hadisə baş verdi – Mbappe əvəz olunmasını istədi və yerini Barkola verdi.

Portuqaliya da dəyişiklik etdi – Joao Feliks Leaonun yerinə meydana çıxdı və dərhal Fransisko Konseysaonun hava ötürməsinə sıçradı, lakin əla mövqedən başla zərbəsi hədəfdən qaçdı. Amma son 15 dəqiqədə fransızlar cəld cinah hücumlarına görə bir az daha fəal idilər. Düzdür, Barkol və Dembelenin zərbələri yaxşı alınmadı. Ən sonda Nuno Mendes əla zərbə mövqeyinə keçdi və hər şeyi həll edə bilərdi, amma Maignan sakitcə topu götürdü – bu matçda oyun ərzində qol görmək qismətimiz olmadı. Rəqiblər sanki qollara müharibə elan etmişdilər.

Amma oyun sonrası penaltilər seriyasında bunu ilk edən Dembele oldu. Ondan sonra isə topu küncə dəqiq vuran Ronaldo oldu. Ümumiyyətlə, bu “lotoreya”da, demək olar ki, bütün ifaçılar öz cəhdlərini çox inamla həyata keçirdilər. Portuqaliya futbolunun qızıl oğlanı, heç vaxt istedadını nümayiş etdirə bilməyən, indi isə gecənin anti-qəhrəmanına çevrilən Joao Feliksdən başqa. Onun zərbəsindən sonra top dirəyə uçdu. Fransızlar burada səhv etmədilər və Teo Hernandes dəqiq zərbə ilə Fransanı yarımfinala çıxardı. Bundan sonra bizi Fransa ilə İspaniya millisinin növbəti Avropa klassikası gözləyir.

“The Guardian” bu oyunla bağlı şərhinə belə başlıq verib: “Bir insanın böyük eqosu üzündən qalaktik döyüşdə məğlubiyyət”.

Hətta onun yoxluğu (Kriştiano Ronaldo – R.İ.) bir növ varlıq kimi hiss olunur. Kameralar onu axtarmağa davam edir. Tribunadakı azarkeşlər ona nəsə qışqırırlar. Nə qədər az etsə, bir o qədər vacib olur. O, oyunda nə qədər itirsə, bir o qədər çətinləşir. O, qara dəliyə bənzəyir, hər şeyi burulğanına çəkir. Və nəticədə, ən istedadlı komandalardan biri olan Portuqaliya da eyni qara dəlikdə yox olur.

Baxmaq dəhşətli idi. Dörddəbir final heç vaxt qəbul edilməyəcək bir hökm kimi başa çatdı, amma hər kəs bunun nə demək olduğunu dəqiq bilir. Qonsalo Ramos və Dioqo Jota ehtiyat oyunçular skamyasındadır. Pis oyun deyildi. Meydanda çoxlu heyranedici dərəcədə parlaq oyunçularla heç bir oyun yorucu ola bilməz. Doğrudan da, istedad müəyyən dərəcədə özlüyündə əsas xarakterdir. Bu, hər bir hərəkət və qərarın ani fəlakətin kənarında rəqs etdiyi final kimi hiss edilən bir matç idi. Maksimum kontekstli futbol: hər ötürmə məna və niyyətlə yüklənir, qapıya hər zərbə ölümün xəbərçisidir”. Amma bu, baş vermir…

## “3 şir”in hücumları xoş təsir bağışlamır

Dünən 1/4 finalın son iki cütünün oyunları ilə bu tur başa çatdı. İlk qarşılaşmada İngiltərə, bu turnirin sensasiyalarından birinə imza atan İsveçrə millisini imtahana çəkirdi. Qarşılaşma Düsseldorfda “Merkur Şpil-Arena”da keçirilirdi.

İngiltərə – İsveçrə millilərinin şəxsi statistikasından görünən budur ki, komandalar 19-u yoldaşlıq oyunu da daxil olmaqla 31 dəfə üz-üzə gəlib. 12 rəsmi görüşdə İngiltərə 7, İsveçrə 1 dəfə güclü olub. Komandalar dörd dəfə heç-heçə ilə ayrılıblar. Son oyun 2022-ci ildə baş tutub – ingilislər Uemblidəki qarşılaşmada 2:1 hesabı ilə qalib olublar.

Matça proqnoz verən mütəxəssislər qeyd edirdilər ki, ingilislər 12 rəsmi oyunda uduzmasalar da, son beş matçda əsas vaxtda birdən çox qol vurmayıblar. İsveçrə də son 14 oyunun 13-də əsas vaxtda meydandan məğlubiyyətsiz ayrılıb, 12 oyunda ilk qolu vuraraq ardıcıl güclü nəticələr əldə edib. Qırmızı xaçlılar daha yaxşı səfərbər olan komanda kimi görünürlər. Oyundan belə güman etmək olurdu ki, onlar əsas vaxtda ingilislərə boyun əyməzlər.

İsveçrə Avropa çempionu İtaliyanı bu turnirdən təsadüfdən uzaqlaşdırmadığını göstərdi. İngiltərə qapısında qol görməyənə qədər bu oyunda əsla fovarit kimi oynamadı. Elə ona görə də oyunun 75-ci dəqiqəsində isveçrəli hücumçu Bril Embolo hesabı açıb komandasını 0-1 irəli çıxardı.

Yalnız bundan sonra İngiltərə millisi heyətindəki ulduzların səviyyəsinə uyğun oyun nümayiş etdirməyə başladı və 80-ci dəqiqədə yarımmüdafiəçi Bukayo Sakanın qolu ilə hesabı bərabərləşdirdi. Əlavə 15 dəqiqəlik iki hissədə də qalibi müəyyənləşdirmək mükün olmadı. Oyundan sonrakı 11 metrlik penalti seriaysında ingilislər daha dəqiq oldular. Beləliklə, İngiltərə yarımfinala vəsiqəni təmin etdi.

*Səhifəni hazırladı:*
*İlqar RÜSTƏMOV*
*XQ*

# Abşeronda günəşli, bölgələrdə yenə yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 7-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 21-26°, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunu, nisbi rütubət gecə 60-65 %, gündüz 35-40 % olacaq.**

Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 22-26°, gündüz 35-39°, dağlarda gecə 12-17°, gündüz 20-25° isti olacaq.

***Q. QASIMOV***
***XQ***



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2896
SİFARİŞ 1412
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00